ULDUZ

№03 (586)

WWW.AZYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ MART 2018



- Anarın ədəbi gəncliyi. Və ədəbi gəncliyin Anarı...
- Adilə Nəzərin özüylə söhbəti və şeirləri
- On yaşlı məşhur pianoçu
- «O, bir əsr üçün deyil, bütün zamanlar üçündür»
- Türk eli
- Dərgidə kitab

BU SAYIMIZDA

3
Vaqif YUSİFLİ
Fevral düşüncələri

10
Adilə NƏZƏR
özüylə söhbəti
və şeirləri

15
Nizami CƏFƏROV
Anarın ədəbi
gəncliyi...
Və ədəbi
gəncliyin Anarı



20
Məhəmməd
TURAN
şeir vaxtı

21
Xuraman
HÜSEYNZADƏ
nəsr

25
Əfsanə RƏVAN
şeir vaxtı

26
Natiq MƏMMƏDLİ
Anar, yaxud gələcəyin
yazıçısı haqqında
düşünərkən

29
Elkin KƏRİMLİ
şeir vaxtı

31 Aysel FİKRƏT
Torpaq adam

34 Ruzbeh MƏMMƏD
şeir vaxtı



35 Samirə ƏŞRƏF
On yaşlı məşhur pianoçu

41 FURQANİ
şeir vaxtı

44 Bilal ALARLI
tribuna

49 Şəlalə GÖYTÜRK
şeir vaxtı

51 Natiq RƏSULZADƏ
Qolfstrim

63 Zaur İLHAMOĞLU, Lamiyyə SƏFƏROVA
debüt

66 Ülvi KAZIM
esse

68 Əşrəf VEYSƏLLİ
şeir vaxtı

71 Bəxtiyar ASLAN
türk eli

75 Fərqanə MEHDİYEVA
1 şeir

76 Dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 16.03.2018
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib.
«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №18, Tiraj: 300
Qiyməti: 2 man.
1967-ci ildən çıxır
Şəhadətnamə № 238
Nömrənin eksperti:
Pərvin



«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
556 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

Vaqif YUSİFLİ

Fevral düşüncələri

"Ulduz"un fevral sayına rəy yazmağı mənə məsləhət görəndə çox sevindim. Üç ildir, özü də hər dəfə yaza az qalmış Qulu Ağsəs bu işi mənə tapşırır. "Ulduz"da isə həmişə yazdır, jurnalın səhifələrində ədəbi gəncliyin yazılarındakı o bahar təravətini, coşub-daşan hiss və həyəcanlarını, bakirə duyğu və düşüncələrini və əlbəttə, təzə söz demək təşəbbüslərini görəndə sevinirəm. Yaşımın yetmişindən o gənclərin qaynar poeziya, nəsr aləminə baş vururam, istedadla üzləşəndə və o istedadların yazılarındakı uğurlu məqamları görəndə ədəbiyyatımızın gələcəyi barədə xoş düşüncələrə dalıram. Tərif də, tənqid də, lap açıq irad da ədəbi gəncliyin xeyrinədir.

Fevral sayı ilə bağlı söhbətimə "Ulduz"un lap son səhifələrindən başlamaq istəyirəm.

Gənc şair Səxavət Sahilin "Dərgidə kitab" seriyasından "Nar ağacı" şeirlər silsiləsi təqdim edilir. Poeziyamızda ayrı-ayrı əşyalar, predmetlərlə, xüsusilə təbiət atributları ilə bağlı poetik düşüncələr həmişə maraqla qarşılanıb. Məsələn, Rəsul Rzanın, Nəbi Xəzrinin, Hüseyn Arifin, Məmməd Arazın, Musa Yaqubun, Məmməd İsmayılın, Səyavuş Sərxanlının, Xanım İsmayılqızının şeirlərində ağaclar, quşlar ayrı-ayrı poetik obrazlar kimi mənə kəsb edir. Nəbi Xəzrinin neçə şeirində çinar obrazı ilə qarşılaşırıq, hətta şair xaricdə də çinar görəndə deyir: "Ay bizim çinara oxşayan çinar". Səyavuş Sərxanlı bir şeirində yazır: "Hərə bir çiçəyə könül veribsə, mən də nərgizlərin nəğmə-karıyam". Nardan söhbət düşürsə, mən Məmməd İsmayılın "Günəş nar kimidir" şeirini xatırlayıram: "Elə bil dinc durmaz göylərin əli, Günəşi nar kimi sıxar dənizə". Səxavət Sahil də nara, nar ağacına sevgilərini izhar edir, öz daxili aləmi, duyğu və düşüncələri ilə nar arasında poetik rabitə axtarır və əlbəttə, nar və nar ağacına ancaq sevgi, yaşıllıq, gözəllik və ümid gözüylə baxmaq, onun yarpağına, çiçəyinə təşbihlər, metaforalar həsr eləmək uğurlu alınırsa, buna ancaq sevinmək olar.

Yazın qoxusunu
qızaran tumurcuğuyla alır
bomboz nar budağı.

Tutulduqca baharın nəfəsinə
yel tutan kösöv kimi
közərir, alışır,
güllənir ağaclar.

İndi şax durmuş şüvüllər
utancaq qız kimidir,
payızda qızaran narın yükündən
başını yerə dikəcək.

İndi budaqlar
utancaq qız deyil,
uşaq gözləyən ana kimidir.

S.Sahil bu şeirdə nar ağacının təbiət obrazını yaratmağa səy göstərib və iki təşbihlə (“utancaq qız kimidir, uşaq gözləyən ana kimidir”) nar ağacı haqqında poetik bir təsəvvür əldə olunur. Silsilədə şairin (lirik “mən”in) nar ağacı ilə bağlı düşüncələri, əsasən, assosiativ planda təqdim edilir, uşaqlıq, gənclik illəri yada düşür, şairin ömrünün müəyyən anları xatırlanır və bütün bu anımlar narla paralel verilir: “Uşaqlığım torpağa düşdü, budağından vaxtsız qopan nar kimi”, “Dərilməmiş nar qalıb çılpaq budaqda, mənim ömrüm kimi qaralıb elə”, “Havaya pullar kimi uçur, uçur çiçəklər, mənim ömrüm sayağı qismət olur torpağa” və s. Əlbəttə, bu bənzətmələr etiraz doğurmur, amma ortada “niyə” sualı meydana çıxır, Səxavət isə bu suallara cavab vermir...

Hiss olunur ki, Səxavət təbiətə, konkret olaraq nar ağacına adi bir predmet kimi baxmır. Məsələn, “Nar qız” şeirində də nar ağacı ilə bir qızın obrazını assosiativ planda təqdim edir. “Dodaqların şirinliyindən pardaxlanmış nar kimi qızarır – elə bilirəm, məni çağırır. Qolların nar şivi kimi uzun, nərmənazik...” Səxavətin yeni şeirlərində də poetik axtarışlara meyil edəcəyinə inanıram.

“Ulduz”un fevral sayında Hikmət Məlikzadənin “Özü ilə söhbəti...” və yeni şeirləri ilə tanış oldum. Artıq ömrünün 46-cı baharını yaşayan Hikmət Məlikzadə yaradıcılığının kamillik mərhələsinə qədəm qoyub: yəni o mənada ki, Hikmət 10 il, 15 il bundan əvvəlki müəyyən təcrübəsizliyinə son qoyub, o, artıq şeiri ŞEİR kimi yazır. Onun yeni şeirlərində ömrün 46 yaşından ötən illərə bir boylanış var: necə yaşamışam, həyat məni hansı çətinliklərlə qarşılaşdırıb, hansı əzabların yükünü çəkmişəm və s. Belə duyğular diqqəti cəlb edir. Xüsusilə, onun Allaha müraciətlə yazdığı iki şeir mənə xoş təsir bağışladı. Ədəbiyyatda ağrıdan, kədərdən yazmaq heç kimə yasaq olunmayıb, amma bir şərtlə ki, şeirdə ağrının da, kədərin də poeziyasını yaradasan.

Ancaq Hikmət Məlikzadənin “Özü ilə söhbəti”ndə bir məqam məni heç açmadı. O deyir: “Təbliğat çox mühüm vasitədir. Ənənəçi, güclü ədəbi miqyaslı bir şairi, yaxud yazıçını cəmiyyətdə tanıtmaq üçün bu vasitədən istifadə əsasdır. Ancaq təəssüf doğurası haldır ki, dünyada olduğu kimi, ölkəmizdə də əksər hallarda yalnız “adamlı” qələm sahibləri (yaxud da sadəcə, maddi imkanlı cızmaqaraçılar) təbliğata cəlb edilir. Bununla ədəbiyyat nə qazana bilər ki?! Qısası, pulum olsaydı, mən də təbliğat maşınına bilet alardım...” Fikrimcə, Hikmət Məlikzadənin bu sözlərində müəyyən həqiqət var, bəzən zəif və ortabab şairlər yaxşı təbliğ olunurlar. Amma zaman keçdikcə şeir aləmində kimin kim olduğu hamıya bəlli olur. Hikmət Məlikzadənin “Pulum olsaydı, mən də təbliğat maşınına bilet alardım” arzusu mənə xoş gəlmədi. Sən gözəl şairsən, Hikmət. Sənin belə bir “təbliğat maşını”na can atmağına heç bir ehtiyac yoxdur.

İki gənc şairin – Sevinc Qərib və Sərvər Kamranlının şeirləri haqqında da xoş sözlər söyləyə bilərəm. Bu yaxınlarda Sevinc Qəribin “Hardasa o uzaqlarda...” ilk şeirlər kitabı əlimə düşdü. Bu kitabdakı və “Ulduz”dakı yeni şeirləri məndə belə bir təəssürat oyatdı: Sevinc Qərib çalışır ki, təzə söz deyə bilsin. Məsələn, belə:

Getdiyin yolların uzaqlığı qədər
çəkilir ürəyim.
Ürəyim çəkildiyi qədər darıxıram.
Darıxdığım qədər ölürəm...
Həsrətim qədər uzanır əllərim
getdiyin yolların sən olan yerinə.
Baxışlarım əllərimin izində
çəkir yolları özünə sarı...

Sevinc Qəribin şeirləri haqqında ayrıca bir məqalə yazacağımdan söhbəti uzatmaq istəmirəm.

Sərvər Kamranlının şeirləri isə məndə ikili münasibət yaratdı. Onun şeirlərinə də ümidlə baxıram. "Üşüyür qucaqsız qalan şəkillər" adlı bir şeiri mənə 60-70-ci illərdə qələmə alınan gözəl sevgi şeirlərini xatırlatdı. Budur həmin şeir:

Qızılgül, bənövşə məst etmir məni,
Oxşamır telinin, gülüm, ətrinə.
Bilsəm ki, yuxuda görüşəcəyik,
Gündüz də yataram sənin xətrinə!

...Pəncərəm önündə qışlayır həsrət,
Sənli xəyallarım donur otaqda.
Üşüyür qucaqsız qalan şəkillər,
Üşüyür sahibsiz qalan yataq da...

Bu sazaq adamlar, soyuq adamlar
Bürüyüb yamanca yerdə hər yanı.
Sevib-sevilənlər yaxşı yanırlar,
Gəl sevək, isinsin dünyanın canı...

Sərvərin "Asılıb qalmışam dərd yaxasından", "Şəhid anaları haqqında", "Doğulandan sonra" şeirlərində də bir təzəlik gördüm. Amma "Yuxuma bir gözəl girəndən bəri", "Necə də gözəlmiş ölüm" şeirləri haqqında bu fikirləri deyə bilmərəm. Bu şeirlərdə də şeir texnologiyası baxımından qüsurlar gözə dəymir, amma əvvəlki şeirlərlə müqayisədə zəif görünürlər.

"Ulduz"da tanınmış yazıçı Elçin Hüseynbəylinin "Qəfil getmək" hekayəsi təqdim edilir. "Ulduz" jurnalı ilə artkaspi.az saytının birgə layihəsi kimi təqdim olunan bu hekayəyə Vüsal Nuru, Şahanə Müşfiq, Məhluqə Qasımova, Aqşin Xəyal və Aydın Xanın sonluqları da daxil edilir. Əvvəlcə Elçinin "Qəfil getmək..." hekayəsi haqqında bir neçə söz. Bu hekayədə həyatdan, yaşadığı mühitdən, gerçək aləmdən və qismən də ailəsindən narazı qalan bir insanın taleyi izlənilir. Bu adam daha yaşamaq istəmir, özünü öldürmək barədə fikirləşir. Qərara alır ki, evdən qəfil getsin və hardasa özünü öldürsün. Amma hara gedirsə, niyyəti baş tutmur, kor-peşman evinə qayıdır: "Ehmalca, çəkinə-çəkinə qapını döydü. Evə gec qayıtmış uşaqlara bənzəyirdi. Utancaq və günahkar cocuqlar kimi paltosunun qollarını dartışdırdı.

Kimsə asta addımlarla qapıya gəldi. Yerişindən qarısına oxşatdı.

Arvadı gözlükdən çölə baxdı. O biriləri də gəldilər və növbəylə gözlükdən baxdılar.

– Kimdir? – deyə arvadı handan-hana, az qala, pıçıltıyla soruşdu.

Sualdan diksindi. Canından üşütmə keçdi. Səsini içinə çəkib dayandı. Sonra geriyə döndü və ehmal addımlarla liftə tərəf getdi."

Məncə, Elçin Hüseynbəyli bu hekayədə hər şeyi – intihar etmək istəyən insanın daxili düşüncələrini, əhval-ruhiyyəsini kifayət qədər maraqlı təqdim edib. Bu adamın bundan sonra yaşayıb-yaşamamağının bir anlamı yoxdur. O ki qaldı sonluqlara, mən də Vüsal Nurunun Elçinin hekayəsinə yazılan bu sonluğunu məqbul hesab edirəm.

"Ulduz"un fevral nömrəsində yazılan digər yazılar haqqında qısaca söz açmaq istəyirəm:

– Fərqanə Mehdiyevanın təqdimatında Qazaxıstanda yaşayan Ruslan Dost Əlinin və Moskvada yaşayan Yaşar Süleymanlının uzaq ellərdəki həyatından, məişətindən, yaşadıqları mühitdən və əlbəttə, Azərbaycanla bağlılığından söz açılır. Ruslan Dost Əli istedadlı gənc şairlərdən biridir. Mən onun şeirləri barədə mətbuatda iki resenziya ilə çıxış etmişəm, ilk şeirlər kitabının təqdimatında da həmçinin. Fərqanə Ruslanın bir neçə şeirini də təqdim edir. Yaşar Süleymanlının "Kimsəsizlər üçün ev" hekayəsi də onun bu janrda yaxşı nümunələr yaradacağına ümid verir;

– "Ulduz" hər nömrəsində gənc müəlliflərin kiçik hekayələrini təqdim edir. Arzu Şaminin "Kukla teatrı", Tural İsmayılovun "Mən, o və..." hekayələri bu cavan müəlliflərin ədəbiyyat aləmində ilk addımları sayıla bilər. Arzu edirəm ki, bu addımlar daha da qətiləşsin;

– Fevralda ən qara gün Xocalı soyqırımı ilə bağlıdır. Ədəbiyyatımızda bu qanlı faciə ilə bağlı çoxlu əsərlər yazılıb və yazılacaq.

Tədqiqatçı xanım, filologiya üzrə fəlsəfə doktoru Mərziyyə Nəcəfova "Xocalı soyqırımı: Poetik fəryaddan ümumbəşəri ittihama" adlı məqaləsində poeziyamızda Xocalı faciəsinə həsr olunmuş əsərlərdən söz açır.;

– Daha bir ədəbi müzakirə – tanınmış tədqiqatçı Pərvanə Məmmədli Berlində yaşayan güneyli mühacir şair Nasir Merqati, şair və araşdırmaçı Hümmət Şahbazi, şair və naşir Səid Muğanlı ilə Cənubda yaranan çoxçeşidli poeziyadan söz açır;

"Ulduz"un auditoriyası genişdir. Burada gənclərin elmi baxışlarının formalaşmasına kömək edə biləcək yazılar da çap olunur. Fəlsəfə elmləri doktoru Rahid Uluselin "Dünya mədəniyyətinin ana ideyaları necə yoğrulub" məqaləsi də gənclər üçün çox faydalı olacaq;

"Ulduz" jurnalı ədəbiyyatımızın yaşlı nəsli ilə cavan nəsli arasında körpü missiyasını da layiqincə yerinə yetirir. Fevral nömrəsində görkəmli nasir Mustafa Çəmənli ilə müsahibə təqdim edilir. Mustafa Çəmənlinin fikir və mülahizələri, ədəbiyyatla bağlı düşüncələri müasir gənclik üçün faydalıdır.

Mənim "Ulduz"un fevral nömrəsi üçün qələmə aldığım bu ekspert rəyi jurnalın mart nömrəsində dərc ediləcək. Mart ayı da mənim çox sevdiyim aylardan biridir. Novruz bayramı, Qadınlar bayramı, bir sıra görkəmli şairlərin ad günləri bu aya düşür.

14 mart isə mənim yaddaşımda xalq yazıçısı, hamımızın sevimlisi Anarın ad günü kimi canlanır. Ona görə də mən bu böyük yazıçımız haqqında ürək sözlərimi söyləməyi qərara aldım.

«O, BİR ƏSR ÜÇÜN DEYİL, BÜTÜN ZAMANLAR ÜÇÜNDÜR»

XX əsr Azərbaycan mədəniyyəti bir sıra görkəmli şəxsiyyətlərin adları, imzaları ilə qürur doğurur. Əsrin əvvəllərində Sabir, Mirzə Cəlil, Hüseyn Cavid, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli, Məhəmməd Hadi, az sonra bu pleadaya qoşulan Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Rəsul Rza, Şəhriyar, Mirzə İbrahimov, Süleyman Rəhimov, İlyas Əfəndiyev, Mir Cəlal, Bəxtiyar Vahabzadə mənim təsəvvürümdə XX əsr Azərbaycan mədəniyyətinin ən nəhəng simalarıdır. Mən təkcə bu mədəniyyətin SÖZ, QƏLƏM bürcünü nişan verdim və olsun ki, bu sırada kimlərinsə adlarını çəkmədim. Təbii ki, dünya xəritəsində bir bənövşə yarpağı boyda yer tutan Azərbaycanımız XX əsrdə çox təzadlı, olduqca mürəkkəb və üzüntülü dövrlər, mərhələlər, illər yaşayıb, amma bu bənövşə yarpağı boyda torpağın sinəsi cadar-cadar olsa da, üstündə işğalçı orduların tökdüyü qan hələ silinməsə də, kişilər, qəhrəmanlar, dahilər yetirməyə qadirdir.

Keçən əsrin altmışıncı illəri XX əsr Azərbaycan mədəniyyəti tarixində üçüncü intibah dövrü sayıla bilər. Və intibah deyəndə mən yeni dünyagörüşünü, mədəniyyət, xüsusilə, ədəbiyyat aləmində baş verən əhəmiyyətli dəyişiklikləri nəzərdə tuturam. Yeni dünyagörüşü yeni mədəniyyət, yeni ədəbiyyat yaradır və sovet quruluşunun, bərqərar olmuş SİSTEMİN hələ çökmədiyi, amma barometrin tezliklə fırtına göstərəcəyi bir dövrdə ədəbiyyatın – söz sənətinin yeni bir gəncliyi doğuldu. "Altmışıncılar" ədəbiyyata gəldilər və bu yeniləşməyə təşəbbüs göstərən ustadlarla bir sırada ədəbiyyatın sifətini, xarakterini dəyişməyə, onu milli ənənələrdən təcrid olmamaq şərti ilə dünya ədəbiyyatı ilə qovuşdurmağa can atdılar. Artıq sosrealizmin prinsipləri, onilliklər boyu "Şair, hökmdarın hüzurundasan", "Ədəbiyyat işi ümumproletar mexanizminin bir təkərciyi, vintciyidir" hökmləri sınmağa müqavimət göstərsə də, tədricən sönməyə, öləziməyə başladı. Ədəbiyyatda "müsbət qəhrəman", "aparıcı insan" modelləri dağılmağa üz qoydu. "Müstəsna" qəhrəmanları adi, lakin mənəviyyatca zəngin insan obrazları əvəz etdi. İnsanı hərtərəfli, həm müsbət, həm də ziddiyyətli – "boyaların qatışığında" təsvir etmək prinsipi, həyatı, gerçəkliyi bəzəmək yox, bütün təzadları ilə təsvir etmək meyli getdikcə güclənməyə başladı. Bu prosesdə yaradıcılığa əllinci illərdə başlamış İsa Hüseynov, İsmayıl Şıxlı, Sabir Əhmədli və "altmışıncılar" – Anar, Elçin, Yusif Səmədoğlu, İsi Məlikzadə, Əkrəm Əylisli, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, Fərman Kərimzadə, Sabir Azəri, Əlibala Hacızadə mühüm rol oynadılar.

Anar – o illərdə bu prosesin aparıcı nümayəndələrindən biri, indi XXI əsrdə bütün

millətin tanıdığı, təqdir etdiyi sənətkar, Azərbaycan mədəniyyətini sözün həqiqi mənasında bütün dünyada təmsil edən görkəmli mədəniyyət xadimi kimi etiraf etdiyimiz bu böyük ziyalı 80 yaşını qeyd edir. Mən onu təkcə XX əsrin yox, XXI əsrin də fikir, düşüncə, əqidə adamı, Azərbaycan həqiqətlərini yüksək tribunalarda səsləndirən bir ziyalı hesab edirəm. İngilis şairi Ben Consonun V.Şekspir haqqında söylədiyi fikri xatırlayıram**: "O, bir əsr üçün deyil, bütün zamanlar üçündür".** Anar da məhz belə bir şəxsiyyətdir. İllər, əsrlər keçəcək, Anarın adı bütün zamanlarda anılacaq.

Anar Rəsul oğlu Rzayev ensiklopedik bir zəka sahibidir və onu təkcə yazıçı-sənətkar kimi qəbul və etiraf etmək azdır. Azərbaycan və dünya mədəniyyətinin elə bir sahəsi yoxdur ki, Anmarlıq, opera sənəti, folklor, xaricdə mövcud olan bütün sənət cərəyanları Anarın bilgi dairəsindədir.

Anar – XX və XXI əsrdə Zərdabi, Sabir, Mirzə Cəlil, Üzeyir bəy ənənələrini yaşadan, bu ənənələrə sadiq qalan, amma həmişə novatorluğa, yeniliyə can atan qüdrətli qələm sahibidir. O, klassik ədəbiyyatla müasir ədəbiyyat, Füzuli ilə öz müasirləri arasında uçulmaz, dağılmaz canlı bir körpü yaradan müasirimizdir.

Anar – bütün varlığı ilə Azərbaycana, onun keçmişinə, milli-mənəvi sərvətlərinə bağlı olan, onun müstəqilliyini arzulayan və bu amal uğrunda mübarizə aparan, təkcə əsərləri ilə deyil, ictimai-siyasi fəaliyyəti ilə də BÖYÜK ZİYALI, VƏTƏNPƏRVƏR obrazını öz varlığında əks etdirən azərbaycanlıdır. Xatırlayıram 90-cı ilin iyununda, SSRİ Ali Sovetinin sessiyasını. Sessiyada 20 Yanvarla bağlı müzakirə aparılırdı. Anar şəhidlərin xatirəsini yad etmək üçün bütün iştirakçıları ayağa qaldırdı. Qorbaçov bunu etmək istəmirdi.

Anar – türk dünyasında sayılan, seçilən, türkçülüyü, turançılığı təkcə sözdə deyil, həm də əməldə nümayiş etdirən bir türkdür.

Anar – Azərbaycan mədəniyyətini dünya arenasında təbliğ edən, dünyanın Azərbaycan kürsüsündə söz deməyə ixtiyarı və səlahiyyəti çatan xalq və dövlət adamıdır.

Anar – bugünkü Azərbaycan ədəbiyyatının başında duran, ona yön, axar, istiqamət verən, ağsaqqallıq səlahiyyətini layiqincə yerinə yetirən bir şəxsiyyətdir.

Anar – kinomuzun, teatrımızın, mətbuatımızın inkişafında yadda qala biləcək, unudulmayacaq sənət əsərlərinin müəllifidir.

Anar – gəncliyin dostudur.

* * *

1938-ci il, mart ayının 14-də Azərbaycanın iki gənc şairi – Rəsul Rza və Nigar Rəfibəylinin ailəsində bir oğlan uşağı dünyaya gəlir. Adını Anar qoyurlar.

"An" – saniyə, Anmaq – yada salmaq, Anım – assosiasiya.

"Oxucularla görüşdə birisi soruşur:

– Adınızın mənası nədir?

– Anar, – anmaq feilindəndir, anmaq – yada salmaq, anar – yada salar.

– Bəs deyirlər adınız belə açılır: Anam Nigar, Atam Rəsul.

– Yox, bu uydurmadır. Kim uydurubsa, maraqlı uydurub. Heç vaxt atamla anamın ağlına gəlməyib. Təkrar edirəm: Anar – anmaq feilindəndir, anmaq – yada salmaq" ("Sizsiz" povestindən)...

Atası Rəsul Rza, anası Nigar Rəfibəyli. Bu ailənin Azərbaycan ədəbiyyatına necə töhfələr verdiyi danılmazdır. Böyük türk şairi Nazim Hikmətin "özünəməxsus orijinal şair, xalq şeirinin, klassik poeziyanın böyük pərəstişkarı, axtaran şair" adlandırdığı Rəsul Rza XX əsr Azərbaycan poeziyasında ədəbi məktəb yaradan şairdir. Otuzuncu illərdən ömrünün sonuna kimi o, ədəbiyyatımızda yenilikçi-novator şair kimi şeirimizin milli ənənələri ilə beynəlmiləl ünsürlərini bir vəhdət halında birləşdirdi. Sərbəst şeirin ədəbiyyatımızda intişarı, onun milli poeziya ərazisinə daxil olması və burada qəti olaraq milliləşməsi Rəsul Rzanın adı ilə bağlıdır. İncə, zərif nərgiz çiçəyi öz yenilməz həyat qüvvəsi ilə qalın asfaltı yarıb günəşə boylandığı kimi, Rəsul Rza poeziyası ədəbiyyatda belə bir missiyanı yerinə yetirdi. Nigar xanım Rəfibəyli isə öz zərif, bahar bənövşələrini xatırladan şeirlərində Bakının, Xəzərin, Azərbaycan təbiətinin gözəlliklərini əks etdirən incə ruhlu şair idi. Heç kimə bənzəmirdi. 1981-ci ildə, aprelin 1-i ilə iyulun 10-u arasında keçən yüz gün ərzində Anar dünyada bu iki əziz adamını itirəcək. Amma həyat davam edir: "Ömür keçir, qatar keçir, işıq keçir. Dünyada qəm də, sevinc də keçəridir". Bu ailənin təməli ədəbiyyatla yoğrulub və Anarın Günel qızı, Tural oğlu da söz adamıdırlar. Əlbəttə, onların anası Zemfira xanımı – görkəmli sənətşünas, akademiki də unutmaq olmaz.

* * *

Bu yazını qələmə alarkən Anarın 2003-2006-cı illərdə nəşr olunan altıcildliyinə nəzər yetirdim. Deyim ki, Anarın ilk yazılarından sonuncu "Göz muncuğu" romanına qədər nə yazıbsa, hamısını oxumuşam, amma onun yaradıcılığı haqqında, bəlkə, ən az söz deyən mənəm. Onun əsərləri nəinki Azərbaycanın, keçmiş SSRİ məkanının və xarici ölkələrin (əsasən, Rusiya və Türkiyə) tənqidçi, ədəbiyyatşünas və tanınmış söz adamları tərəfindən yüksək qiymətləndirilib. Amma Anar yaradıcılığının müəyyən dövrlərində sərt, acı tənqidlərə də məruz qalıb. Xatırlayıram altmışıncı illərin sonlarını. Bir tənqidçi yazmışdı: "Anarın qəhrəmanlarının heç birində yüksək, işıqlı həyat idealı yoxdur". Sosrealizm məntiqi ilə söylənilən bu fikir çox tezliklə iflasa uğradı. Amma Anar bu yaşacan yenə "tənqid"lərdən, yersiz qınaqlardan, bəzən, hətta təhqirlərdən yaxa qurtara bilmir. Anarın bir hekayəsini yaza bilməyən bəzi cavanlar ona hərzəvü-hədyanlar yağdırdılar. Ancaq onlara bu həqiqət çatmır ki, Anar uzaq gələcəkdə də GÖRÜNƏN BİR HƏQİQƏTDİR!

Mətləbdən uzaqlaşmayaq. O illərdə Anar və "altmışıncılar" işıqlı həyat idealını "kommunizm ideallarında" deyil, həyatın özündə axtardılar. Nədir xoşbəxtlik, nədir səadət, insan hansı amallar uğrunda mübarizə aparır, insan nədən ötrü yaşayır. Vaxt, zaman amansızdır, dünya fanidir, insan ona bəxş olunan bu ömür payını necə yaşamalıdır? "Altıncı mərtəbə"nin ünvanı haradır, ağ liman və qırmızı gəmilər bizi hara səsləyir? Təbiətə, kəndə, keçmişə, ilkinliyəmi? Məncə, Anar və "altmışıncılar" bu suallara tam və dolğun cavablar verdilər. Yalnız gələcəyə! Vaxtilə Məmməd Arif yazmışdı: "Anarın qəhrəmanları ən adi adamlardır, onlar ən adi işlər görür, ən adi sözlər danışırlar. Ustalıq da elə ondadır ki, bu adilikdə insan mənəviyyatının dialektikasını, qeyri-adilikləri duya biləsən". Arif müəllimin məqaləsindəki bu "qeyri-adilik" ifadəsini təkcə onun ədəbi qəhrəmanlarına deyil, seçdiyi mövzulara, həyat materialına, nəsr və dram əsərlərindəki sənətkarlıq boyalarına da aid edirəm.

"Mənim 20 yaşım vardı və mən belə düşünürdüm. Mənə elə gəlirdi ki, insana səadət verilməmişdir: ona yalnız səadət arzulamaq, xoşbəxtlik ümidində, bəxtiyarlıq gümanında yaşamaq, sevincin kölgəsində daldalanmaq haqqı verilmişdir. Səadətə çatdığın an o öz təravətini, ətrini, gözəlliyini, cazibəsini itirir. Səadət üfüq kimidir: görünən və çatılmaz, yaxınlaşdıqca uzaqlaşan" ("Taksi və vaxt"). Səadətin üfüq kimi görünməz olduğu, amma insanın ümidlə yaşamaq ideyası o dövr ədəbiyyatı üçün qeyri-adi idi. Anar bu həqiqəti "Mən, sən, o və telefon", "Gürcü familiyası" hekayələrində, "Ağ liman", "Beşmərtəbəli evin

altıncı mərtəbəsi" əsərlərində bədii həqiqətə çevirdi. Anar ədəbiyyata yeni qəhrəman tipajları gətirdi. Zaur, Təhminə, Məmmədnəsir, Feyzulla Kəbirlinski, Nemət. Onların heç biri "müsbət qəhrəman" deyildi, amma reallığın özündən doğan İNSAN idilər. Hər birinin öz həyat idealı, yaşamaq prinsipi vardı və Anar sübut elədi ki, cəmiyyətdə bir-birinə oxşar, bir-birinin təkrarı olan insan modelləri yoxdur.

Böyük tənqidçimiz Yaşar Qarayev yazırdı: "Nəsrdə altmışıncı illərdən start götürən gəminin yan aldığı sahildə "Ağ liman" sözləri yazılmışdı. Dövrün ideya axtarışları və onun nəzəri özünüdərki Anarın həm bədii, həm də ədəbi-tənqidi fəaliyyəti ilə bağlıdır".

Və birdən-birə Anarın "Ağ liman" həqiqətindən "Molla Nəsrəddin-66" güzgüsünə meyil edib Mirzə Cəlil manerasını xatırladan bir üsulla "cəmiyyəti böyük mənəvi bir ideal və arzular naminə" (Y.Qarayev) tənqid etməsi də gözlənilməz deyildimi? Anar yaradıcılığında kifayət qədər tənqidi realizm ünsürləri və güclü yumor xətti axtaranlar heç də səhv eləmirlər. Onun əksər əsərlərində (xüsusilə, bir sıra televiziya tamaşalarında) bu tənqid və yumor xətti uğurludur. Anar bu mənada ustadı Mirzə Cəlildən çox şey əxz edib, Mirzə Cəlil kimi o da təkcə güldürmək naminə deyil, düşündürmək üçün yazıb bu əsərləri.

Yetmişinci illərin əvvəllərində isə Anar Dədə Qorqud dünyasına üz tutdu. Xalqımızın milli-mənəvi dəyərlərinin ilkinliyini özündə hifz edib bir dastana heç bir zədə toxundurmadan onun müasir variantını yaratmaq, doğrudan da, ədəbi hünər idi. Xalq bəlkə yox, lap həqiqətən Dədə Qorqudu orijinal mətndən deyil, Anarın kino-dastanından sevdi.

Anar Azərbaycan kinosunda "Torpaq. Dəniz. Od. Səma", "Dədə Qorqud", "Gün keçdi", "Qəm pəncərəsi", "Üzeyir ömrü", "Cavid ömrü", "Otel otağı", "Təhminə"... kimi bədii və sənədli filmlərin ssenari müəllifitək silinməz izlər buraxıb və fikirləşirsən ki, əgər bu filmlər olmasaydı, kinomuz bir qədər yoxsul görünməzdimi?

Mən Anarın bir dramaturq kimi fəaliyyətindən də söz aça bilərdim. Və kinomuz haqqında söylədiyim həmin fikri Azərbaycan teatrı üçün də məqbul sayıram.

Anar tənqidçidir, publisistdir, ədəbiyyatşünasdır, sənətşünasdır və bu fikrimi də sübut eləmək üçün onlarla təkzibedilməz dəlillər tapa bilərəm. Təbii ki, onun tənqidçiliyi, ədəbiyyatşünaslığı, sənətşünaslığı publisistika ilə nəfəs alır. Ancaq publisistika Anarın söz demək, fikir söyləmək ehtiyacının münasib ifadə üsuludur. Əsl fikir sahibinə, professional tənqidçiyə xas olan ümumiləşdirmə qabiliyyəti Anarın mənim ən çox bəyəndiyim "Şairin hünəri", "Şairin zəfəri", "Azərbaycançılıq haqqında düşüncələr", "Şəhidlər dağı", "Gecə düşüncələri" və özünün mənsub olduğu ədəbi nəslin yaradıcılığı haqqında söz açdığı məqaləsində, həmçinin Nazim Hikmət, Rəsul Rza, Ənvər Məmmədxanlı haqqında qələmə aldığı yazılarında daha bariz nəzərə çarpır.

Səksən yaşlı Anarda yaradıcılıq enerjisi qətiyyən tükənməyib və mən bunu neçə il öncə onun Azərbaycan Televiziyasında ("Mədəniyyət" kanalında) sərasər neçə il aparıcısı olduğu "Poeziya" verilişlərində də hiss etdim (o verilişlərdə mən Anar müəllimlə iyirmi dəfə tərəf-müqabil olmuşam). Anar 76 yaşında nəsrimizdə ədəbi hadisə kimi qeyd edilən "Göz muncuğu" romanını qələmə aldı. Az bir müddət ərzində roman ədəbi ictimaiyyət və oxucular arasında böyük əks-səda doğurdu. Bütün yaradıcılığı boyu hər yeni nəsr əsəriylə oxucuları düşünməyə sövq edən, onları narahat edən suallara cavab axtaran və təkcə məzmununa, təlqin etdiyi fikir və ideya anlamına görə deyil, həm də bədii-sənətkarlıq üsullarına görə seçilən Anar nəsri bu dəfə də ədəbi aləmi tərpətdi, silkələdi. Görünür, nəsrdə uzun müddət həyatı, insanı bu səpkidə təsvir edə biləcək əsərlərə ehtiyac duyulurmuş.

Və nəhayət, mən Anarı ədəbi gəncliyin dostu, xeyirxahı və hamisi kimi tanıyıram. Anar istedadlı gənc yazarlara qətiyyən biganə deyil. Onun gənc yazarlar haqqında neçə məqaləsinin adını çəkə bilərəm, təbii ki, cavanlara təkcə ədəbi qayğı yox, həm də məişət qayğılarında da Anar əlindən gələn köməyini əsirgəmir.

Təbii ki, bir yazıda Anar haqqında, sadəcə, düşündüklərimi söylədim. Tərif üçün söyləmədim, bildiyim həqiqəti izhar elədim…

Adilə NƏZƏR

Özüylə söhbəti...

Əslində, bir az qəribədir insanın özü ilə danışması. Bəzən bir həmsöhbətə ehtiyac duyursan, amma sonra fikirləşirsən ki, onsuz da səni özündən yaxşı heç kim anlamayacaq. Ya da heç tanımadığın biri ilə danışmaq istəyirsən. Hər halda tanımadığın biri ilə danışmaq tanıdığın biri ilə danışmaqdan asandır. Çünki ən azından sabah danışdıqlarına qaraboz don geyindirib kinayə ilə üzünə vuracağının qorxusunu yaşamırsan (Tanıdığım insanların çoxu tanımadıqlarım oldu.). Mən də o qorxusuz adamı tapmayanda özümlə həmsöhbət oluram.

– Olduğun vəziyyətdən və olduğun yerdən məmnunsanmı?

– Yox, heç birindən məmnun deyiləm.

Düşün ki, əlindəki gəlinciklə oynayan bir qız uşağı var. Diqqətlə baxıb görürsən ki, o qızcığaz, əslində, gəlinciklə oynamır, gəlinciyi analiz edir – bunu necə düzəldiblər, niyə üzü üstə çevirəndə ağlayır, saçları sarı olsaydı, daha gözəl olardı və s. kimi suallara cavab tapmağa çalışır. Onda anlayırsan ki, artıq bu qız böyüyüb... Mən indi özümü həmin o qız kimi hiss edirəm. Artıq ətrafımda baş verən hadisələr qalır bir tərəfdə, mən onun başvermə səbəbləri haqqında düşünürəm. Aktyorun yumoru məni güldürmür, tanıdığım birinin intiharı məni təəccübləndirmir. O aktyorun da, tanışın da bunu nədən etdiyini, bu halın hansı psixoloji durumdan yarandığını fikirləşirəm. Tələbələrdən və ya həmkarlarımdan biri bir məsələ haqqında gəldiyi nəticəni qeyd edərkən, mən onun hansı elmi əsaslara, hansı mənbəyə dayanaraq bu nəticəyə gəldiyi haqda düşünürəm. Bəlkə də, sonuncu dəfə nə vaxt təəccübləndiyim yadımda deyil. Oxuduqlarım, bildiklərim, gördüklərim və yaşadıqlarım əsasında, deyəsən, mən yaşımdan tez yaşlandım, o qızcığaz kimi tez böyüdüm. Əslində, bu heç də yaxşı hal deyil, mən məsumiyyətimi, sevincimi, gülüşümü, bəzən stress atmaq üçün vacib olan qəhqəhələrimi çox tez itirdim. İnsanın yaşamaq üçün səbəbləri qalmalıdır, sözün məcazi mənasında saflıq burda işə yarayır.

Sualın ikinci tərəfi. Təsəvvür edin ki, birinin əl-qolunu və gözlərini bağlayıb yol kənarına atıblar. Kiminsə gəlib o adamın əl-qolunu, gözlərini açması və ona yolun istiqamətini göstərməsi lazımdır ki, adam yoluna davam etsin. Mən illərlə əli-qolu bağlı o adam kimi ömür yolunun kənarında gözləmişəm, yanımdan etinasız ötüb keçənlər çox olub. Bu hal mənim illərimi alıb, illər sonra fiziki dünyadan ayrılıb, ruhani yöndən daxilimə enib özümdən güc almışam, o gücün müqabilində yerdən, göydən, ulduzlardan, Aydan, Günəşdən və kainatı Yaradandan enerji alaraq olduğum yerdən qalxıb yoluma davam etmişəm. Hesab edirəm ki, əgər vaxtında mənə kömək əlini uzadan olsaydı, mən indi olduğum yerdən daha irəlidə və cəmiyyətə daha çox yararlı ola bilərdim.

– Xəyalların varmı?

– Əlbəttə, var, amma hamısından danışmayacam. Çünki insanın özünə də etiraf etmədiyi xəyalları var. O xəyallar ki, toplumda qəbul olunmayacaq xəyallardı. Ona görə də toplumun qəbul etdiyi xəyallardan danışaq – hamı kimi, rahat yaşamaq istəyi, yüksək maaş, yüksək vəzifə, xoşbəxt ailə və s. İndi desəm ki, bu, mənim həqiqi xəyallarımdı, səmimi olmayacağam. Dilə gətirə bilmədiyim xəyallarımı fəda etdim topluma. Xəyallarımla birgə suya düşdüm də deyə bilərəm... amma olsun, bu da bir tale naxışıdı.

Bütün bunlara rəğmən, xəyal qurmaq gözəldir, ən azından, şeirlər yazdırır... Eyni zamanda, insanın eqosunu ortaya çıxarır. İnsan eqosuna yeniləndə insanlıqdan çıxır, eqosunu tamamilə öldürəndə isə acizləşir, ümidsizliyə düşür və bu halda onun həyatdan zövq alması çətinləşir. Bu da ümidsizliyə və həyatın sonunu tez gətirməyə aparır... Həddi aşmamaq şərtilə eqonu yaşatmaq gərək. Müəyyən qədər eqo gözəl arzuların, xəyalların, hədəfə çatmağın, cəsarətin mənbəyidir, düşünürəm.

– Cahillik təhsil almamaqla ölçülür?

– Təhsil şərtdir, arzu edərdim ki, təhsil almayan vətəndaşımız qalmasın, ən azından tam orta təhsil. Lakin bu, o demək deyil ki, təhsil alanlar cahillikdən qurtulur. Hətta ali təhsil alanlar arasında elə nadanlara rast gəlirik ki, cahilliyin göstəricisidir. Gücə, pul-paraya önəm verən, dünya malına həris, ehtiyacı olana olduğu halda "yoxumdu" deyənlər alim olmaqla nə veriblər cəmiyyətə. Bir şeirimdəki kimi: "İlahi, bu dünyada adam doğulmaq asan, adam olmaq (ölmək) çətindir".

Elə insanlar da var ki, onlar orta təhsildən sonra özlərini yetişdiriblər, ağlından, bacarığından istifadə edərək fəhləlikdən başlayıb böyük biznes yaradıblar və özlərindən başqa yüzlərlə, minlərlə insanı işlə təmin edirlər. Belə insanlar professor kimi yetişsəydilər, bəlkə, cəmiyyətə bu qədər yararlı olmazdılar.

– Həqiqət nədir? Həqiqət varmı?

– Kainatdakı tək həqiqət varlığına inandığım İlahi və haqq-ədaləti qoruyan ilkin dəyər, yəni İlahi ədalətdir. Bu ikisindən başqa həqiqətləri mütləq həqiqət saymıram. Çünki həyatdakı həqiqətlər zamana, məkana və şərtlərə görə dəyişir. Düşünürəm ki, həyatdakı ən böyük həqiqət mənəm. Mənim də həqiqətlərim hadisələrin gedişinə bağlı olaraq dəyişir. Dünən həqiqət saydığımı bu gün həqiqət saymaya bilərəm və elə gəldiyim bu nəticə də mənim bugünkü həqiqətimdir. Şübhənin də içində həqiqət var, amma mütləq həqiqət şübhədəki həqiqət qədər absurd deyil. Hər kəsin həqiqəti özü qədərdir, özü nə qədər doğrudursa, doğru bildikləri də o qədər doğrudur.

Ümumilikdə insanın yaşamı hədəfi axtarmaqdır. Hədəf isə həqiqətdir. İnsan həqiqəti nə zaman tapır? Özünü tapanda. Özümüzdən ayrılıb özümüzə doğru yol gedirik, cismən ayrılıb, ruhən özümüzə birləşəndə həqiqəti tapacağıq.

– Nəyi duyursunuz?

– ... çox şey duyuram
bütün uydurmaları unudanda.
məsələn, zamanı, məkanı,
saatın çıqqıltısını,
barmaqlarımın klaviaturadakı
tıqqıltısını.
Ürəyimin həcmini unudanda duyuram
dünyanın kiçikliyini...
Əlliləri, dilliləri, pulları unudanda
duyuram nə qədər varlı olduğumu.
Dünyanı zər-ziba kimi əyinlərinə

geyənləri
unudanda duyuram yalınqat əyinləri.
Yüksək tribunalardakı nadanları
unudanda
duyuram susdurulmuş beyinləri.
Olumsuz hər şeyi unudanda olumlu hər
şeyi duyuram,
özümü duyuram.
Özümü duyanda şeir yazıram.

Bax bu zaman özümlə söhbət baş tutur. Vay o kəslərin halına ki, özü ilə danışmağa – üzləşməyə üzü olmasın.

...və şeirləri

MƏDƏD, YA HU

Mədəd, Ya Hu, üşüyürəm,
Ətək ver, büküm canımı.
Yalqızlıq oda bürüyür,
Tənhalıq sökür canımı.

Yaşılım saman olur hey,
Göy üzüm duman olur hey,
Hər sözüm aman olur hey,
Dağıdıb tökür canımı.

Cavabla, ya Rəbb, çağrımı,
Alışdır sönən bağrımı.
Kül etmə eşqtək ağrını,
Yanğısı çəkir canımı.

Bu dünya deyil eynimə,
Od, alov geydir əynimə.
Qurban verib Sevdiyimə
Eyləyim şükür, canımı.

* * *

Bu necə görüş idi? –
baxan sən, yaxan sən, yanan mən..
Bu necə nağıl idi? –
əvvəli sən, sonu sən,
doğrusu sən, yalan mən.
Bu necə ayrılıqdı –
gələn sən, gedən sən, qalan sən...

AHIMI

Yuxudu yarı-yarıya,
Həyatım sanki bir röya.
Mələk, çatdır yuxarıya
Aşağıdan hər ahımı.

Bax ki, bu könlümdə nə var,
Bir sevda var, bir zalım yar.
Hər gecə günüm intihar
Edir, duyub kür ahımı.

Ağla, anladım bu dərdi,
Bir vaxt sevənə gülərdim.
Fələyə yüz ömür verdim,
Eşitmədi bir ahımı.

Tanrım, bir də keçir məni,
Götür, yerdən keçir məni.
Keçir, birdən keçir məni,
Çəkim bir də hürr ahımı.

SƏNİN PƏNCƏRƏNDƏ MƏNİM ÜMİDİM

Nə köks ötürürəm, nə ah çəkirəm,
Sönür adımıza yandırdığım şam.
Sənin pəncərəndə mənim ümidim
Edam kürsüsünə çıxır hər axşam.

Bilmirəm nə işdi, daşdan fərqi yox,
Qaynar gözlərinin qışdan fərqi yox,
Qəlbimin bir bala quşdan fərqi yox,
Dilsiz uşaq kimi ağlar hər axşam.

Yarpağı tökülən ağaclar kimi
Sənin taleyinə yazılan qışam.
Eh, sənə nə var ki, mənim ümidim
Edam kürsüsünə çıxır hər axşam.

ULDUZLARIN ALTINDA

Gündüz günəşdə qovrulmuş qızmar daşlar
sərinlədi yalın ayaqlarımda...
Görüb gecə topladı məni ovuclarına Tanrı,
göyün yeddinci qatında,
ulduzların altındayam...
Unutdum dilimin ucundakı bütün kəlmələri,

təkcə varlığımın əlifbası Eşq var indi ağlımda.
Bir əlçim buludun üstündə,
ulduzların altındayam...
Dünənimdən sabahıma körpü atdım gecəni,
vida etdim o pərişan hallara,
bir ovuc həsrətimlə töküldüm vağzallara
ulduzların altında...
Saydım, vüsalın kəm gəldi,
dinmədikcə söz dəmləndi,
bir az da sinəm nəmləndi
ulduzların altında...
Bir Tanrıya susuram bu şeiri, bir də sənə,
yox olub gedirəm
uzaqlardan bir ümid kimi gülümsəmənə...
Təslim edib ruhumu yağışa, küləyə,
təzələnib misra-misra inləyirəm.
Səsini eşitmək istəyəndə səssizliyi dinləyirəm
ulduzların altında...

UZAQ PƏNCƏRƏDƏ TƏNHA BİR QADIN

Uzaq pəncərədə tənha bir qadın
Nə vaxtsa yuxuna qonaq olacaq.
Durub baxacaqsan xatirələrə,
Səsin titrəyəcək, gözün dolacaq.

Bir nəğmə dəyəcək qulaqlarına
Səssiz küçələrdən keçəndə bir gün.
O anda yaş olub yanaqlarına
Axacaq, qəlbinə artıq gördüyün.

Baharda gül hüznü alacaq səni,
Gözəl nərgizlərin açdığı yerdə.
Bənövşə gələcək gözün önünə,
Donub qalacaqsan o anda birdən.

Keçəcək huşundan qığılcım kimi
Əlində çırpınan qaranquş bir əl.
Başına dönəcək fərari ağlın,
Dəli olacaqsan... məyus, məəttəl.

Dönüb axacaqsan qələm-kağıza,
Yumub tökəcəksən hey varaq-varaq.
Uzaq pəncərədə tənha bir qadın
Sonadək şeirinə mövzu olacaq.

ÇƏRŞƏNBƏ YALNIZLIĞI

Yenə bir çərşənbə yalnızlığıdır,
yenə bir ürək qəribliyi...
Ağ buludların arasından düşən gün işığı
ancaq xatirələri canlandırmağa yetir,
səni andırır təbiətdən yayılan ətir.
Əlimi uzatsam, tuta bilmərəm,
bilirəm, amma...
And içirəm, müqəddəs nə varsa ona!..
gözlərimi bağlasalar da, bilərəm
uzaqdan gələnin sən olduğunu,
təki gələsən...
Həyat deyilən bu məcburi yolçuluq
sənsiz heç çəkilmir,
torpağı daşlaşıb sol tərəfimin,
ora daha heç bir ümid əkilmir...

Yenə bir çərşənbə yalnızlığıdır,
yenə bir ürək qəribliyi...
Arada səslər duyuram,
aşağıda daşlar ağlayır, yuxarıda quşlar.
İndi axı heç kimsənin vaxtı yoxdur
belə incə mətləbləri anlaya,
adət edib hamı sanki sevənləri danlaya.
Asfalt yolda boş atılan addımlar,
torpaq yolda yalınqat adamlar...
Özün düşün gerisini...
Bu Allahsız yağışlar da kəsmək bilmir,
aparıbdı yanağımın dərisini...

Yenə bir çərşənbə yalnızlığıdır,
yenə bir ürək qəribliyi...

SƏNƏ BİR ŞEİR YAZARAM

Sənə bir şeir yazaram,
Oxuyarsan həftəsonu.
Kəmşirin şərab dadında
Halına qatarsan onu.

Duyacağam harda olsam,
Pıçıldayarsan adımı.
Xatırlayarsan bir anlıq
Unutmadığın qadını.

Göynərtisini duyarsan
Qəfil barmaq uclarının.
Əl uzadıb tumarlarsan
Havadakı saçlarımı.

Udum-udum oxuyarsan,
Tutar səni sözün sehri.
Fırtınalı zamanında
Liman sanarsan o şeiri.

Hesab edərsən o şeir,
Sevgimizin qırıqları.
Qoşulub mənə ağlarsan,
Yuyarıq ayrılıqları.

Sənə bir şeir yazaram,
Həm isti, həm sərin olar.
Yorğun günlərində barı
Dincəlməyə yerin olar.

DEYİRLƏR Kİ, GƏLDİ, GETDİ...

Dünya yaxşıdır, həm pisdir,
Pis də yaxşıyla ötüşür.
Olum da, ölüm də hissdir,
Gəlib alında öpüşür...

Ömür dediyimiz elə
Özü də bir siyasətdir.



Bütün sevgi-məhəbbətin
Sonu fərqli xəyanətdir...

İçimdə ayrı dünya var,
O, xəritədə yer almaz.
Çölümdə dünya dardı, dar,
Orada mənə yer olmaz...

Heç kim deməsin ki, ölüm
Yaşla, iplə, ya qanladır.
Ölümün ən gözəlini
Elə dirilər anladır...

Günəşi qovur Ay, qaçır,
Gül tikanı mənimsəyir.
Göylər ruha qucaq açır,
Torpaq üzə gülümsəyir...

Həyat budur: sual, nida,
Üç nöqtə və son, bitdi.
Salam, təşəkkür, əlvida...
Deyirlər ki, gəldi, getdi...

HƏSRƏT ADLI YUXU

Üzündə nə görüntüydü?!
Dilimi dişləyib dözdüm.
Susduğum bir hönkürtüydü,
Gecənin sükutun pozdum.

Çağırdım: a Aybaxışlım,
Sənsiz bu canım yarıdı.
O gözəl, o gur şəlalə
Suların intiharıdı...

Yuxumun qapısın aç, gəl,
Yuxular uzun... Yaşam az.
Qurbanın olum, yağ mənə,
Hər bulud yağış daşımaz...

Duymadın, küsdüm, darıldım,
Çevrildim xəstə aşığa.
Qayıdıb təzdən sarıldım
Həsrətintək sarmaşığa…

Sübhədək dolanıb durdum,
Hər sətri dərd adam kimi…
Əridim bütün gecəni
Gözündə yanan şam kimi.

Nizami CƏFƏROV

Anarın ədəbi gəncliyi...
Və ədəbi gəncliyin Anarı



Azərbaycan ədəbi ictimaiyyəti Anarı, heç şübhəsiz, ilk gəncliyindən tanıyır – əvvəla Rəsul Rza ilə Nigar Rəfibəylinin övladı (burada "övlad" sözünün qarşısında bir "istedadlı" sözü də yazmaq istəyirdim, ancaq qərara gəldim ki, "Rəsul Rza ilə Nigar Rəfibəylinin övladı" kifayət eləyir) kimi, sonra görkəmli ata-anasından fərqli olaraq ədəbiyyatda şeirlə deyil, nəsrlə məşhurlaşan, 60-cı illərdən başlayan "yeni nəsr"in bir neçə "gənc klassik"indən biri kimi…

Əlbəttə, Anarın ədəbi gəncliyinin miqyasını, ilk növbədə, onun "Bayram həsrətində" (1963), "Yağış kəsdi" (1968), "Ağ liman" (1970) və "Molla Nəsrəddin-66" (1970) kitabları müəyyən edir ki, həmin kitablara gənc yazıçının hekayə, povest və dram əsərləri daxildir.

İlk "Bayram həsrətində" kitabında getmiş hekayələr – "Keçən ilin son gecəsi", "Asılqanda işləyən qadının söhbəti", "Bayram həsrətində" və "Dörd çahar" hekayələri göstərdi ki, Anar qələmi əlinə xüsusi missiya ilə alıb: sovet ədəbiyyatının ən dərin intim, munis, özünəməxsus hisslərinə qədər ideolojiləşdirməyə çalışdığı insanı bütün təbii istəkləri, ruhi-mənəvi inersiyası, psixoloji təbəddülatı ilə birlikdə təsvir etmək… Və yazıçı sənətkarlığını bədii yalanın yox, bədii həqiqətin çoxluğunda, mükəmməlliyində göstərmək…

…Körpə vaxtlarında onu çox istədiyindən tez-tez qucağına alan qonşu oğlanın burnunu dişləmiş qız on dörd-on beş yaşlarına çatanda ondan (artıq bəstəkar olmuş Faiqdən) təhtəlşüur bir duyğu ilə əsl istək – məhəbbət gözləyir… Faiq dərsdən evə qayıdan Gülarənin qarşısına bir dəstə gül "atır"… Əhvalatı anasına danışan qıza Fatma xala bu hərəkətin təsadüfi olmadığını deyir… "Ən xəfif, ən gizli, öz-özünə belə etiraf edə bilmədiyi, arzuladığı bir şeyi eşidərkən Gülarə qəribə bir hal keçirdi. Bu, onunçün bayram idi. Bu – hələ məhəbbət bayramı deyildi… Bu – qadın qəlbində məhəbbətdən çox erkən oyanan və məhəbbətdən çox sonra sevən bir hissin, riqqətləndirici və güclü bir istəyin – diqqət istəyinin, pərəstiş, səcdə, xəfif, həssas, incə bir nəvaziş istəyinin bayramı idi…"

Anarın yazıçı psixologizmi, ədəbiyyata "insan qəlbinin mühəndisi" olaraq gəlməsi onun ilk hekayələrindən duyulur… "Keçən ilin son gecəsi"ndə əri Qəzənfərin ölümündən sonra Həmidə xalanın həyatı, yaşantıları bir gecənin timsalında (və miqyasında), demək olar ki, bütün təfərrüatı və ya təfsilatı ilə təqdim edilir.

Uşaqların hərəsi yeni ili qeyd etmək üçün bir yerə dağılışandan sonra tək qalan Həmidə xala təsəllini mərhum ərinin lent yazısına qulaq asmaqda görür:

"…Qəzənfərin gülüşü eşidildi:

"…Bax sənə bircə əmanətim bu uşaqlardır. Ömür vəfa eləsə, hamısını özüm böyüdüb başa çatdıracağam. Yox, işdi… Onda bax bunları sənə tapşırıram. Demirəm ki, hamısını doktor elə, injener elə, amma adam olsunlar. Yaxşı adam olsunlar.

Sonra, Həmidə, bir gün gələcək, hamısı böyüyəcək, boya-başa çatacaq və yuvasından qanadlanan quşlar kimi bir-bir uçub gedəcəklər. Bax onda onlara vəfasız demə ha!

…Qoy bizim həyatımızda yaxşı nə olubsa, uşaqlarımız özləriynən öz təzə həyatlarına, təzə nəsillərə aparsınlar. Həyat da elə budur da…

Hə, yaxşı, görək necə yazıb. Lentin də lap axırıdır".

Burda yazı qurtarırdı. Qəzənfər də qurtarırdı. Doğrudur, bir də başdan qulaq asmaq olardı. Amma neçə kərə qulaq assan da, Qəzənfər bir kəlmə də artıq söz deməyəcəkdi.

Lakin bu, Həmidə xalanı qüssələndirmirdi. Əksinə, onun qəmi-dərdi uçub getmişdi, qəlbinə sonsuz bir şəfqət, bir mülayimlik çökmüşdü. O, təsəllini tapmışdı, elə bil kimsə Həmidə xalaya onun həyatının mənasını açmışdı".

Həyatın mənasını axtarmaq, bu mənanı ən müxtəlif bədii texnologiyalarla təqdim eləmək cəhdi Anarın ilk qələm təcrübələrinin ideya-estetik əsasında dayanır.

"Asılqanda işləyən qadının söhbəti"ndə həmin cəhd daha obrazlı, daha dərin və daha assosiativdir. Asılqanda işləyən qadın insanlar arasındakı ən intim münasibətləri belə asdığı paltoların tək, ya cüt olmasından, nə vaxt alıb, nə vaxt geri qaytarmasından tanıyır…

"Bir müddət keçdi. Bir aya kimi. Bir gün qara paltolu mənə yanaşdı, qızın paltosunu istədi. Bilirsən, bala, bizdə belə qayda var: kim ki hansı nömrəni verir, elə həmin paltonu da alır. Lap istəyir, atam oğlu qardaşım olsun, nömrəsiz ona palto vermərəm. Həm də ki, özgəsininkini. Amma buna ürəyim gəlmədi. Qıymadım. Dinməz-söyləməz qızın sarı paltosunu ona uzatdım. Aldı, baxdı, baxdı… Sonra qaytardı. Çıxdı getdi.

Bundan sonra bir də onu görmədim".

Qara paltolunun sarı paltoya bu cür dönə-dönə baxması (və sonra çıxıb gedib bir də görünməməsi) bir insan taleyinin dönüş məqamı, düyün nöqtəsidir ki, miniatür hekayə-söhbətdə çox həssas bir şəkildə qısa (ancaq dolu-dolğun) cümlələrlə nəql olunur. Söhbətdə zahiri bir təmkin, hətta müəyyən məişət laqeydliyi var, ancaq duymamaq, görməmək mümkün deyil ki, bu təmkinin, laqeydliyin altında nə qədər mürəkkəb hisslər, həyəcanlar yatır.

"Dörd çahar" Anarın ilk satirik əsərlərindəndir. "Bayram həsrətində"nin annotasiyasında bu əsər barədə maraqlı bir qeyd verilib: "Hekayənin əsas müsbət qəhrəmanı yüksək mənəvi keyfiyyətlərə malik olan əsl sovet adamıdır". Həmin qeyd ona görə maraqlıdır ki, hekayədə müsbət adına yalnız bir qəhrəman var, yerdə qalan üç obrazın üçü də mənfidir. Və üçü də əsl sovet adamıdır… Onlardan ikisi (Sadıqla Teyyub) cəmiyyət üçün o qədər də qorxulu deyil, o biri (Murtuz müəllim) isə ona görə çox təhlükəlidir ki, sözü ilə işi, hərəkətləri arasında keçilməz uçurum mövcuddur. Bir tərəfdən "…tüpürüm sənin otuz mininə də, əlli mininə də, bir parça yavan çörəyimi yeyərəm. Namusum, vicdanım ləkəsiz qalar, gül kimi adımı bədnam eləmərəm. Xalqımın da gözünün içinə dik baxa bilərəm… Əsas xalqdır, Zəki, xalq! Biz gərək elə iş tutaq ki, xalqımızın başı uca olsun. Ali məktəb xalqın yüksəkliyidir. Müəllim millətin fəxridir. Ali məktəblərdə çirkin işlər tutmaq olmaz. Müəllim gərək nalayiq hərəkət eləməsin. Xalq, millət bizdən haqq-hesab tələb eləyəcək" deyir, digər tərəfdən isə elə nalayiq iş görür ki, elə bil Zəkini ildırım vurur…

Anarın ədəbi gəncliyini səciyyələndirən ən azı üç mühüm cəhət var ki, onlar, nəticə etibarilə, Anarın ədəbi şəxsiyyətinin formalaşmasında, fikrimizcə, həlledici rol oynamışdır: 1) həyat hadisələrinin mahiyyətini dərk etməyə son dərəcə böyük maraq, dərin müşahidə qabiliyyəti və həmin müşahidələrin, ümumiləşdir-

mələrin mükəmməl bədii detallarla ifadəsi; 2) yüksək ədəbi zövqlə, yaradıcılıq istedadı (və peşəkarlığı) ilə yanaşı, ədəbiyyat elminə hərtərəfli (intellektual) bələdlik; 3) sosial, siyasi və ideoloji analitizm.

Əgər bu cəhətlər bir məcrada (və üzvi vəhdət halında!) birləşməsəydi, Anar fenomeni də yaranmazdı.

"Yağış kəsdi" gənc yazıçının ikinci kitabıdır. Buraya "Yağış kəsdi" və "O gecənin səhəri" hekayələri, "Sizi deyib gəlmişəm" sənədli-dramatik povesti daxildir.

"Yağış kəsdi" hekayəsində hadisələr (və bu hadisələrin gah real, gah da xəyali "interpretasiya"ları) Buzovnadan Bakıya gələn avtobusda baş verir…

"Kefim xarab olduqca yaddaş iblisi haradansa köhnə dərdlərimi, umu-küsümü, gileylərimi qulağıma pıçıldayır və mənim əhvalım daha da korlanırdı… Səbəb nə idi? Avtobusun Buzovnadan, heç bir şey haqqında düşünməyib dincəldiyim, dostlar arasında qayğısız günlər keçirdiyim Buzovnadan uzaqlaşıb Bakıya, ciddi və mühüm problemləri, çətin məsələləri həll etməli olduğum Bakıya yaxınlaşmasımı? Yoxsa günəşli gündüzlərdən sonra bu yağışlı axşamın cansıxıcı, zəhlətökən tutqunluğumu? Ya da, bəlkə… İnsana inam, etibar kimi məfhumların nisbiliyi? Başqasının hər bir həyəcanına, hər bir dərdinə, qəzasına şübhə ilə yanaşmaq zəruriyyəti?"

Hekayədə çoxlu suallar var… Ancaq həmin suallara "köhnə ədəbiyyat"ın adət etdiyi trafaret cavablar yoxdur… Niyə?.. Ona görə ki, suallar da trafaret deyil…

"Elə isə yaxşı adam varmı? Axı biz adamlara onların bildiyimiz, eşitdiyimiz hərəkətlərinə, sözlərinə, rəftarına görə "yaxşı" deyirik. Bəlkə, bilmədiyimiz, eşitmədiyimiz, xəbərdar olmadığımız başqa hərəkətləri, sözləri, rəftarı da var? Bəlkə, onları bilsək, bu adamlara "pis" deyərik?.. Bəlkə, mərdimazar Həsən kişi özü də heç mərdimazar deyil, onun da öz məntiqi, öz əsasları, bəraəti, üzrü var?"

"O gecənin səhəri" 1937-ci ilin yaddaşlara hopmuş qorxu, vahimə saçan əbədi təəssüratından danışır… Və bu təəssürat nə qədər ayrı-ayrı şəxslərin, ailələrin taleyi ilə bağlı olsa da, bir o qədər də ictimaidir. Çünki gecə yarısı kimin qapısının döyüləcəyini heç kim əvvəlcədən bilmir…

"Addım səsləri 7 nömrəli mənzilin qabağından ötüb 8 nömrəli mənzilin qabağında susdu.

Sonra 8 nömrəli mənzilin qapısı döyüldü. Bərkdən döyüldü, bütün ev eşitdi.

6 nömrəli mənzildə Cavanşir düşünürdü: deməli, belə… Vətəndaş Murad Zeynallı… Üç böyük işıqlı otaq da boşaldı. Görəsən, kim köçəcək?..

5 nömrəli mənzildə… 5 nömrəli mənzilin qapısı möhürlənmişdi.

4 nömrəli mənzildə Qurban kişi var-gəl edir, düşünür, düşünürdü: "Bəlkə, birtəhər eləyib Moskvaya gedim, məktubu şəxsən özüm aparım. Görək…"

3 nömrəli mənzildə Surxay işləyirdi.

2 nömrəli mənzildə Səkinə için-için ağlayırdı. Zəhra qarı yatmışdı, yuxu görürdü.

1 nömrəli mənzildə domkom Bəşir arvadına öyüd-nəsihət verirdi…"

Ancaq bu dəfə gedər-gəlməzə heç kimi aparmırlar… Gələn təcili yardım maşını imiş… 8 nömrəli mənzildə yaşayan ailədə bir oğlan uşağı dünyaya gəlirmiş…

"O gecənin səhəri"ndə, görünür, avtobioqrafik məqamlar da var… Biri odur ki, Anar 1937-ci ildə (7 nömrəli mənzildə) deyil, 1938-ci ildə (8 nömrəli mənzildə) dünyaya gəlib.

“Sizi deyib gəlmişəm” sənədli-dramatik povesti, ilk növbədə, onunla əlamətdardır ki, “remarkalardan başqa, əsərin mətnində bir kəlmə də olsun” müəllif sözü olmasa da, əsasən, Mirzə Cəlilin əsərlərindən, eləcə də bir sıra digər mənbələrdən alınmış replikalar elə ustalıqla seçilmişdir ki, əsər poetik strukturu etibarilə tamamilə bütöv, ideya-məzmunca olduqca müasir görünür. Və bu, bir tərəfdən, Mirzə Cəlil yaradıcılığının bütün dövrlər üçün aktuallığından irəli gəlirsə, digər tərəfdən, “mətndə bir kəlmə də olsun söz”ü olmayan müəllifin sənətkarlıq imkanlarının miqyasını nümayiş etdirir.

Doğrudur (və 60-cı illərin ideoloji təzyiqləri müqabilində “diplomatik” gediş olaraq təbiidir) ki, əsər Mirzə Cəlilin “o şey ki, qoca Molla Nəsrəddinin qəlbinə və məzaqına hər babətdən müvafiqdir – onun adı Şuradır. Şura üsul-idarəsi! Şükür eləyirəm vicdanıma ki, ölmədim və arzu etdiklərimə çatdım!” sözlərilə bitir, bununla belə, həmin sözlərdən əvvəl böyük yazıçının bu gün də aktual olan fikirləri gəlir:

“…Dilim nə dilidir? Azərbaycan dilidir. Yəni vətənim haradır? Azərbaycan vilayətidir. Haradır Azərbaycan? Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də Gilandan tutub qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxilindədir…”

Anarın məşhur (ümumən “yeni nəsr”in şah əsərlərindən olan) “Ağ liman” povesti üçüncü kitabı olaraq ayrıca nəşr edilmişdir. Və onun epiqrafında deyilir: “Böyük müəllimim Cəlil Məmmədquluzadənin əziz xatirəsinə ithaf edirəm”… Təsadüfi deyil ki, “Ağ liman”la eyni ildə yazıçının “Molla Nəsrəddin-66” kitabı da nəşr olunur.

Fikrimizcə, həmin kitablarla Anar ədəbi gəncliyini (və yaradıcılığının birinci dövrünü) başa vurur…

İstər birinci, istər ikinci, istərsə də üçüncü kitabında Anarın şəkli verilməyib, dördüncü kitabda isə bir az dalğın, düşüncəli, eyni zamanda məna-məzmunlu (və çox simpatik) bir şəkli var ki, həmin şəklin altında müəllifin ədəbi tərcümeyi-halı yığcam şəkildə təqdim edilir:

“Anar (Rzayev Anar Rəsul oğlu) 1938-ci ildə Bakıda anadan olmuşdur. 1960-cı ildən bəri respublika və Moskva mətbuatında onun bir sıra hekayələri, povestləri, məqalə və oçerkləri dərc edilmişdir. Bakıda “Bayram həsrətində”, “Yağış kəsdi”, “Ağ liman”, Moskvada “Dantenin yubileyi” adlı kitabları çıxmışdır. Hekayələri rus dilindən başqa, Ukrayna, gürcü, erməni, eston, tatar, türkmən, habelə ingilis, fransız, alman, ispan, ərəb, polyak, macar, bolqar dillərinə tərcümə edilmişdir. “Mən, sən, o və telefon” hekayəsi əsasında Bolqarıstanda pyes yazılmış, “Mosfilm” kinostudiyasında “Hər axşam 11-də” filmi çəkilmişdir. “Keçən ilin son gecəsi” pyesi Bakıda Gənc Tamaşaçılar Teatrında və Moskvada Mərkəzi Televiziyada tamaşaya qoyulmuşdur. “Torpaq. Dəniz. Od. Səma”, “Gün keçdi” bədii filmlərinin və bir neçə sənədli filmin ssenari müəllifidir”.

Nə qədər yığcam olsa da, otuz bir-otuz iki yaşlı bir qələm adamı üçün həddindən artıq məhsuldar (və zəngin) bir tərcümeyi-haldır… Elə deyilmi?..

“Molla Nəsrəddin-66”-da yazıçının “Asılqanda işləyən qadının söhbəti” (1959), “Taksi və vaxt” (1960), “Gürcü familiyası” (1967), “Mən, sən, o və telefon” (1967) hekayələri; “Molla Nəsrəddin-66” satirik silsiləsi (1966), “Dantenin yubileyi” povesti (1968) və “Keçən ilin son gecəsi” pyesi (1966-1967) verilmişdir ki, bu əsərlərdə gənc yazıçının istedadı janr müxtəlifliyi, rəngarəngliyi ilə bərabər, həm də lirizmdən satiraya (və əksinə) olduqca “rahat” keçməsində özünü göstərir. Və bir çox hallarda satiranın harada bitib lirizmə keçməsini (və ya əksinə) müəyyənləşdirmək, onların arasında kəskin sərhəd qoymaq belə mümkün olmur:

“Keçən nömrələrin birində idarə başçılarından Uşaq Muşaqovu kəskin tənqid etmişdik. Felyetonda Uşaq Muşaqovun bacarıqlı təşkilatçı, işgüzar rəhbər, namuslu işçi olduğunu deməklə bərabər, eyni zamanda onun böyük bir nöqsanını – yaşca cavan olmasını tənqid etmişdik. Redaksiyaya göndərilən cavab məktubundan məlum olur ki, Uşaq Muşaqov tənqiddən doğru nəticə çıxarmış, nöqsanını düzəltməyə çalışmış, on gün ərzində on il qocalmışdır” (“Molla Nəsrəddin-66”dan).

Anarın ədəbi gəncliyi başa çatar-çatmaz ədəbi gəncliyin Anarı dünyaya gəldi… Və yazıçının, demək olar ki, heç bir əsəri Azərbaycan ədəbi-ictimai mühitində laqeyd qarşılanmadı. Əlbəttə, burada 60-cıların “sovet ədəbiyyatı” kontekstində gedən “yeniləşmə” hərəkatında

fəal iştirakından irəli gələn ümumi yaradıcılıq uğurlarının da təsiri az deyildi. Ancaq heç vaxt unutmaq olmaz ki, 60-cıların hər birinin öz dəst-xətti, aydın seçilən üslubu, düşüncə tərzi, təhkiyə texnologiyası da mövcud idi. Və aydın konturları ilə seçilən (70-ci, 80-ci illərdə daha da güclənib, hətta 60-cı illərdəki "ümumilik"dən xeyli dərəcədə uzaqlaşan) bu fərdi üslub mövcudluğu, təbii ki, ədəbi gəncliyin zövqünə, yaradıcılıq axtarışlarına da özünün fərqli təsirlərini göstərirdi.

"Ədəbi gəncliyin Anarı" adlandırdığımız mədəni-intellektual fenomenin bütün tərəflərini – qaynaqlarını, təzahürlərini, polemikalarını və s. təfsilatı ilə şərh etmək elə də asan məsələ deyil… Bir tərəfdə yazıçının yüksək ədəbi-ictimai nüfuzu, digər tərəfdə isə eyni səviyyədə yüksək ədəbi-ictimai demokratizmi dayanırsa, əlbəttə, burada münasibət paradoksallığı üçün bəri başdan münbit şərait yaranır.

Yüksək ədəbi-ictimai nüfuz nəinki hər bir qələm adamı üçün, eləcə də onu yetişdirən, onun təmsil etdiyi xalq, cəmiyyət (hətta dövr!) üçün maraqlı, əhəmiyyətli və vacibdir… Kim istər ki, "ortabab" olsun?.. Biz təqlidin hər cür təzahürlərinə qarşı çıxırıq, ancaq çox zaman nəzərə almırıq ki, ədəbiyyatda "məktəb" deyilən bir anlayış var: Nizaminin "Xəmsə" məktəbi (bu məktəb görün nə qədər güclüdür ki, əgər orta əsrlərin hər hansı Şərq şairi Nizami mövzularında ənənəvi olaraq beş deyil, iki və ya üç poema yazıbsa, dərhal düşünürük ki, istedadı çatmayıb); Füzulinin qəzəl, Vaqifin qoşma məktəbləri; Sabirin satira məktəbi (poeziyada Sabiranəlik); Mirzə Fətəlinin, Cəfər Cabbarlının dramaturgiya məktəbləri; Səməd Vurğunun, Rəsul Rzanın poeziya məktəbləri; İlyas Əfəndiyevin teatr məktəbi… Bu məktəblərin hər birinin meydana çıxmasında təqlidin (söhbət, təbii ki, istedadlı, yaradıcı təqliddən gedir) rolu aparıcıdır. Və məhz bu mənada Anarın yaradıcılığı təqlid üçün ədəbi gəncliyə həmişə geniş imkanlar yaratmışdır… Sözsüz, bu imkanlar ilk növbədə bədii yaradıcılığa aiddir, ancaq 70-ci, 80-ci, 90-cı illərdə Anar həm də ədəbi tənqid-ədəbiyyatşünaslığa, publisistikaya əhəmiyyətli təsir göstərmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, həmin təqlid və ya təsirlər üslub, yazı manerasından daha çox, ideya-məzmun və ya dünyagörüşü sahəsini əhatə edirdi ki, bu-

raya aşağıdakılar daxildir: mənbəyini etnoqrafik dərinliklərdən alan analitik millilik; intellektual prosesuallıq ("yeniliy"i "köhnə"nin təkzibi yox, "varis"i kimi qəbul etmək); ədəbi təfəkkürün geniş ideya-kulturoloji miqyasda təzahürü; humanizm və ya insan amilinin bütün psixoloji yönləri ilə önə çəkilməsi; bədii, elmi, fəlsəfi və siyasi fikir modelləri yaratmaq meyli və s.

İlk gənclik illərindən başlayaraq, Anar özündən əvvəlki ədəbi nəslə həmişə yüksək ehtiram göstərmişdir… Və ümumən ədəbiyyata münasibətin təzahürü olan bu ehtiram özündən sonrakı nəslə artıq, tamamilə təbii olaraq, qayğı, kömək, istedadlara geniş yol açmağın yeni miqyas və texnologiyalarını müəyyən etməli idi. Və etdi də…

Azərbaycan ədəbi gəncliyi Anara onun özünün gənclik illərindən etibarən, demək olar ki, hər zaman xüsusi maraqla, hörmətlə, ehtiramla yanaşıb, onu "qara saçlı ağsaqqal" adlandırıb… Və bu maraq, hörmət, ehtiram xüsusilə, son illərdə bəzən bir qədər "polemik" çalarlar da kəsb edib. Nə olar?.. Zəmanəmiz elədir ki, heç bir dahi polemikasız qəbul edilmir…

Əsas odur ki, Anarın yaradıcı (və mükəmməl) ədəbi gəncliyi olmuşdur… Və əsas odur ki, ədəbi gəncliyin hər cür təqlidə layiq yaradıcı (və mükəmməl) Anarı var…

Məhəmməd TURAN

***

Addımlar asta-asta
Gəzər gecəni, gəzər...
Xəyalım ayaq açar,
Sizin küçəni gəzər...

Ulduz qonar çiynimə,
Təbəssümə bataram...
Bir röya uyduraram,
Dizlərində yataram...

Gözlərimdə bitərsən,
Üstünə yüyürərəm...
Xəyalına sarılıb
Yoxluğunu görərəm...

Gecələri sayıram,
Hər nəfəs dilək olur...
Kölgəmlə oynayıram-
Darıxmaq belə olur...

***

Məni buralarda sevən olmadı,
Uzaqda bir ümid bəsləyənim var...
Gecələr yuxuma girən olmadı,
Gecələr yuxuda səsləyənim var...

Bir qarış dünyadı könlümü sıxan,
Hər şey gözlərimdə qarmaqarışıq...
Sevgidi üzümdən gülüşü yıxan,
Qəlbimin başından parlayan işıq...

Qəriblik sarmaşıb dodaqlarıma,
Boy verir həsrətim hey saçaq-saçaq...
Bilirəm, azacam o yolda-izdə,
Məni uzaqlara kim aparacaq?

***

Hansı qəmdən üz döndərdim,
Sevincim yoxa çəkildi?
Muradım sola üz tutdu,
Yığvalım sağa çəkildi...

Əllərimə sığışmadı
Bir belə dərd, bir belə qəm...
Allahsa da görmürdümü,
Mən uşağam, çox uşağam?..

Gözlərimdə solan ümid
Tökür, tökür dözümünü...
Hələ təzə boy atmışdı –
Yanvarın on üçü günü....

Bir sevgilik vaxtım qalıb,
Bir ömürlük ölüyəm mən...
Başıma dolanın, nolar,
Dəliyəm mən, dəliyəm mən...

***

İndi bir “ah”lıq canım var,
Nəfəs ciyərimdə sürgün...
Azalıram bir az, bir az,
Yox oluram hər gün, hər gün...

Gözlərimdə qalan günlər
Bir-bir düşdü gözlərimdən...
Yığılan qəmim-qəhərim
Daşmır, daşmır gözlərimdən...

Qəlbimdə həvəsmi qalıb,
Bir daşı daş üstə qoyam...
Əllərimdən göy yapışıb-
Mən səmaların oğluyam...

Xuraman HÜSEYNZADƏ

Günəş yatmağa gedəndə

Kəndin ayağındakı qərib ev payız gələndə düşmənə təslim olmaq istəməyən əliyalın döyüşçüyə bənzəyirdi. Birmərtəbəli, alçaq evin sol tərəfindəki şüşəsiz pəncərəyə vurulmuş köhnə qəzet külək əsdikcə təslimiyyət bayrağı kimi yellənirdi. Sağ tərəfdə sıra ilə ərik, gilas, alça, gavalı ağacları əkilmişdi. Ağaclardan hərlənə-fırlana qopub tökülən yarpaqlar torpağın sinəsinə çürümək üçün töküldüklərindən xəbərsiz idilər sanki...

Mustafa kişi oturmuşdu qapıda, əsadan yapışdığı əlinin üstünü dayaq eləmişdi çənəsinə, xəyala dalmışdı. Hərdənbir külək şiddətləndikcə ərik ağacının budaqları dəyirdi evin köhnə kirəmit damına, diksindirirdi onu. Havanın soyumağa başlamasıyla qonşuları Həmid və İsrafil də nərdlərini, damalarını, dominolarını götürüb çəkilmişdilər öz isti yuvalarına. Soyuyan hava sanki insanların da arasına sərinlik gətirmişdi.

Arvadı Zahidə şəhərə, sonbeşiyi Aybənizin evinə qonaq gedəndən tənhalığı bir az da artmışdı onun. Ağıryana, dindirməsən, dinməyən bir qadın idi Zahidə. Mustafa ilə birbirlərini sevərək evlənmişdilər. Atası əvvəlcə elçilərə “yox” desə də, qızını sevən oğlanın inadkarlığı qarşısında “ağ bayraq” qaldırmalı olmuşdu. Bu inadkarlığın səbəbi o idi ki, Mustafagil bu rayonda qərib idi. Sonralar kürəkəninin mərd xüsusiyyətlərini gördükdə ata, qızının səhv etmədiyini anlamışdı...

Zahidə Aybənizgilə gedəndən hər gün çıxıb otururdu qapıda, ömür-gün yoldaşının gələcəyi yollara baxa-baxa həyatını vərəqləyirdi Mustafa kişi. Bir də iri tut ağacının altındakı boş skamyaya baxanda darıxırdı. Qonşuları Həmidlə İsrafilin boş skamyada görünən yerlərində yaşıl, sarı, qızılı yarpaqlar küləyin uğultusuna rəqs edirdilər. Bu da Mustafa kişini lap çox darıxdırırdı. Zarafat deyil, illərin sərt sınaqlarından alnıaçıq, üzüağ çıxmış dostlar idi onlar. İndi ürək ağrısı İsrafili yıxmışdı yorğandöşəyə, Həmidin isə oğlu Bakıya köçəndən bir ayağı şəhərdə idi.

Mustafa Həmid və İsrafillə xəstəxanada tanış olmuşdu... O vaxt gənc Mustafa Kənd Təsərrüfatı İnstitutunu təzə bitirmişdi. Aqronom kimi pambıq sahələrinə baş çəkib evinə gedirdi. Atasının neçə il pul yığaraq aldığı ağ rəngli Jiquli ilə rayonun girəcəyindəki yol ilə keçərkən bir az aralıda yerdə uzanmış bir adamın ilan kimi qıvrıldığını gördü. Tez əyləci basıb maşını saxladı. Düşüb həmin tərəfə getdi. Al qan içində zarıyan təxminən 60-65 yaşlarında bir kişi idi. O, tez kişini qucağına alıb maşının arxa oturacağına uzatdı. Həyəcandan əli, ayağı əssə də, özünü toplayıb sürətlə maşını rayon xəstəxanasına sürdü. Xəstəni reanimasiyaya yerləşdirdilər. Mustafa xəstənin vəziyyətini öyrənmək üçün əməliyyat otağının qarşısında saatlarla gözlədi. Bir meydan dolusu adam yığılıb gəlmişdi xəstəxanaya. O, xəstəxananın həyətində skamyada oturub siqaret çəkirdi. Bu zaman cavan bir oğlan ona yaxınlaşıb soruşdu:

– Mənim atamı xəstəxanaya siz gətirmisiniz?

Mustafa ayağa qalxdı.

– Mən gətirmişəm.

Oğlan onun boynunu qucaqlayıb dedi:

– Sən mənim atamı yenidən həyata qaytardın. Bu gündən olduq qardaş.

Adının Həmid olduğunu deyən oğlan Mustafa ilə həmin gün lazım olan iynə-dərmanı almaq üçün birlikdə apteklərə baş çəkdi. Mustafa Həmidi tək buraxmadı. Atası Səməndər yaxşılaşıb xəstəxanadan evə buraxılana kimi hər gün onun ziyarətinə gəlir, əlindən gələn köməyi əsirgəmirdi.

Səməndər, onu vurub qaçan sürücünün maşınının nömrəsini yadında saxladığı üçün həmin sürücünü həbs etdilər. Səməndərin övladları, qohum-əqrəbası onun xilaskarı olan Mustafa ilə heç vaxt münasibəti kəsmədi... İsrafil Həmidin dostu idi. O, Mustafanı elə Səməndər kişi xəstəxanada olarkən onu ziyarətə gələndə görmüş və dostlaşmışdılar. Sonralar bu üç dost eyni məhlədə yanaşı torpaq sahəsi alıb ev tikdirib və qonşu oldular.

Dostlarının boş qalmış yerlərinə baxanda köks ötürən Mustafa kişinin təsəllisi bu idi ki, bu səssizlik, tənhalıq müvəqqətidir. Bir azdan arvadı Zahidə də gələcək qızının evindən, yay da dönəcək geri, qonşular da qayıdacaq tut ağacının altındakı yerlərinə. Beləcə, o da tənhalıqla vidalaşacaq...

Haqsızlıq dolu illəri yorub yola salmış Mustafa kişi uzaqlarda solğun çiçək kimi təravətini, şuxluğunu itirmiş payız günəşinə baxırdı... Gəlib keçən illərin özü ilə apara bilmədiyi xatirələr var idi. Gözlərinin qabağına gələn üzlər arasında tanıdıqları da vardı, nə vaxtsa tanıyıb unutduqları da. Dizləri taqətdən düşsə də, yaddaşı hələ ki möhkəm idi. Otuz ilə yaxın vaxt keçmişdi o zamandan**.** Hər şeyi dəyişdirən illər ondan da yan keçməmişdi. Qocalmışdı. Yaman qocalmışdı...

Sovetlər birliyi təzə dağılmışdı onda. Bir Allahın bəndəsi bazarda meyvə-tərəvəz, palpaltar, öz həyətinin, bağının məhsulunu satmağı man bilmirdi. Dolanmaq lazımıydı. Çörək aslanın ağzındaydı. İnsanlar səhərdən axşama qədər özlərini oda-közə vururdular ki, həmin çörək axşam süfrələrində olsun. Coğrafiya müəllimi Sahibin dərsdən sonra qəssablıq eləməsi daha lağa qoyulmurdu. Sahib müəllim Avstraliyanın təbiətindən, Cənubi Amerikanın coğrafi mövqeyindən, Everest zirvəsindən danışdığı vaxt kiminsə sinif qapısını döyüb “Sahib müəllim, sizdə qarın-bağırsaq, içalat var?” deməsini şagirdlər təəccüblə qarşılamırdılar daha. Vaxtilə vəzifədə olanlar, imkanlılar geri yanına qara gün üçün beşdən-üçdən atmamışdısa, əzab-əziyyətə məhkum idi.

Getdikcə bir az da şiddətlənən külək uzaqlardan Mustafa kişinin burnuna yanmış yağ qoxusu gətirdi. Bu qoxu Qırlı Eyvazı xatırlatdı ona. Bazarda piştaxtaların altına tökülmüş, bir yerə yığılmış tullantı kartofları gətirib evdə pirojki bişirtdirib satan Qırlı Eyvaz qəpik-qəpik yığdığı pullarla böyük biznes qurmuşdu. O vaxt günün altında çarıq-çürük kartof dənləməkdən qapqara qaralıb qır rəngində olduğu üçün uzun boylu, arıq Eyvaza Qırlı ayamasını vermişdilər. Çətinliklə qazandığı üçün qəpiyinin qədrini bilmişdi Eyvaz. Nə bir adama əl tutmuşdu, nə də kiminsə ac qarnını doyurmuşdu. Qırlı Eyvaza Eyvaz müəllim deyirdilər artıq.

...Vəzifədə olmasına baxmayaraq, çox sadə bir insan idi Mustafa kişi. Daim camaat arasında olar, el-obanın xeyir-şərindən qalmazdı. Elçi getdiyi qapıdan kor-peşman qayıt-

dığı olmamışdı. Əgər elçiliyə o gəlmişdisə, vəssalam, şirinçay içilməliydi. Təbii, o da hər adamın qapısına ayaq basmazdı...

...Uzaqlardan gələn küləyə qarışıb Mustafa kişinin qulağına doldu bu səs: "Vartaaan!" 13 yaşına çatsa da, yoxsulluq üzündən sünnət olunmamışdı Mütəllimin kiçik oğlu Əvəz. Sinif yoldaşları ona "Vartan" deyərək lağ edirdilər. Məktəbə getməkdən imtina etmişdi Əvəz. Sinif rəhbəri dəfələrlə ata-anasına sifariş göndərsə və səbəbi bilmək üçün evlərinə getsə də, Əvəz iki ayağını bir başmağa dirəyib məktəbə getməyəcəyini, uşaqların onu cırnatmaq üçün verdiyi Vartan adından utandığını demişdi. Günlərin birində məktəbin qarşısından keçəndə bir dəstə oğlan uşağının öz həmyaşıdları olan başqa bir oğlana bu cür deyib qışqırmasının, gülüş hədəfi olan oğlanın isə ağlaya-ağlaya ordan qaçmasının şahidi oldu Mustafa müəllim. Maşını tez sürüb ağlayan uşağa çatmasını tələb etdi sürücüdən. Sürücü siqnal verərək uşağı səslədi. Uşaq maşından düşən Mustafa müəllimi görəndə qorxu qarışmış heyrətdən ağzı ayaqqabısının ağzı kimi açıq qaldı. Mustafa müəllim maşından düşüb ona yaxınlaşdı:

– Nə olub, oğlum?

Uşaq hıçqırdı:

– Sinif yoldaşlarım mənə Vartan deyirlər.

– Niyə?

Uşaq özünü tox tutmağa çalışsa da, bacarmadı, ağladı.

– Kişi də ağlayarmı? Özünü ələ al, mən də sənin əmin. De görüm, niyə ağlayırsan?

Amma bu sözlər də kara gəlmədi. Uşaq ağlamağının səbəbini demədi ki, demədi. Mustafa müəllim cibindən dəsmal çıxarıb onun gözlərinin yaşını sildi. Atasının adını, evlərinin yerini soruşdu sonra.

Qamış çəpərin qarşısındakı ev çiy kərpicdən hörülmüşdü. Maşın səsinə bayıra çıxan ev sahibi Mütəllim Mustafa müəllimi görəndə sevincindən karıxdı. O boyda vəzifə sahibinin onun daxmasına gəlişi gözlənilməz idi. Tez köynəyinin yuxarıda açıq qalmış iki düyməsini də bağladı. Salam verdi çaş-baş halda. Bu həyəcanı aradan qaldırmağa çalışdı Mustafa müəllim:

– Yaman ağlağan oğlun var ha. Bu günsabah əsgər gedəcək, vətəni qoruyacaq, hələ də ağlayır.

Nə deyəcəyini bilmədi Mütəllim.

– Hə, bir az elədir, – dedi dili topuq vuravura. Səsə Mütəllimin arvadı Sürəyya, yanında iki balaca qızı çıxdı çölə. Gələn adamın yad kişi olduğunu görüb quru xına rəngində olan baş örtüyünün bir qanadını ağzına tərəf apardı Sürəyya... Qızlardan bir az böyük olanı gedib evdən stul gətirdi.

Mustafa müəllim dünən şahidi olduğu hadisəni danışdı, uşağın niyə ağladığını soruşdu.

– Nə bilim, ay Mustafa müəllim, on iki yaşına çatıb, hələ kiçik toyunu eləməmişik, taytuşları bunu başına qaxınc edir, "Vartan" deyirlər, ona görə bir az utanır, – dedi Mütəllim.

Həmin həftə Mütəllimin oğlu Əvəzi müsəlman etdirdi Mustafa müəllim. Üstəlik, evini tikdirmək üçün daş almasına da köməklik göstərdi.

Yağış kəsmiş, günəş doğmuşdu. Əvəz daha ağlamırdı...

Mustafa müəllimin xeyirxah əməlləri saymaqla bitərmi? Bitməz, əlbəttə, bitməz... Neçə imkansız gəncə toy eləmiş, müalicəyə, əməliyyata ehtiyacı olan neçə xəstənin şəfa tapması üçün varını əsirgəməmişdi...

İllər zamanın yollarında dağlar, ağaclar, çəmənlər, göllər, dənizlər kimi geridə qalmışdı. Günlər, aylar ötür, qarşıdakı mənzərələr dəyişir, heç bir maneəyə, qadağaya baxmayaraq, zaman öz yoluna davam edirdi. Başqa bir dövr gəlmişdi. Əsr biznes əsri idi. Dövrün nəbzini tutanlarla o nəbzin necə vurduğuna fikir verməyənlər arasında yer ilə göy, dağ ilə dərə qədər fərq yaranmışdı. Tərsinə dönmüşdü fələyin çərxi. Borca düşmüş, borcunu qaytarmaq üçün iyirmi hektar ərazini icarəyə götürüb taxıl əkmişdi Mustafa müəllim. Ona daha "Mustafa müəllim" demirdilər...

Qızıl-qırmızı bir iyun ayıydı. Gün yuxarıdan qartal kimi hücum çəkib adamın beyninə işləyir, əllərini, sir-sifətini yandırıb qaysar edirdi. Qapısında bir daşın üstündə oturub borcunun arxasınca gələn adamlara baxırdı Mustafa kişi. Vəzifədə olduğu vaxtlarda onun qapısında bir tikə çörək üçün quyruq bulayan, ac qarınlarını doyurduğu həmin kəslər indi taxılı daşımaq üçün növbəyə durmuşdular. Əsər-əlamət qalmamışdı Mustafa müəllimdən. Sahibi olduğu supermarketin fəhlələrinə belə bir əmr vermişdi

bir vaxtlar siqareti dənə-dənə satan Məmmədyar:

– Bir az cəld olun! Mustafa kişi, dur bunlara kömək elə də, nə oturmusan, görmürsən, tələsirik?! İstehza ilə Məmmədyarın yekə cəmdəyinə, daz başına, boğazından uzunqulaq quyruğu kimi sallanan qalstukuna baxıb bir zamanlar onun qapısında bir qarın yemək üçün necə yaltaqlanmağını, o əyləşsin deyə qaçıb maşının qapısını açmasını, hər kəlməsində "Qadan alım, ay Mustafa müəllim, sənə gələn dərd, bəla mənə gəlsin" deməsini xatırlamışdı Mustafa kişi... Kövrəlmişdi... "Dağıl səni, dünya" demişdi fikirli-fikirli...

Qapısında böyük bir dağa bənzəyən taxıl azaldıqca Mustafa kişinin ümidi də azalmışdı. Öləzimişdi gözlərində yanan çıraq. Axşama yaxın borc yiyələri həmin "dağ"ı "şumlamışdılar".

İndi payız günəşinin solan çöhrəsinə baxa-baxa o vaxt qapısında iri bir daşın üstündə oturmasını xatırladı. O vaxtkı kimi gözləri uzaqlara dikilmişdi yenə... İnsanların fürsətcil, girəvəcil, çörəyi dizinin üstündə olmasını, nadanlığını düşünürdü.

Bir it hürdü hardasa. Başqa itlər onun səsinə səs verdi. Bir az da uzaqlardan çaqqalların səsi qarışdı itlərin hürüşməsinə... Mustafa kişi taxılı daşımağa, borc verdikləri pulun faizini, faizinin faizini aparmağa gələn borc yiyələrini xatırladı... Yadındaydı, baxışlarının son dayanacağı olan ovcundakı 3-4 qızılı sünbül dənəsinə baxmış, fikrə getmişdi onda... Alnında puçurlayan tər damcıları, gözündən axan bir damla son ümid və ovcuna sığınmış "borc" zərrələri düşmüşdü yadına... Beyninə saplanmış bu sualın cavabını çox illər düşünmüşdü: "Görəsən, balalarım nə yeyəcək?"

Onun baxışları yenə uzaqlara zillənmişdi – o uzaqlara ki, orda taxıldan bir dağ ucalmış və o dağı bir günün içində "şumlamışdı" borc yiyələri...

Uzaqlarda istisi, işığı öləziyərək dağların arxasında gizlənməyə hazırlaşan günəşə baxırdı Mustafa kişi. Günəş yatmağa gedirdi... Yavaş-yavaş o da günəş kimi yır-yığış edib çəkildi evinə. Həyat yoldaşı gələnə qədər evdə onu tənhalıq qarşılayacaq, qulaq yoldaşı televizor olacaqdı... Onun dadı-tamı dəyişməyən həyatına bir də səhər tezdən qonaq gələcəkdi günəş. Yenə yarpaqları küləyin bir toxunuşuyla tökülən ağaclara, üşüyən günəşə baxacaq, əlinin üstünü çənəsinə dayaq edərək xəyala dalacaqdı...

Əfsanə RƏVAN

SƏNİ MƏNDƏN ALAN ŞƏHƏR

Hansı küçə, hansı tini dolanım,
Hardan keçim, gözlərimə dəyəsən?
Şəki boyda həsrət mənə sarılıb,
Buraxmaq da istəmir heç, deyəsən.

Yaşadığım bu şəhəri bir az da
Sənə görə sevə-sevə gəzirdim.
Sanırdım ki, çıxardacaq qarşıma,
Görməyəndə bu şəhərdən bezirdim.

Elə bil ki, səni mənə gətirən
Bu şəhərin küçələri deyildi.
Gəzdiyimiz Axundovun parkı da
Bizsiz sanki avaradı, veyildi.

Sənin kimi bu şəhər də yanıltdı,
Sənin kimi hisslərimlə oynadı.
İndi mənim sənə qarşı nifrətim
Çox deyil ki, elə Şəki boydadı.

DE Kİ

Mən sənə “sus” demərəm,
qarış hər bir işimə.
De ki, “boynun soyuqlar,
saçını tök, üşümə!”

Lap de ki, “vurma ətir,
çəkmə gözünə qara.
Uzun geyin hər zaman,
Qısa hara, sən hara?”

Qısqan dəlilər kimi,
hətta gələn qonağa.
De ki, “nəbadə, birdən
çıxasan haa qabağa”

Elə xoş gələr mənə,
sərtliyin, qısqanclığın.
Heç olmasa bilərəm,
yoxdu qadın aclığın.

Hərdən əsəbiləş, bağır,
küsdür səni sevəni.
Sonra da al könlümü,
de ki, sevirəm səni.

Anar, yaxud gələcəyin yazıçısı haqqında düşünərkən

Natiq MƏMMƏDLİ

Xalq yazıçısı Anarın 80 illik yubileyi ilə bağlı yazı üzərində işləyərkən düşünürdüm ki, haqqında publisistikanın, az qala, bütün üslublarında məqalələr, oçerklər, həcvlər, hələ, üstəlik, özünün təbirincə desək, "bir neçə çamodan" da danoslar yazılmış şəxsiyyət barəsində mən təzə nə yaza bilərəm ki... əsərlərini təhlil eləmək, bədii məziyyətlərini araşdırmaq bir məqaləyə sığacaq iş deyil, yalnız ictimai mövqeyini, siyasi baxışlarını əsas götürərək yazıçıya ədəbiyyatdan kənar qiymət vermək isə yanlış yanaşma olardı. Öz yazdıqlarının və barəsində yazılanların, demək olar ki, hamısına bələd olan adam kimi belə qənaətə gəlirəm ki, "təzə nə yaza bilərəm" qorxusunu yaxına buraxmaq lazım deyil, şəxsiyyətin tarixdə rolu və miqyası dərk olunduqca onun haqqında həmişə təzə fikirlər yazılacaq. Başqa sözlə desək, yazı predmeti kimi Anar mövzusu həmişə təravətlidir və Azərbaycan ədəbiyyatında söz demək istəyən istənilən şəxs üçün öz cəlbediciliyini qoruyub saxlayacaq. Burada mistikavari nələrsə axtarmağa lüzum yoxdu, sadəcə, mən əminəm ki, daha dəqiqi, ürəyimə damıb ki, gələcəkdə Anardan indikindən qat-qat çox yazılacaq, çünki Anar gələcəyin yazıçısıdır. Mənə elə gəlir ki, onun bütün əsərlərindən, ən xırda hekayələrindən tutmuş, düşüncələrinə, müsahibələrinə qədər hər yerdə gələcəyə yönəlmiş mesajlar var və bu ismarıclar ünvanına çatdıqca Anar yenidən dərk olunacaq. Gələcəyin yazıçısını, yəni Anardan sonrakı Anarı necə təsəvvür eləmək olar? Elə yenə də Anar kimi!

Bu sətirləri aramızdakı qırx bayramlıq intervalı nəzərə alaraq yazıram və bu zaman məsafəsi imkan verir ki, klişeyə çevrilmiş ifadələrdən yan keçərək yazıçıya müasir baxış bucağından yanaşım. Və təəccüblü mənzərə yaranır… Anarın mənim yaşıdlarımdan, hətta məndən sonrakılardan da daha müasir olduğu qənaətinə gəlirsən. Sanki aradakı qırx illik vaxt intervalı dumana bürünüb qeybə çəkilir, yerindəsə elə təxminən bizim yaşda, hələ, bəlkə də, daha cavan bir şəxs dayanır. Onunla istənilən mövzuda rahatlıqla söhbət eləmək, dərdləşmək və gərək olanda çılğın bir polemikaya da girmək olar (əslində, "çılğın" sözünün yerinə "sağlam" yazmaq istəyirdim, amma bizim zamanlarda polemikanın, hətta dekorativ formasının belə qəhətə çəkildiyini nəzərə alaraq "çılğın"ı saxladım, nostalji ovqat yaratsın deyə). Müasirlik daha çox təfəkkür hadisəsi və zövq məsələsi olduğundan Anarın bütün düşüncələrini tam ifadə edə bilən uğurlu tapıntıdır. Bu yerdə bir daha qənaətimi vurğulamaq istəyirəm ki,

söhbət gələcəyin yazıçısından gedir və bütün zamanlardan baxanda müasirlik onun portret cizgilərinin ən qabarıq təzahürüdür.

İndi dəbdə olan bir söz var, hamı yeri gəldi-gəlmədi işlətməyi xoşlayır – cəmiyyətdə mənəvi aşınma gedir, deqradasiya artıq dözülməz həddə çatıb və sairə və ilaxır. O məsələnin başqa tərəfidir ki, vəziyyətin bu həddə gəlib çatmasının günahı bir tərəfdən müstəqilliyini əldə edən kimi gənc respublikaya qarşı yönələn xarici təhdidlər, qlobal səciyyəli həmlələrdisə, digər tərəfdən mənəvi müqavimətimizin zəifləməsinin bir babalı da elə mənəviyyatımızı təmsil və tərənnüm edən adamların üzərindədir. Şükürlər olsun ki, zaman-zaman müxtəlif türlü siyasi-ideloji sınaqlardan üzüağ çıxan xalqımız özünəməxsus dəyərlərini, dilini, adətini qoruyub saxlaya bilib. Azərbaycan, mənəviyyatı aşındırmaq istəyənlərin yolunda sərt qaya kimi dayanan oğullarının, xüsusən də, ümummilli ideyanın daşıyıcısı olan söz, fikir adamlarının sayəsində vətən məzmunu alaraq dövlətə çevrilə bilib. Cümhuriyyətimizin yüzüncü mübarək ilinə təsadüf eləyən bu yazıda tam məsuliyyətimlə, tərəddüdsüz yaza bilərəm ki, Xalq Cümhuriyyəti Azərbaycan ziyalısının ərsəyə gətirdiyi istiqlal ideyasının məhsuludu. Azərbaycanın müstəqilliyinin memarı Azərbaycanın ziyalısıdı! Zamanın müxtəlif çağlarında artıb-azalan repressiyaların millətin qaymaqlarını, düşünən beyinlərini hədəfə almaqda məqsədi nəsillər arasında əlaqəni qırmaq, millətin genetik yaddaşını sarsıtmaq idi. Ürək ağrısıyla deməliyik ki, bu yönümdə itkilərimiz saysız-hesabsızdır. Azərbaycan xalqının özünün əsilzadəlik institutu ilə mənəvi körpüləri, demək olar ki, sıradan çıxıb. Biz yalnız müəyyən istisnalardan, başqa sözlə desək, yaddaşımızın qızıl fondunda yer eləmiş qənimət adamlardan danışa bilərik. Anar əsilzadəlikdən gələn genetik yaddaşı ilə müxtəlif formasiyalarda ayaq üstə qalmağı bacarmış, az qala, bir əsr boyunca Azərbaycan davasını aparmış nəsillər arasında canlı körpüdür. Onun valideynlərini çağdaş nəsil yaxşı tanıyır, ədəbiyyatımız qarşısında müstəsna xidmətlərini xatırlayırlar. Onun Gəncədə ilk maarifpərvər ziyalılardan biri, öz vəsaitinə məktəb açmış Ələkbər Rəfibəylinin nəticəsi, general Xudadat bəyin nəvəsi olduğunu da yada salmaq lazımdır. Ədibə vətənpərvər yazıçı, mütəfəkkir kimi yanaşmaqla yanaşı, onu babalarının bəyliyini, valideynlərinin istedadını məharətlə əxz edən Azərbaycan milli elitasının parlaq nümayəndəsi kimi də qiymətləndirmək lazımdır. Bakı Azərbaycanın inzibati paytaxtı, sənaye şəhəridirsə, Gəncə milli düşüncəmizin mərkəzi, Cümhuriyyətimizin sığındığı istinad nöqtəsidir.

Genetik yaddaşın nəticəsidir ki, nəsillərin keçdiyi mübarizə yoluna, böyük azərbaycanlıların irsinə Anar qədər müraciət edən, onun bədii təbliğatçısına çevrilən ikinci yazıçımız yoxdur. Üzeyir bəy, Cavid Əfəndi, Mirzə Fətəli, Mirzə Cəlil Anarın əsərlərinin qəhrəmanları kimi yenidən dərk olunur, gənclərin düşüncəsində öz yerlərini möhkəmləndirirlər. Heç şübhəsiz ki, Azərbaycanda Dədə Qorqud filminə baxan-

2008-ci il

ların sayı dastanı oxuyanlardan dəfələrlə çoxdur, nə qədər şahidi olmuşuq ki, Üzeyir bəydən danışanlar bu dahi azərbaycanlının əsərləri ilə yanaşı, Anarın filminə də istinad edirlər. Yazıçının bu yaxınlarda mətbuata verdiyi açıqlamasından belə başa düşdüm ki, növbəti mərhələdə Cəfər Cabbarlı təqdim olunacaq, sağlıq olsun. "Ayağı çarıqlı kiçik bir ölkə"nin yetişdirdiyi böyük oğullar haqqında əsərlər yazmaq, filmlər çəkmək Azərbaycanı xaricdən və daxildən sevməyənlərə, onun uğurlarına ağız büzənlərə ən layiqli cavabdır. Azərbaycanın düşmənləri ilə vuruşmaq, sözün düşmənlərinə sinə gərmək isə Anarın yazıçı kimi missiyasıdır. İllər sübut edir ki, istər əsilzadə, istər fikir adamı kimi Anar öz missiyasını layiqincə yerinə yetirməyi bacarır.

Açıq ürək əməliyyatına getməzdən öncə Anarın yazdığı yazı onun keçdiyi yolun, yaşadığı ömrün səmimi etirafı kimi səslənir və eyni zamanda yazıçının iç dünyasının mahiyyətini üzə qoyur. "Həyatımın çətin günləri başladı və hər şeyi tam dərk edərək ömrümün ən məsuliyyətli qərarlarından birini, bəlkə də, ən vacibini verməli idim. Tərəddüdlərimin tam səmimi olmasına inanın. Özümçün qorxmurdum. Uzun və zəngin bir həyat yaşamışdım. Millətimçün, onun taleyi, ədəbiyyatı, sənəti, dili üçün əlimdən gələn az-çox işlər görmüşdüm. Bunu bilənlər bilir, bilməyənlərin də canı sağ olsun". Bu sətirləri həyəcansız oxumaq mümkün deyil, insan gəlimli-gedimli dünyada hədər yerə yaşamadığına inanmaq istəyir. Əgər bütün ömrün bu gün də, yarın da mübarizələrin ön sırasında keçibsə, yaşadığın illərin dolğun məzmununu sözlə ifadə eləməyə ehtiyac qalmır. Bu insanın bioqrafiyasında nələr yoxdu ki: Sovet imperiyasının çürük ideoloji buxovları ilə savaşmaq, yalan üzərində qurulmuş böyük bir ictimai-siyasi formasiyanın tamamilə darmadağın olmasının şahidinə çevrilmək, Qarabağ dərdi, müstəqilliyini qazanmış ölkəsində, az qala, repressiya illərini xatırladacaq hücumlara, həmlələrə sinə gərmək, ideallarından uzaq düşməkdə olan cəmiyyətin mənəvi mühitinin saflaşdırılması üçün çalışmaq və daha hansı əzablar... Qəribə odur ki, bu qədər tələtümlərin içərisində ədəbiyyat yaranıb və yaranmaqda davam edir. Bu qədər hadisələrin bolluğu bir tərəfdən yazıçıya saysız-hesabsız mövzular verir, amma digər tərəfdən heç də sadə məntiqlə izah və dərk oluna bilməyən hadisələri təhlil etmək, süzgəcdən keçirmək imkanı olmur. Bunun üzərinə yaşadığımız əsrdə informasiyanın sürətlə ötürülməsi texnologiyalarının, az qala, günü-gündən təkmilləşdiyini gəlsək, razılaşın ki, indi yazıçının, sadəcə, düşünmək üçün vaxtı qalmır. Hərçənd ki, indi bir çoxları adını əsər qoyduğu "şey"ləri elə düşünmədən yazırlar, elə oxucular da düşünmədən o "şey"lərin yanından ötüb keçirlər. Bəs onda yaşadığımız zamanın dəyəri nədədir, nə üçün yaşayırıq? Anarın cavabını oxuyaq: "Dünya dərdli dünyadır. Rifahı ən yüksək olan ölkələrin də öz qayğıları, dərd-sərləri var. Güzəranı xoş keçən insanlar belə itkilərdən, ayrılıq xiffətindən, xəyal qırıqlığından azad deyillər. Amma Varlığın daha vacib bir cəhəti də var – onun mövcudluğunun özü. Yalnız yoxluğun, heçliyin bir addımlığından qayıdan insanlar bütün ağrı-acılarına baxmayaraq, Var olmağın, Varlığın necə böyük bir səadət olduğunu sonacan dərk edə bilirlər".

Anar yaxından-uzaqdan bu yurdun əli qələm tutan hər bir övladının yaddaşından, elələri də var ki, taleyindən keçib. Qürur duyuram ki, illər öncə ərsəyə gələn ilk kitabım məhz onun ön sözü ilə işıq üzü gördü. "Natiqin hekayələrini oxudum, bəri başdan qeyd edim ki, peşman deyiləm" – cümləsiylə başlayan xeyir-duasını Anar bu fikirlə bitirirdi "...inanıram ki, o, gələcəkdə yeni uğurlu əsərlər qələmə alacaq. Bu inamla da ona çətin, əzablı yaradıcılıq axtarışlarında uğurlar arzulayıram". Bu sətirləri minnətdarlıq hissiylə xatırlayaraq, dəyərli yazıçımıza da eyni arzuları ünvanlayıram, həm də Tanrıdan möhkəm can sağlığı və səbir diləməklə.

"Ömrümün heç bir anı üçün peşmançılıq hissi keçirmirəm. Nə varsa odur, nə olubsa, olub" deyir Anar.

Cümhuriyyətimizin bir əsrlik nuruna qərq olduğumuz 2018-ci ildə həm də gələcəyin yazıçısının yubileyini qeyd edirik – bu, təsadüfdən daha çox qanunauyğunluğa bənzəyir. Bu mübarək ilimizdə gələcəyin yazıçısına salam olsun!

Elkin KƏRİMLİ

***

Dünyanın sevinci, dünyanın qəmi,
Bir qozbel insanın kürəyindədir.
Kim bilir, bəlkə də, dünyanın sirri,
Ölmüş bir insanın ürəyindədir?!

***

Camaatın uşağı məktəbdə
qız dalınca düşəndə
mən bilyard masasında
8 nömrə dalınca düşürdüm.
Qara gözləri deyil,
“ala göz”ləri vəsf edirdim, Şair.

Həmişə birinci saat
cəbr-həndəsə dərsinə girməyib
məktəbin həyətindəki “playstation”
salonuna girərdim.
O da məktəbli oğlanların
“Gözəllik salonu” kimi bir şeydir.

***

Həyat imtahanından yenə sinifdə qaldım,
Siniflərə böldülər, sinif-sinif qocaldım.
Gözü çıxsın həyatın, yaşamağa qoymadı,
Gözüylə yedi məni, yenə gözü doymadı.

Ölüm də ehtiyacdır, bir gün ürək istəyir,
Ölümdən əvvəl hər kəs xoş gələcək istəyir.
Yaşamaq arzusuyla ölüb gedir adamlar,
Elə bil tamaşaya gəlib-gedir adamlar.

Ölüm deyil, bəlkə də, yaşamaq intihardı,
Bəlkə, elə bu dünya özü də bir məzardı.
Onsuz da mümkün deyil qismətdən artıq
yemək,
Hər nə qədər yesən də, qismətin imiş, demək.

Allah da şahidimdir, mən pis adam olmadım,
Bəlkə də, düz yaşadım, bəlkə də, düz olmadım.
Həyat acımasızdır, dostu, düşməni saymır,
Mən günləri sayıram, bu günlər məni saymır...

***

Dünyanın yuxusu gəlir o yanda,
Bu yanda yenicə oyanıb dünya.
O yanda soluxmuş ay işığına,
Bu yanda günəşə boyanıb dünya.

Dünyanın gözləri mavi dənizlər,
Göz yaşı çaylardı, coşub-çağlayır.
Bəlkə də, öləni, bir itəni var,
Hər gecə onunçün qara saxlayır?!

Dünyanın ağzıdır bu qara torpaq,
Yöndəmsiz dişləri qayadır, daşdır.
Mədəsi dəyirman daşı kimidir,
Aldığı qisasdır, yediyi başdır.

Buludlar dünyanın əyin-başıdır,
Bəzən də dünyamız “çılpaq” görünür.
Yer üzü bir qazan formasındadır,
Göy üzü “əzilmiş qapaq” görünür.

Dünyanın başıdır səhralıqları,
Biçilmiş zəmitək keçəl qalıbdır.
Min insan ömründən qoca da olsa,
Təbiəti şıltaq, dəcəl qalıbdır.

Bütün gözəlliklər orda idi.
Mançestr Yunayted, Liverpul,
Bavariya,
Rud Van Nisterloy, Raul…
Hətta Fənərbahçe belə.

Məktəbə çanta da aparmazdım.
Bir qırmızı “ruçka”m, bir də
göy üzlü 12 vərəqli
“tetrad”ım olub.
O da arada məktublaşmaq üçün.
Yadıma gəlir,
ilk dəfə 12 vərəqli dəftərdə
“sevirəm” sözünü yazmışdım;
20 vərəqli dəftərdə “unutdum”
O vaxt mənə görə
hər şey 2×2 idi.
O 12 vərəqli riyaziyyat dəftərində
riyaziyyatdan başqa bütün fənlər
mövcüd idi.
Ana dilindən, Ata yurduna kimi...
Hər nə qədər riyaziyyatı sevməsəm də,
kvadrat damaları sevirdim.
İndi də sevdiyim nə varsa,
o kvadratın içindədir…



***

Yaşlı nənəmə baxıram,
vallah, ölmək üçün gün sayır.
Hər gün məndən soruşur
günü, ayı, ili.
Dünən də divar saatını gətirib
deyir: Bunu düzəlt, işləmir...

Deyirəm, ay qoca,
neynirsən bu saatı?
Sənə saat lazımdır
bu saatdan sonra?

Onu da qınamıram,
başını qatmaq,
vaxtı vaxtında yatmaq istəyir.
Balışının altına qoyduğu bıçaq da,
bıçağın yanındakı çörək də
daha bu yaşdan sonra
şirin yuxu gətirmir.

Dodağının altında da nəsə deyir,
Bəlkə də, kəlmeyi-şəhadətini əzbərləyir
Yetmiş neçə yaşında...

Ölmək üçün də Allahı çağırır.
Allah hər şeyi görür, bilir...
Bilir ki, bütün bu çağırışlar
yalançı çağırışlardı.
Onu buna vadar edən ağrılarıdır.
Çünki hər gecə
yatmamışdan öncə
qapını bərk-bərk bağlayır;
ölmək istəyən qoca…
Bəlkə də, elə bilir,
əcəl qapıdan gəlir...

Deyirlər, hər insanın bir missiyası var.
Hər yaşda fərqli olur arzular.
Fikirləşirəm, bəs nənəmin
bundan sonrakı missiyası nədir?
Daha nə etməlidir?

Heç nə. Ölməlidir!
Bütün insanlar kimi.
Bütün insanlar ölməlidir!

Aysel FİKRƏT

TORPAQ ADAM

Doğmalara həsr olunur

Heç kim bilmir ki, insanlar öldükdən sonra dünyanı torpağın altından izləyirlər. Hamı ruhları göydə gəzir, göyə baxıb dua edir. Yalnız mən burdayam, yerin altında.

Yaşayarkən bir bağban idim… Bağban deyəndə ki, özünü torpağa qurban verən adam deyək. Bütün vaxtımı əkib-becərməyə həsr edirdim. Bəlkə də, yaşayarkən təyyarə sürsəydim, indi göydən baxırdım, nə bilmək olar... Aha, evimizin qapısı cırıldadı. Qadınım... necə də solğun görünür. Bu qapının səsi adamın başına düşür. Kimdi axı qapıya yağ tökən, altı aydır yoxam... evdən-eşikdən xəbərim yox.

Qadınım otaqdan çıxdı. Həyətdə gəzinir... Rəngi bəmbəyaz gözəlimdən əsər-əlamət yoxdu. Çəndən su götürüb bu tərəfə gəlir... inana bilmirəm, mənim bağda işləyərkən geydiyim geyimdə. Dəli olub, nədi... axı o, bu geyimə də, bağa da nifrət edirdi...

Qadın əyilib düz torpağa su tökdü... torpağın üstünə sığınıb ağlamağa başladı. Yəni bu qədərmi sevirdin məni, heç belə bilmirdim...

...O zaman ki yenicə evli idik, sən qığılcım kimi işıq saçan baxışlarını məndən çəkmirdin ...mən də bu baxışlara elə aludə oldum ki, səni nə zaman itirdiyimi özüm də bilmədim. İndi yadıma sala bilmirəm. Səni o lənətə gəlmiş işinə icazə verdiyim günmü, yoxsa nə vaxt? Övladımız olmayacağını bildiyim günmü, nə bilim...

...Niyə belə geyinmisən? Hanı sənin bərbəzəyin, gözəl geyimin? Gözlərimi açıb sənə baxa bilmirəm. Ağlama, bu qədər göz yaşın gözlərimə axır. Ağlama, dur geyin, get işinə, ürəyim damır, ağlama...

– Yadındaydı? Hər səhər çarpayının yanına, elə yerə bir dəstə qızılgül qoyardım. Sabahın xeyir, gözəlim, deyib gözlərindən öpərdim, əlimi çəkib məni özündən itələrdin...

Az qalırdın, o gülləri tapdalayıb yanımdan keçəsən. Səsimi eşidəndə qulaqlarını tuturdun, futbola qısıq səslə qulaq asırdım. “Qol!” qışqırıb yerimdə atılanda qapını açıb işinə, gecəyə, yorğunluğa dair uzun-uzadı nitq soyləyirdin... günlərlə sənlə danışmazdıq...

İndi az qalırsan, səsimi eşitmək üçün torpağın altına girəsən. Əzirsən məni, oturmusan sinəmin üstündə, bir az toxta, hay-küy salma, suuuus, sakit...

...Yox, nə işə gedəcəm daha, nə də bir yerə, – pıçıldadı qadın.

Axı hardasan? Qadının əlləri torpağı dəldikcə kişi bu ağırlığa dözmədi, sinəsini didən qadınına “bu ola bilməz” axı sən məni necə eşitdin? – deyə soruşdu.

Qadın fəryad qopartdı:

– Mən səni duyuram, – ətrin gəlir burdan, – deyə bağırdı, ağlamağa başladı.

Anladım ki, bu möcüzə deyil. Bu işin möcüzəsi yoxdu, qadınım mənim üçün darıxırdı, çox darıxırdı... Kədəri darıxmaq doğurur. Darıxan, ağlayan, fəryad edən qadınım...

Ağladıqca cücərdim, cücərdikcə bir az da qalxdım... Qadın torpağın altından cücərtimi görüb göz yaşını kəsdi, gülümsədi. Hər kəsə belə ölüm arzu etsəm, mənə gülərsiz, yəqin... gülməyin, gözəl ölümdü.

O gündən bütün günü həmin yerə gəlib, düz torpağa su verirdi. Bir az da söhbət etdik. Mən dediyimi o duymadı, o dediyini mən duydum. Qəribədir, bu dünyada bir yerə yığsan, bir məktubluq danışmadıq, o dünyada bir-birimizə dastan yazdıq. Qadınım məni çox qorudu.

...Göydə qarı saxlardı, istidə günəşi məni qorumaq üçün. Sevər, oxşardı, nə yalan deyim, sevilmək xoşuma gəlirdi, lap özümdən çıxmışdım, o qədər ucalmışdım ki, kökümü unutmuşdum. Köküm çürüməyə başlayıb, heç bilmirəm, bunu qadınıma necə deyim.

Bu gün-sabah tufan düşəcək, qar uçqunundan güllər də solub gedəcək, mən də qoşulub onlara gedəcəm, yenə də ağlayacaqsan? Mən burda olacam, gözəlim, bir yerə getdiyim yox... Yaz gələcək, hər tərəfi tutacam sarmaşıq kimi, qalxıb həyətimizi bürüyəcəm... İndi isə ağlama, dur get evə...

– Heç kim bilmir ki, insanlar öldükdən sonra dünyanı torpağın altından izləyirlər. Hamı ruhları göydə gəzir, göyə baxıb dua edir. Yalnız mən burdayam, yerin altında, O da bunu bilir.

Yaşayarkən bir bağban idim. Qadınım məni ömür boyu sevmədi... Sevməsini də bilmirdim axırda, məni bir avtomobil qəzasında itirdik... İndi sarmaş-dolaş ağac köklü əcaib bir bitkiyəm ...

Sabah qar uçqunu düşəcək, yenə də dönüb sizlərə ömür olacam... Sevgi insan olsaydı, qatil olardı... Bu dünyada elə sevin ki, öləndən sonra dirildəcək qədər çox sevməyəsiz...

Səhər yuxudan durub uçqun qarın altında məni yenə ölmüş tapan qadınım kökündən məni qırıb evə qaçırtdı, ağlaya-ağlaya dibçəyə əkdi, ona yazığım gəlirdi. Yalnız dirilə bilmirdim.

Bu gün yuxusuna girib, məni bağışla, deyəcəm, bəlkə də, deyəcəm, gözlərini yum, gəlirəm, sevgilim...

“ÜNVAN”

27-ci bina, 48-ci mənzil. Qapını döyürəm, açan yoxdur... Uzaqdan nənəmin səsi gəlir:

– Kimdir?

– Mənəm, ay nənə, mənəm.

– Sən kimsən? Yenə soruşur. Oturub qapımızın yanındakı pilləkəndə bir az gözləyirəm. Soyuqdur. Tir-tir əsən əllərimlə yenə qapını döyürəm, bu minvalla bir neçə dəfə qapımızı döyüb həyətə düşürəm. Həyətdə oturub eyvanımıza baxıram... Neçə vaxtdır bu evi yenidən almaq, elə əşyalarının da hamısını düz 30 il bundan əvvəlki kimi içinə düzmək istəyirəm... İstəyirəm, bibilərim də sağ olsun, bizdə qonaq olsunlar. Qardaşlarım yenə səs-səsə verib futboldan, musiqidən söhbət salsınlar. Nədənsə ədəbiyyat müəllimim Habilin sözü düşdü yadıma: olmayanı arzu etsən, heç zaman istədiyinə çatmazsan. Görəsən, indi burda kim yaşayır? Evimi satsam, ala bilmərəm... axı bu evi necə alım?

Necə gedim deyim ki, bu evi verin mənə. Bəlkə, heç ev satmaq niyyətləri də yoxdur...

...Ay qız, evə gəl, yenə oğlanlarla oynayırsan... İndi atana deyəcəm, – anam yenə eyvandan məni çağırır...

Mən də pərt oluram, üst-başımı çırpıb, qonşunun oğluna baxıb çiynimi çəkirəm... yenə durub evə qaçdım...

Qapını döydüm, bir müddət orda dayanandan sonra qapını qorxa-qorxa bir qadın açdı:

– Siz kimsiz?

Mən geri qayıtmaq istədim, yalnız sonra ürəklənib irəli atıldım: Bilirsiz, mən burda böyümüşəm, bu evdə, başa düşürsüz?..

Qadın üzümə çaşqınlıqla baxıb "sizə nə lazımdır" – dedi, – biz kirayə qalırıq, sizi evə buraxa bilmərəm...

– Mən elə evə baxmaq istəyirdim, son dəfə otuz il bundan qabaq köçəndə görmüşəm, icazə verin...

Qadın qapını örtdü...

Ayaqlarımı sürüyə-sürüyə pillələri düşdüm.

Elə bu dəm atamın maşını düz yanımda dayandı. Atam əlindəki bağlamaları götürüb yanımdan ötüb getdi.

Nə qədər çağırdım, baxmadı.

Həyətdə oturub susqun eyvanımıza tamaşa edirdim. Çox keçmədi, qadın həyətə düşdü, sizin bu soyuqda bu neçə saatı burda dayanmağınızı anlamıram, dedi. Əgər bu qədər vacibdirsə, gəlin gedək, evi görün, yalnız dərhal gedin...

Razılaşıb ondan tez pillələri qalxdım. Evə girəndə nə rənglər, nə divarlar mənə tanış deyildi.

O biri otağın qapısına boylananda pianomuzu gördüm. Aman Allah, demək, səni atmayıblar, deyə qışqırdım. Üstünə qaçıb qapağını qaldırdım... Bağışla, səni o zaman ağır idin deyə yerindən qaldıra bilmədik.

– Bilirsiz... Qadın, yəqin ki, nədənsə bərk qorxurdu, mənə lap dəli kimi baxırdı. ...Qardaşım yanımda dayanıb məxmər gülüşüylə gülümsündü...

Əlimi alnına, gözlərinə çəkib, – sənə bacın qurban, nə yaxşı, sənə heç nə olmayb, demək, yalandır, sən ölməmisən, – dedim. O, əlini burnuma vurub göz vurdu...

Əli ilə pianonu göstərdi, onun nə dediyini anladım və mənə öyrətdiyi akkordu tutmağa çalışdım.

Musiqini ifa edə-edə sözlərini oxuyurdum, çünki qardaşım məni belə öyrətmişdi...

Sonra mahnı bitən kimi "Ana, çay gətir" deyə elə burdan mətbəxə səsləndik... Gözümdən yaş axırdı... musiqini ifa edib geri dönəndə qadın əlində su dayanmışdı... Xanım, xahiş edirəm suyu için, deyəsən, halınız pisdir, kimləsə danışıb-gülürsüz, düşünmürsüz, hardasız, indi yoldaşım, uşaqlar gələcək, xahiş edirəm, gedin. Bəlkə, siz bizə köçəsiz, mənə buranı verin, xahiş edirəm...

– Siz dəli olmusuz, günah məndədir, axı sizi evə niyə buraxıram...

O biri otaq bağlıdır, açarı hanı... hə, atam Moskvaya gedəndə otağı bağlayırdı, kitabları qarışdırmayaq, açarın yerini isə bir mən bilirdim... bu dəqiqə deyim... Otaqlarda qaçmağa başladım... "mənim otağımda" deyib sonuncu otağı açdım... Qızım, qorxma, – deyə qadın içəri girib uşağını qucağına aldı...

Nə qədər etdim, otağımın rəngini yada sala bilmədim...

Əslində, mənə burda heç nə tanış deyildi. Uşaq qorxub anasına sığınmışdı...

Sanki yuxudan ayılıb ardımca baxmadan qapıdan çıxdım... Mən çıxan kimi qadın qapını tez bağlayıb açarladı...

Çox keçmir, evimiz, yollar uzaqda qalır... Yalnız canımda qəribə bir xoşbəxtlik var, ümid var.

Bir gün mütləq bu evi alacam: ev-27, mənzil 48... Harda yaşasam da, mənim ünvanım budur...

Ruzbeh MƏMMƏD

YIĞIB SAXLAMIŞAM GÜLÜŞLƏRİNİ

Yığıb saxlamışam gülüşlərini,
Arxanca gəzmişəm özgələr kimi.
Sən heç dəyişməmisən, dəyişməmisən,
Birdən yox olursan kölgələr kimi

Yəqin, səndə qalır qoşa şəklimiz,
Yəqin, qocalıbdı şəkil divarda,
Yəqin, sən də yoxsan, şəkilsən indi,
Mən indi sənincün darıxmıram ki...

Mən indi sənincün pis darıxıram.
Qayıt hər şeyi alt-üst elə, get,
Hələ öpülməmiş əllərini də
Mənim qollarıma qoyub elə get.

Nə vaxtsa yığarsan bir axşamçağı
Qəfil pəncərədən soyuq düşəndə,
Əllərim şəklinə lap ilişəndə
Sənə doğma hissdi, yəqin, bilərsən
Dünyada çətindir qadın gedişi...

Əgər tutacaqsa bu pis darıxmaq,
Qaytar özünü qadın yerinə
Mənim hisslərimi ovutmaq olar,
Bilirəm, çətindi, lap it zülmüdü,
Nə olsun, amma ki, qayıtmaq olar.

Nə qədər arxanca qışqırmamışam,
Nə qədər arxanca söyüş söymürəm,
Məni öyrətmə pis vərdişlərə...

Hələ ki, narahat uşaqdı könlüm,
Başa düşürsən bütün uşaqlar
Qadın qoxusuna alışır öncə,
Qadın qollarında böyüyür öncə...

Yığıb saxlamışam gülüşlərini,
Arxanca gəzmişəm özgələr kimi.
Sən heç dəyişməmisən, elə o sənsən,
Birdən yox olursan kölgələr kimi...

PAYIZ SƏRGİSİ

Elə bildik, bu yağışlar kəsəcək,
Quruyacaq pəncərəmiz yağışdan,
Ağacların yarpaqların küləklər
Dağıdacaq budaqların başından.

Yellənəcək zivədəki paltarlar,
Pəncərini külək vurub qıracaq,
Bir pişik də tullanacaq eyvana,
Bir it də ki boynun burub duracaq.

Bu səs-küyə ayılacaq qonşular,
Bir dul qarı keçinəcək əsəbdən,
Qışqıracaq bu it-pişik səsləri,
Kilsə zəngi qoymur yataq səhərdən...

Hamı bir-bir başın salıb içəri
Pəncərədən seyr edəcək yağışı,
Ay çıxacaq buludların evindən
Diksinəcək ulduzların işığı.

Deyəcəklər, bu yağışlar kəsəcək,
Quruyacaq pəncərəmiz yağışdan...

Səhnəyə çıxanda dua edirəm ki...

Dosye: Sədizadə Cəmil Əliağa oğlu. Bakı şəhəri, Rauf Hacıyev adına 15 saylı on bir illik musiqi məktəbinin dördüncü sinif şagirdidir. Bir çox beynəlxalq müsabiqələrin qalibi, həmçinin Prezident təqaüdçüsüdür. Azərbaycan Dövlət Filarmoniyasında "Zirvəyə doğru" solo konserti keçirilib. Konsertdə onu Rauf Abdullayevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestri müşayiət edib.

– Cəmil, bilirik ki, atan Əməkdar artist, tanınmış tarzən Əliağa Sədiyevdir. Sənin musiqi sənətini seçməyində, təbii ki, atanın sənətinin rolu olub. Amma niyə tarı yox, məhz pianinonu seçdin?

– Evdə atam həmişə tar çalanda səsi xoşuma gəlirdi. Hərdənbir götürüb bildiyim musiqiləri də ifa edirdim. Evimizdə həm də pianino vardı. Sonra yavaş-yavaş mən pianinoda ifa etməyə başladım. Musiqiyə olan marağımı və istedadımı ilk dəfə hiss edən atam oldu. Hərdən ona deyirəm, yaxşı ki, sən mühəndis, həkim və başqa sənət sahibi olmamısan. Əlbəttə, tarda da ifa edə bilərdim. Amma atam dedi ki, tar alətində təhsil almaq üçün doqquz yaşım tamam olmalıdır. Ondan sonra marağımı bütünlüklə pianinoya saldım və atam bibimin məsləhəti ilə məni 15 saylı musiqi məktəbinə, Tamella Məmmədovanın sinfinə gətirdi.

– Müəllimənlə ilk tanışlıq necə oldu?

– İlk dəfə atamla getdik. Tamella müəllimə dedi ki, mən səni dinləməliyəm. Əzbər bildiyim "İt valsı" əsərini ifa etdim. O, mənim ifamı çox bəyəndi. Amma sonra eşitdim, atama dedi ki, barmaqlarını bir az korlamısınız. Bir ay mənimlə məşğul olandan sonra dəqiq cavab verəcəyini bildirdi. Yadıma gəlir ki, müəllimənin mənə ilk sözü bu oldu: Məktəbə qədər çaldıqlarının hamısını yaddan çıxart!

CƏMIL

– Çıxarda bildin?

– Bəli. Hətta sonralar atamgil evdə deyəndə ki, filan musiqini ifa et, etmirdim (gülür).

– Cəmil, indi bir neçə dəfə istedad sözü işlətdin. Təbii ki, sənin digər yaşıdlarından istedadlı olduğun danılmazdır. Amma istedad anlayışı sənin üçün nə deməkdir?

– Yəqin ki, fərqli olmaqdır. Tapşırığı başqalarından daha tez yerinə yetirmək bacarığıdır. Verilən dərsi başqa birisi bir həftəyə yerinə yetirirsə, mən çalışıram ki, bir günə əzbərləyim.

– Əzbərləyə bilirsən?

– Əlbəttə. Müəlliməm də çox köməklik edir. Amma özüm də çalışıram ki, tapşırığı dəqiq və tez vaxtda yerinə yetirim.

– Yaşıdlarından, hətta səndən böyük olanlardan fərqlənmək necə hissdir?

– Yaxşı hissdir. Onlardan fərqləndiyimi hiss edəndə, görəndə sevinirəm.

– Böyük səhnələrə çıxırsan, Kremldə də çıxış etmisən. Ümumiyyətlə, səhnə həyəcanı olur?

– İlk müsabiqələrimdə, konsertlərdə olurdu. İlk dəfə 2015-ci ildə Estoniyanın Norveq şəhərində İohann Sebastyan Bax adına Beynəlxalq müsabiqədə çıxış etdim və birincilik qazandım. Həmin müsabiqədəki ifam mənim ilk böyük səhnə çıxışım idi. Orada çox həyəcanlı idim. Amma ondan sonra Bolqarıstanın Primorsk şəhərində keçirilən müsabiqədə həyəcanım yox olmuşdu. Sonrakı konsertlərdə də həyəcanlı olduğumu xatırlamıram.

– Axı nə qədər olmasa, həyəcan olmalıdır...

– Mənə elə gəlir ki, insan öz dərsi, tapşırığı üzərində nə qədər yaxşı məşq etsə, onu nə qədər yaxşı mənimsəsə, o qədər də az həyəcanlı olar.

– Yaxşı, səhnəyə çıxış məqamında, adın təqdim olunanda nə hiss keçirirsən?

– Birinci sevinirəm ki, böyük səhnələrə çıxıram. Daha sonra isə dua edirəm ki, hər şey qaydasında getsin.

– Hansı bəstəkar sənin ruhuna daha yaxındır?

– Mənim romantik musiqilərdən xoşum gəlir. Fredrik Şopeni, ən çox da onun "Böyük, parlaq polonez" əsərini çox sevirəm. Öz bəstəkarlarımızdan isə Cahangir Zülfüqarovun "Qubanın ağ alması"nı, Qara Qarayevin "Prelüdlər"ini, Üzeyir Hacıbəylinin, Arif Məlikovun əsərlərini sevirəm. Həm də bu bəstəkarların əsərlərini ifa edirəm.

– Müəllimənlə dərs prosesi necədir?

– Orta məktəbdə günorta növbəsində oxuduğum üçün musiqidə dərsim səhər saat səkkizdə başlayır. Əslində, bir musiqi dərsi qırx beş dəqiqədir, amma səhər səkkizdən dərsdə oluram. Tamella müəllimə mənə tapşırıqlarını verir, başqa sinifdə oturub hazırlaşıram. Sonra öz dərsini keçir. Orta məktəb dərslərinə gələnə qədər dörd saata yaxın musiqi ilə məşğul oluram. Orta məktəbdə dərslərim bitəndə də yenə evdə tapşırıqlarımı çalıram. Bütünlüklə günümün altı-yeddi saatını musiqiyə ayırıram.

– Dərsə hazır olmadığın vaxtlar olur?

– Bəzən olur (gülür). Belə olanda müəllimə çox hirslənir, məni danlayır.

– Müəllimənin sənin kimi başqa yetirmələri var?

– Bəli. Tamella müəllimənin məndən başqa üç tələbəsi Prezident təqaüdünə layiq görülüb. Mən artıq onun dördüncü tələbəsiyəm ki, 2017-ci il iyunun 21-dən Prezident təqaüdünə layiq görülmüşəm.

– Musiqi sənin həyatında nəyi dəyişdi?

– Uşaqlıqdan bir çox maraqlı ölkələrdə səfərlərdə oldum. Bəzən beş, yeddi, hətta on gün səfərlərdə oluram. Bu mənim həyat tərzimə, dünyagörüşümə təsir edir. Yəni musiqi mənim həyat tərzimi dəyişdi. Başqa uşaqlar kimi ola bilmirəm. Dərsdən gəlirəm, pəncərədən baxıram, görürəm, uşaqlar futbol oynayır. Bir yandan fikirləşirəm ki, mən də onlarla oynaya bilərdim. Digər tərəfdən isə dərslərimi hazırlamaq barədə fikirləşirəm. Musiqi olmasaydı, yəqin ki, idmanla məşğul olardım.

– İdmanın hansı növünü xoşlayırsan?

– Üzgüçülüyü çox sevirəm. Üzməyi də öyrənmişəm. Amma vaxt olmadığı üçün üzgüçülüyə gedə bilmirəm. Atam söz verib ki, aparacaq.

– Konsert zamanı ifanın fərqində olursan, ya hər şey mexaniki baş verir?

– Mən arxayın oluram ki, əgər tapşırığı, əsəri yaxşı işləmişəmsə, bəhrəsini də mütləq görəcəm. Amma hazır olmayanda nə qədər arxayınlıq olsa da, bununla yanaşı, insan narahatlıq keçirir.

– Ailədə iki uşaqsınız. Dörd yaşlı bacın da var. Onda necə, musiqiyə həvəs hiss etmisən?

– Mən pianino çalanda bacım gəlib oturur yanımda. İfa etdiyim bir musiqi əsəri vardı. Onu iki variantda ifa edirdim. O, hər iki ifadakı fərqi hiss edirdi. Elə həmin əsərin başlığını öyrətmişəm, özü hərdən çalır. "Cücələrim" mahnısını da beş barmaqla ifa edir. Musiqi duyumu güclüdür. Amma bir dəfə anamla məni dərsdən götürməyə gəlmişdilər. Musiqi müəlliməm də əsəbiləşib məni danlamışdı. O, müəllimənin əsəbiləşdiyini görəndən sonra evə gələndə soruşdum ki, sən də mənim kimi musiqiçi olmaq istəyirsən? Dedi, yox (gülür).

– Evdə valideynlərinin sənə münasibəti necədir? Musiqiçi, sənət adamı kimi azadlığın var?

– Azadlıq olur. Amma çox yox. Bəzən əylənirəm də. Bacımla oynayıram, istirahət günləri mütləq atamla gəzintilərə gedirəm. Oyun oynanılan məkanlarda bir neçə saat bütün uşaq oyunlarını oynayıb həftəlik yorğunluğumu çıxarıram. Bir də ləzzətli xörəkləri yeməyi çox sevirəm (gülür).

– Cəmil, Prezident təqaüdçüsüsən. Belə deyək də, bu yaşından artıq pul qazanırsan. Sənə xərclik pulu verirlər?

– Dərsə gedəndə yemək pulu verirlər. Amma çox məbləğdə yox. Nə istəyirəmsə, ata alır. Bolqarıstanda səfərdə olanda atamla gəzintiyə çıxmışdıq. Mən gördüyüm, xoşladığım oyuncaqların hamısını almaq istəyirdim, amma atam məni sakitləşdirirdi ki, səbirli olum, tələsməyim. Sonra elə olurdu ki, mən istədiyim oyuncaqların növbəti küçədə daha ucuz qiymətə satıldığını görürdüm və ordan alırdıq. Buna görə də atamın fikirləri ilə həmişə razılaşıram. O, uzun illərdi xarici ölkələrdə çox olur. Alış-veriş təcrübəsi də məndən çoxdur.

– Müsabiqələrə, konsertlərə ən çox ananla gedirsən. Ən çox kim yanında olanda özünü rahat hiss edirsən?

– Anama artıq öyrəşmişəm. O, mənimlə olmayanda elə bil nəsə çatışmır. Ana həmişə mənimlədir. Amma atam da yanımda olanda özümü daha ürəkli hiss edirəm...

– Dərsdən əlavə mütaliə edirsən?

– Bəli. Bu yaxınlarda Reyhan Yusifqızının "Zamanın sirləri" və "Yaşıl gözlü qız" kitabını bitirdim. "Səfillər" romanının uşaqlar üçün hazırlanmış variantını da oxumuşam. Qış tətilində "Koroğlu" dastanını oxumağa başlamışdım. Amma dörd günə yetmiş beş səhifəyə qədər oxuya bildim. Məktəblər açılandan sonra vaxt edə bilmirəm ki, davamını oxuyum. Bəzən pianino çala-çala dastanı da oxuyurdum.

– Necə?

– Kitabı musiqi notu ilə birgə not saxlayan hissəyə qoyurdum. Musiqi əsərini çaldıqca arada dastandan da oxuyurdum.

– Çətin olmurdu?

– Xeyr. Əksinə, elə oxuyanda dincəlirdim. Bəzən elə olur ki, iki musiqi əsərinə eyni anda hazırlaşıram. Bir dəfə müəlliməm Şopenin və Bethovenin əsərlərini evdə hazırlaşmaq üçün vermişdi. Hər əsərdə əllərlə işləmək lazım idi. Elə oldu ki, vaxta qənaət olsun deyə sağ əldə Bethovenin, sol əldə isə Şopenin əsərini məşq etməli oldum.

– Bir pianinoda iki ayrı əsərin səslənməsini evdə heç kim hiss etmədi?

– Atam hiss etmişdi. Bir də gördüm, mənə yaxınlaşıb diqqətlə əllərimə baxır. Atam musiqiçidir axı. Pianinodan müxtəlif səslərin gəlməsini duymuşdu.

– Bizim böyük dirijorumuz Rauf Abdullayev sənin haqqında xoş sözlər deyib. Belə insanların ümidini doğrultmaq sənə çətin gəlmir?

– Xeyr. İnsanın özünə inamı olsa, irəli gedə bilər. Mən həmişə təzə əsərlərlə tanış olmağı sevirəm. Şopenin "Ekspromt fantaziya" əsərini müəllimə mənə hazırlaşmağa verəndə çox həvəslə hazırladım. Sonra əsəri müsabiqələrdə, konsertdə ifa etdim. Növbəti dəfə yeni əsəri hazırlaşmaq üçün götürəndə artıq "Ekspromt fantaziya" ilə vidalaşdım. Həmin əsər mənim çox sevdiyim əsər olsa belə, onu bir kənara qoydum, yeni işə başladım. Müəlliməm mənə yeni əsərlər verəndə çox həvəslənirəm. Onlarla tanış olmaq üçün can atıram. Bildiklərimi onsuz da bilirəm. Buna görə də onlarla kifayətlənmək istəmirəm.

– Ən qısa müddətə hazırladığın əsər hansı olub?

– Şopenin "Böyük parlaq polonez" əsərini hazırlamışam. Rauf Abdullayevlə konsert-qabağı görüşdən sonra müəlliməm dedi ki, Cəmil, istəyirəm sənə konsert proqramından əlavə "Böyük parlaq polonez" əsərini də verim. Bir günə həmin əsəri əzbərlədim. Düzdü, peşəkar səviyyədə hazırlıq deyildi. Sonra on gün içərisində biz müəlliməmlə bu əsəri tam şəkildə hazırladıq. Ancaq müəllimə əsəri mənə təhvil vermədi. Dedi ki, baxarıq, əgər o biri əsərləri məhv etmədən, unutmadan çala bilsən, bunu da çalarsan. Bir həftə də əlavə evdə hazırlaşdım. Sonra konsertdən əvvəl Rauf müəllim üçün ifa etdim. O, məndən soruşdu ki, bu əsəri nə qədər vaxta hazırlamısan? Dedim, on günə. İnanmadı. Çünki, əslində, həmin əsəri üç-dörd aya hazırlamaq ancaq mümkündür.

– Əsərin çətinliyinin fərqindəydin?

– Əlbəttə, çətin əsər idi. İlk dəfə qulaq asanda da öz-özümə fikirləşmişdim ki, nə ağır əsərdir.

– Rauf müəllim bir müsahibəsində deyirdi ki, biz belə uşaqları qorumalıyıq. Səncə, qorumaq deyəndə nəyi nəzərdə tuturdu?

– Yəqin ki, yaxşı musiqi təhsili, konsertlərə getmək... Özüm isə əllərimi zədələnməkdən qorumalıyam. Bəzən əllərim yorulur. Çox sü-

rətlə çalanda bədənim də tərləyir. Amma sonra keçib gedir.

– Xeyli ölkələrdə olmusan. Ən çox hansı ölkə xoşuna gəlib, hansı ölkədə qalıb yaşamaq istərdin?

– Ən çox İsveçrə xoşuma gəldi. Orda kiçik bir şəhər vardı. Sakit, səssiz-küysüz şəhər idi.

– Müsabiqələrə gedəndə başqa ölkələrin gəzməli yerlərini, muzeylərini gəzməyə imkan olur?

– Muzeylərə getməmişəm. Amma gəzməli yerlərə gedirəm. Moskvada keçirilən Vladimir Kraynev adına müsabiqəyə gedəndə atamla Qırmızı meydana getdik. Kreml və onun içərisindəki muzey barədə atam danışdı. Bunlar məni çox cəlb etdi. Atama dedim ki, mən Kremlin içərisində olmaq istərdim. Birdən necəsə orda olmağı arzulamışdım.

– Gedə bilmədin?

– Həmin vaxt yox. Amma az müddət sonra qismət oldu. Elə həmin arzumu deyəndə atam mənə demişdi ki, Cəmil, sən ancaq pianinonu çal, dərslərinlə məşğul ol, Allah sənə hər şey yetirəcək. Qayıtdıq Bakıya. Üstündən on gün keçməmiş məni Kremlə çıxış etmək üçün dəvət etdilər. Prezident orkestri ilə ifa etdim. Kremldə də oldum, onun içərisindəki muzeydə də.

– Müsabiqələrlə, konsertlərlə bağlı maraqlı, yaddaqalan məqamı xatırlayırsan?

– Altı yaşımda Bolqarıstanda olanda müsabiqədən əlavə bayırda insanlar üçün açıq konsert təşkil etmişdilər. Müsabiqə iştirakçılarından biri kimi mən də çıxış etməliydim. Səhnədə isə royal yox idi, sintezator idi. Mən çıxdım səhnəyə, birinci əsərimi ifa etdim. O bir az lirik əsər idi. İkinci əsər isə dinamik idi. İkinci əsərə keçəndə gördüm ki, sintezator əsir. Tutacaqlarının üstünə düzgün yerləşdirməmişdilər. Sonuncu akkordları vurandan sonra istədim ki, əyilmiş aləti düzəldim, köməkçilər qaça-qaça özləri gəlib düzəltdilər. Sən demə, hər an alət yerə düşə bilərmiş. O vaxtı çox həyəcan keçirmişdim.

– Filmlərə baxmağı xoşlayırsan?

– İmkan olanda baxıram. “Ögey ana”, “Bir qalanın sirri”, “Sehrli xalat” filmlərini çox sevirəm. Xarici filmlərdən isə “Pianoçu” və “1900-ün əfsanəsi” filmlərindən xoşum gəlib. “Böyük parlaq polonez” əsəri elə “Pianoçu” filmində baş qəhrəmanın gizləndiyi evdə piano görüb ifa etdiyi əsərdi.

– Sən o filmə baxandan sonra sevmişdin həmin əsəri?

– Xeyr. O musiqini Kremldə Çindən olan on beş yaşlı ifaçı çalmışdı. Mənim də çox xoşuma gəlmişdi. Müəlliməm həmin ifaçıdan xahiş elədi ki, notları bizə versin, sürətini çıxaraq. O da verdi. Mən filmə baxsam da, həmin vaxt yadıma düşmədi ki, əsər filmdəndir. Atam dedi ki, Cəmil, bu musiqi sənin xoşladığın filmdə ifa olunur. Mən musiqini ifa edəndən sonra yenidən qayıdıb o filmə baxdım.

– Bu günə qədər ifa etdiyin ən çətin əsər hansı olub?

– Bethovenin “Rondo Kapriççio” əsəri olub. Həmin əsəri məşhur pianoçu Yevgeni Kisin çalmışdı. İndinin özündə də o əsərin adı gələndə deyirlər ki, hansı, Kisinin çaldığı əsər? Texniki baxımdan çox çətin əsər idi. Moskvada da, Gürcüstanda da heç kim inana bilmirdi ki, “Rondo kapriççio”nu mən ifa edirəm.

– Musiqi mənim həyatımdır, deyə bilərsən?

– Hə. Deyirəm. Mən darıxan kimi pianinoya yaxınlaşıram, ifa edirəm və darıxmağım da keçib gedir.

– Sənə uğurlar arzu edirik, Cəmil. İnanırıq ki, yaxın gələcəkdə səsin daha böyük musiqi salonlarından gələcək.

Samirə ƏŞRƏF

FURQANİ

QOCALDI ANAM

Mən uşaq olanda O cavan idi,
Görəsən, bəs niyə qocaldı Anam?
Bəlkə, uşaq idim, ondan tələsdi,
Mən böyüyüm deyə qocaldı Anam...

Ağladım, qəmləndi, güldüm, oldu şən,
Mənimlə yaşadı hər anımı tən.
Onunçün uşağam, böyüsəm də mən,
“Balam” deyə-deyə qocaldı Anam.

Yaxınam, uzağam, axı nə fərqi?
Hey məni düşünər, tək mənəm dərdi.
Uşaq ikən saçlarımdan öpərdi,
Ətrim duya-duya qocaldı Anam.

Çox vaxt gecələrin eylədi sabah,
Qoynu körpəsinə ən isti soba.
Mənimçün qatlaşdı hər cür əzaba,
Cana qıya-qıya qocaldı Anam.

Furqani, nə yazsan, nə desən də, bil,
Ananın bir anlıq zəhməti deyil!
Ana bir bağbandı, övlad isə gül,
Qoxlaya-qoxlaya qocaldı Anam.

VERMƏDİ

Hava deyil, zəhər oldu udduğum,
Sevinc deyil, qüssə oldu daddığım,
Səndən sonra neçə-neçə tutduğum
Əllər sənin ətirini vermədi.

Sənsiz ömrüm batdı qəmə, ah-vaya,
Həsrət qaldım səntək gözü şəhlaya,
Veyil oldum, düşdüm çölə, səhraya,
Çöllər sənin ətirini vermədi.

Şikəst qaldı sənsiz arzu-diləklər,
Ümidlərim yollarında iməklər.
Çəmənlikdə ətir saçan çiçəklər,
Güllər sənin ətirini vermədi.

Bu sevdanın evin yıxdı kələklər,
Ayrı düşdü, qovuşmadı ürəklər,
Səndən xəbər gətirmədi küləklər,
Yellər sənin ətirini vermədi.

Azalmadı həyatımda səs-küyüm,
Taleyimdə açılmadı bu düyün...
Oxşadığım, qoxladığım, öpdüyüm
Tellər sənin ətirini vermədi.

İÇİMDƏDİ

Dərdin, qəmin, acıların
Yeri mənim içimdədi.
Ağrı, əzab ikidirsə,
Biri mənim içimdədi.

Ümidlərim quru şumdu,
Hər buluddan yağış umdu.
Sızqa axan göz yaşımdı,
Guru mənim içimdədi.

Fələk çəkmiyir qamışın,
Neynir mən başıbatmışı?
Arzunun vaxtı ötmüşü,
Xarı mənim içimdədi.

Ömür, düşmə get-gələ, bil,
Olmalı imiş belə, bil!
Dərd ac toyuqdur elə bil,
Darı mənim içimdədi.

Furqaniyəm, dərk edirəm,
Nə haqqım, haqqın itirəm.
Tərk etməyib şükr edirəm,
Tanrı mənim içimdədi.

ÖMRÜMÜN QARƏTÇİSİ

Gəl e, gəl, ömrünün a qarətçisi,
Bu ömür sənindi, çap, tala getsin.
Qaldırıb əlini, yumub gözünü,
Gücün hardan çatır, baltala getsin.

Qırıb yaşa dolan ümidlərimi,
Yeyib yaşa, dolan ümidlərimi.
Sənlə bağlı olan ümidlərimi
Doğra çilik-çilik, xırdala getsin.

Üst-üstə yığılmış arzularımdan,
Yarımçıq doğulmuş arzularımdan,
Toplayıb dağılmış arzularımdan
Sinəmin üstündə od qala getsin.

Verdiyin hər zülmə dayanan ömrü,
Yaxdığın atəşə boyanan ömrü,
İzlə sonunadək bu yanan ömrü,
Közüm kül olunca qurdala getsin.

Yandım ki, qış qəlbin, bəlkə, isinə,
Neyləyim, dəyişməz oldun sən yenə.
Fırlat e başına, qurbandı sənə,
Sadağan olsun bu can, dola getsin.

Təki yaxşı olsun sənin güzarın,
Olmasın ömründə heç ahu-zarın,
Qoy odda qalsın e azar-bezarın,
Gəl atıl üstümdən, dərd-bəlan getsin.

SEVGİ MƏCƏLLƏSİ

Sevgi şeirlərim sənə yazılır,
Sən şeirlərimin ruhu, canısan!
Həyatım filmsə, sən də bu filmin
Baş rolda yer almış qəhrəmanısan!

Mənim həyatıma, mənim ömrümə,
Vurdun gəlişinlə akkordlarını.
Məni özün haqda düşündürərək
Qırdın düşündürmək rekordlarını.

Arzu edirəm ki, heç vaxt bitməsin,
Uzansın sevgimiz serial kimi.
Gəl əl-ələ tutub qoruyaq eşqi,
Duraq keşiyində radikal kimi.

Qanun qəbul edək, ya bənd artıraq,
Sevginin cinayət məcəlləsində.
Nə aminist olsun, nə də ki güzəşt,
Əhdinə xəyanət məsələsində...

AYRILAQ

Biz belə ayrıla bilməyəcəyik,
Nə edək, məcburuq ancaq, ayrılaq.
Vüsala yetmədik, ağır olsa da,
Açaq ayrılığa qucaq, ayrılaq.

Kədər-qəm ələndi hey başımızdan,
Silinərmi bu an yaddaşımızdan?!
Ağlayaq, sızlayaq, göz yaşımızdan
Qoy sönsün bu alov, ocaq, ayrılaq.

Ətrafda hələ ki, seyrəkdi adam,
Bir az da gözləyək, artsın izdiham.
Hərəmiz bir səmtə... düşəntək məqam
Qarışaq onlara o çağ, ayrılaq.

Sevdamız bu gündən xəyaldı, xəyal,
Qədərin önündə sən də, mən də lal.
Gülüm, ayrılıqdı, sağ-salamat qal,
Son kəs bir-birmizi qucaq, ayrılaq.

Belə olmayaydı sonumuz gərək...
Başqa nə oy(u)nu var taleyin görək...
Göz-gözə ayrılmaq çətin, çevrilək,
Arxaya baxmadan qaçaq, ayrılaq.

Sözün hicabı

gənc qadın yazarlarımız haqqında ilk söz

Gənclərə qayğı göstərənləri sevirəm. Hələ əli təzə-təzə qələm tutanlardan sabah kim daha çox ədəbi mövqe qazanacaq, bilmirəm. Amma ədəbiyyata meyillidirsə, onun yanında olmağı xoşlayıram. Səbəbi aydındır. Yeniyetməlikdə və gənclikdə mənim yanımda tanınmışlardan kimsə olmayıb. Yazdığım ilk şeirimi oxuduğum şairlərdən biri isə üzümə dedi ki, get, özünə iş-sənət tap. Yəni səndən şair olmaz. Açığını deyim, heç o şair də bir yana çıxmadı, baxmayaraq ki, özünü ədəbiyyatın yaradıcılarından biri sayırdı...

İsti avqust günlərindən birində bir dəstə gənc şair Cəlilabada, həmkarlarından birinin toy şənliyinə gəlmişdi. Onlardan biri, Gülnarə İsrafil zəng edib mənimlə görüşmək istədiyini bildirdi. Cəlilabadın mənzərəli guşəsi olan Tut bağında atüstü bir ədəbi məclis qurduq. Gülnarə İsrafil, Günay Nəriman Həsənli, Vasif Zöhraboğlu, Yetim Qacar, Namiq Ağa, Səid Qərib, Həmid Babaşov Babazadə, Ədalət Salman və Firudin Rüstəmli ilə olan ədəbi söhbətlərimiz hamının ürəyincə oldu. Bu barədə Vasif Zöhraboğlu sosial şəbəkədə təəssüratını belə bölüşdü: *"Cəlilabada, Ruslanın oğlunun toyuna getmişdik, bizi elə gözəl qarşıladılar, münasibət göstərdilər ki, heç qayıtmaq istəmirdik. Kaş bir az da vaxtımız olaydı, bir-iki gün də qalaydıq. Ruslan Nadir, Anar Əlizadə, Bəhruz Xəlil, Səid Qərib, Namiq Ağa, Bilal Alarlı, Elmir, Ruslan Talıb, Çingiz Xanın Nəvəsi və adlarını unutduqlarım... hər birinizə ayrı-ayrılıqda təşəkkürlər".* Yetim Qacar (Manaf) heyranlıqla bu sətirləri yazdı: *"Cəlilabad əvvəllər mənim üçün sadəcə, Seyran Ruslanı, Anar Aqili yetişdirən bir məkan idi, amma o gün anladım ki, mənim gördüklərim, sadəcə, aysberqin görünən tərəfidir. Tanıdığım insanlardan bezdiyim bir anda tanımadığım insanların davranışı məni bir daha düşünməyə vadar etdi və əmin oldum: insanlıq hələ də ölməyib, yaşayır. Bu, Cəlilabadda daha qabarıq özünü büruzə verir... Cəlilabad ədəbi mühiti verdiyi dəyərlə bizi göylərə qaldırdı. Kafedə oturduğum anlarda sanki mən ruhumu cərəyana qoşub enerji yığırdım. Yəni ruhum yeni döyüşlərə köklənirdi, anlayırdım, biz, sadəcə, döyüşü uduzmuşuq, amma müharibə hələ qabaqdadır və tək Cəlilabadda gördüyüm ruh halımla deyə bilərəm ki, belə insanları olan millətə qalib gəlmək mümkünsüzdür. Təsəvvür edin, əvvəlcə dindarlarla söhbət, sonra gənclərlə kafedə dərdləşmə və ən nəhayət, Cəlilabadın (ağsaqqalı, özü cavan olsa da), Bilal Alarlı ilə olan görüş... Bilal müəllimlə ilk görüşümdən anladım, Cəlilabadı ayaqda saxlayan Türk ruhunu (Türk millətini yox ha!) burada ayaqda saxlayan məhz belə insanlardır!"* Gülnarə İsrafil Cəlilabaddan getdikdən sonra öz Facebook səhifəsində yazdı: *"Böyüklüklə insanlıq, dünyagörüşdən və müdriklikdən doğar. Qarşınızda baş əyirəm, Bilal müəllim. Sizinlə eyni əsrdə yaşamaq nemətdir...*

Nə deyim?! Ədəbiyyatımızı çiyinlərinə alan bir gənc nəsil özündən əvvəlki nəslə minnətdarlıq hissi ilə yanaşırsa, demək, nahaq yerə külüng çalmamışıq. Dəyər verdiyinizə görə təmsil etdiyim Cəlilabad yazarları adından öz növbəmdə sizin qarşınızda baş əyirəm. Nə yaxşı ki, sizin kimi gənc ədəbi nəslimiz var! Ədəbi uğurlarınız bol olsun!

Amma siz elə-belə getmədiniz, burada, Cəlilabadda şeirsevərlərə verdiyiniz ilk kitablar sizinlə bağlı xatirələri sizdən sonra uzun müddət yaşadacaq. Habil Rza Nurun "Əfsanələr yalandır" və Gülnarə İsrafilin "Torpaq adamlar"

şeir toplularını maraqla oxudum. Qərara gəldim ki, onlardan biri – Gülnarə İsrafil haqqında ayrıca söhbət açım.

Gülnarə İsrafil şeirə reallıqdan gəlir, amma təhkiyə təəssüratları mücərrəddir. O qədər mücərrəd ki, subyekti müəllif olan bu yazılarda konkret obyekti təxmin etmək belə mümkün deyil. Amma maraqlıdır: "Elminə və dünyagörüşünə heyran olduğum adam. Sən, dünyanın qaysaq üzünün nuru, yorğun dizinin taqəti, bəzənsə, güllü yamacların şeh üzüsən. Bu qədər asilər içində bir var, bir tutunmaq yerisən. Bəzən səni görəndə dünyanın ölümsüz olduğunu düşünürəm. Ölmüşlər arasında dimdik. Yaşıl saralanda yaşıllığının izini buraxaraq saralır. Saralmaq günəş zərrələrinin isti üzüdü. İstilik və olumlu sevgin il-il, gün-gün yoğurur-yapır ucalığını. Sənin adını çəksəm, adlar paxıllığını çəkər, adamlar mürgü vurmaz. Adın daima ürəyimin ən şirin yerindədir, biləsən. Səni durğunluq içində diri görürəm. Sənə aid hərflər düzülüb mirvarilənir. Çəkmirəm adını. Sən gecələrin sabahısan... Bəşər bu sifətləri özündə daşıyammazdı, mütləq və mütləq İlahinin sonsuz rəhməti var vücudunda... Ölməzlərin ruhu dünya durduqca durar..."

Şeirin Gülnarə İsrafili isə başqa cürdür. Bir şair kimi Gülnarə xanımı başa düşmək mümkündür. Şeir bir dəfə yazılır. Şeirin babatı olmur! Amma həmişə yaxşı şeir alınırmı? Ədəbiyyata kütləvi axının baş verdiyi məqamda fərqlənmək də çətindir. Ömrünü şeirə həsr edib, özünü aldadanlar da var! Əvvəl-əvvəl özü üçün dərd uydurub, sonra bu dərdi yaza-yaza şair olanlar daha çoxdur.

Bəs onda neyləyək? Əgər şeirlər və onları yazan şairlər bir-birinə bənzəyirsə, daha kimsə əlinə qələm almasınmı? Söz təkcə hissləri ifadə edirmi? Emosionallıqdan məhrum şeir şeir deyilmi? İntellektual şeir deyilən bir ifadə də var axı...

Mən yaxşı bir əsəri oxuyub şeir yazanları başa düşürəm: oxuduqları onların poetik dünyasını tərpədir!

Özünü, öz yaşantılarını, iç dünyasını qələmə alanları daha yaxşı başa düşürəm: yazdıqları fitrətdi çünki!

Gülnarə İsrafili də belə tanımışam, yaşantılarının poetikasını yaradan şair kimi! Onun həyat tarixçəsi də maraqlıdır: Əmiraslanova Gülnarə İsrafil qızı Gədəbəyin Qarkənd kəndində dünyaya göz açıb. Rayonda peşə litseyində, sonra Gəncə şəhər pedaqoji kollecində oxuyub, ilahiyyatçı kimi "Hövzə" mədrəsəsini, sonra BSU-nun yaradıcılıq fakültəsini bitirib. İnternet saytlarından birində çalışıb. "Zərrələr" toplusunun rəhbəri və tərtibçisidir. DGTYB-nin, Gənc Ədiblər Məktəbinin, "Vahid" ədəbi məclisinin, "Məcməüş-şüəra" məclisinin üzvüdür. Şeirləri müxtəlif ədəbi toplu və antologiyalarda, ədəbi orqanlarda, həmçinin Türkiyədə işıq üzü görən ədəbi dərgilərdə çap olunub. 2016-cı ildə "Torpaq adamlar" adlı ilk poetik toplusu nəşr olunub.

Gülnarə İsrafil respublika mətbuatında çap olunmuş çoxlu sayda esselər, hekayələr, şeirlər və publisistik yazıların müəllifidir. "Hər gün daşa dönür adamlarımız" deyən şairin körpə balası olan ömür böyüyüb ölüm adlı qonağa dönür:

Elə istəyirəm qığılcım axsın,
Parlasın gözümün yaşı yerinə.

Saçında xınalanan yolu əyninə geyib yol gedən şair ölümün gözünə girib sabaha qədər gülür. Amma başqa bir qayğı da var ki, Gülnarə İsrafil onu çəkmək zorundadır:

Nə əvvəldi, nə də sondu,
ölüm gözlərimdə dondu.
Nəfəsimə hava dolmur,
bütün yerə, bütün göyə
hava çatır,
ürəyimə hava çatmır.

Sıxılan, boğulan şair hər gün bir az ölür, hər gün bir az doğulur, özündən çıxıb gedir. Bu qədər emosional, bu qədər ekspressiv sətirlər oxucusunun ruhunu ovlayır, öz ovsununa salır. Mən ona görə bu obrazlı nümunələrə müraciət etdim ki, oxucu Gülnarə İsrafil dünyasının nəyə köklendiyini yaxşı görə bilsin:

Yox ol, gözlərimdə öl,
Ürəyimə dəfn edim.
Hər gün, hər an düşünüb,
Bir az səni əfv edim.

Məzarının tozunu
Yusun axan göz yaşım.

Mərmər sığmaz köksünə,
Özüm olum baş daşın.

Möhtəşəm misralardır! Gülnarə İsrafilin çox-çox şeirləri təqvim xarakterli olsa da, yüksək obrazlılığı ilə seçilir. “Şəhidlər xiyabanı”, “Öldürdülər şairi”, “Ey şəhidim!”, “Suriya savaşına”, “Xocalı, yaralı canım”, “Müharibə”, “Ağdam” və digər bu tipli şeirlərlə yanaşı, “Boynumda bitən ağac”, “Yağış”, “Sus, ürəyim”, “Nöqtələr”, “Eh, qoca şəhər” kimi məcazlarla, frazeoloji birləşmələrlə zəngin poetik nümunələri qələmə alan Gülnarə İsrafil bir qadın şair kimi sözün hicabına bürünür, açıq-saçıq misralardan qaçır. İsmətini özünə hicab edən şair “qısaətək” yaltaqlardan ucada dayandığını yaxşı bilir:

Yaltaqlana bilmirəm,
Yediyim halal tikədi.

Yaltaqlanıb zər-ziba içində yaşamaqdansa, beş arşın ağ daşıyıb, kəfənində ömür sürməyə üstünlük verir.

Bu yazdıqlarım Gülnarə İsrafilin ilk kitabı olan “Torpaq adamlar” poetik toplusundan aldığım təəssüratdır. Lakin kitabda “bişməmiş”, “çiy” şeirlər də var. Bəzi şeirlərdə qafiyə tarazlığı pozulmuş, sözlər yerinə düz oturdulmamışdır. Əlbəttə, belə kiçik çatışmazlıqları şeirdən-şeirə kamilləşən Gülnarə İsrafil özü də yaxşı görür və ümid edirəm ki, gələcəkdə belə nöqsanlardan yaxa qurtara biləcək, daha tutarlı ifadələrə üz tutacaq.

Gülnarə xanımın çox-çox şeirləri var ki, təsvir imkanlarına görə fərqlənir. Onun “Sübh mavi gəlinlikdə” adlı bir şeiri var, şeirdə romantik həyat lövhəsi insan arzuları ilə eyniləşdirilir:

Göy qurşağı deyirlər
Arzular doğan yerə.

Gülnarə İsrafilə göy qurşağı kimi bütün əlvan çalarları olan şeirləri ilə oxucularının görüşünə gəlməyi arzulayıram.

HİSSLƏRİ TƏRPƏDƏN ŞEİRLƏR

Məryəm Əliyeva! Bu ad, bəlkə də, çoxlarına tanış deyil. Mən də onu həyatda şəxsən tanımıram. Bəlkə də, üz-üzə gəlmişik, hansısa ədəbi məclisdə bir yerdə olmuşuq, amma xatırlamıram… Üz-üzə gəlsək, tanımaram, bəlkə də! Amma Məryəmi sosial şəbəkədə çoxları tanıyır. Düşündürücü fikirləri, narahatedici şeirləri diqqət çəkir. Hekayə də yazır. Bir az da məhsuldar görünür, yəni qələm əlindən düşmür.

İnsanı tanımaq üçün onu dinləmək lazımdır. İnsanın səsi, sözü onun daxili aləmidir. Nə qədər ki, dinləməmisən, o insanı yaxşı tanımayacaqsan! Bu səs, bu söz həm də insanın daxili gözəlliyinin zahiri gözəlliyini tamamlayıb-tamamlamadığını bildirir. Buyurun, bu da Məryəmin daxili aləmi, iç dünyası, kimsənin görə bilmədiyi zənginliyi: “Elə qorxuram ki! Sevməkdən yox, itirməkdən… İtirmək qorxusunun nə demək olduğunu hiss etdim, o gündən bu günə çox qorxuram. Olur, qaranlıq bir otaqda boğulursan, nəfəsin çatmır, pəncərələri açırsan, işığı yandırırsan. Ancaq o sıxıntı keçmək bilmir, dəli kimi darıxırsan. İtirmək qorxusu odur elə! Hər tərəfin insan dolu, hər yer güllük-gülüstan! Di gəl ki, hiss edirsən çatışmır Nəsə. Bu çatışmayan Nəsə sənin ürəyinin qısılmasına, ruhunun ağrısına səbəb olur... İtirmək qorxusu odur elə! Hər tərəfdə onu görürsən, hər səsdə onu xatırlayırsan, hər gecəni onunla yatıb, hər sabahı onunla açırsan... İtirmək qorxusu odur elə! Desəm ki, acizəm... Əsla! Bu həyatda ölümdən də qorxmuram. Amma itirməkdən qorxuram. Mən Səni sevməkdən deyil, itirməkdən qorxuram!

Bu sətirlərdən sonra nəsə yazmaq adama çətin gəlir. Bu bir neçə sətirdə bir insanın narahat taleyi ifadə olunub və ifadə elə şəkildədir ki, dinləyənə də, oxuyana da sirayət edir, hisslərini tərpədir. Məryəm Əliyevanın rus dilində yazdığı şeirlər də oxşar hissləri canlandırır. Məryəm sözə qanad verməyi bacarır:

Хочу, чтобы для любой моей мечты,
Ты был всю жизнь единственный границей.
Хочу в той книжке, что читаешь ты,
Быть первый и последнею страницей.

Быть сильнею и оставаться слабой,
Хочу тебя своей любовью звать.
Ведь жить без тебя трудно,
Хочу тебе покоя не давать.

Хочу быть музыкой, чтоб ты привык,
И без меня не мог, прожить и часа.
Хочу, чтоб молча, там где слабый звук,
Могла я сердцем в сердце достучаться.

Məryəm sazla dediyini sözlə də ifadə edir. Cəmi bir cümlədə inam dolu bir dünya var. Bu sözləri deyən, yaxud yazan adamı sındırmaq, əslində, qarşındakını deyil, özünü sındırmaqdır: "Возможно я не та который ты мечтал, но я буду той, которую ты не забудешь, потому что я буду лучший только для тебя, а недостижимый ДЛЯ ВСЕХ!" Məryəmin şeirlərində oxucu üçün "standart", qəlib olmayan misralar da var. "Əlimi uzadım əlindən tutum, nə sən təkəlli get, nə mən təkəlli" deyən xanım şairin daxili dünyası bir qədər kədərlidir. Bunu onun bütün şeirlərindən sezmək olur:

Üstümə qırov düşür,
Örtməyə orman gəzirəm.
Deyəsən, qəlbim üşüyür,
Bükməyə yorğan gəzirəm.

Sarıyıb qəmlərimi,
İçməyə dərman gəzirəm.
Xəstəyəm, dərdlərimi
Bölməyə loğman gəzirəm.

Düzmüşəm arzuları
Silməyə fərman gəzirəm.
Yaş olan xəyalları
Sərməyə imkan gəzirəm...

Zamanım vaxtsız ötür,
Ötməyə dövran gəzirəm.
Taleyim bəxtsiz ölür,
Verməyə ehsan gəzirəm.

Hardan gəlir bu kədər? Bu ağrının kökü nədir? Məryəm niyə yazır ki, "məni yönsüz basdırın, Qiblə nəyimə gərək?" Nədən belə qərara gəlir Məryəm Əliyeva? Onun həyat tarixçəsində nə var ki, belə?

Məni gorsuz basdırın,
Kəfən nəyimə gərək?
Vətənsiz ölənim var,
Vətən nəyimə gərək?

Yaxşı deyirlər ki, hər kəs tam oxunmamış bir kitabdır. Ümumiyyətlə, kimsəni oxuyub başa çıxmaq mümkündürmü? Onda gəlin, Məryəmin həyat tarixçəsinin bir neçə səhifəsini varaqlayaq: "Uzun zamandır məni narahat edən suallara cavab verməyi qərara aldım. Mən Azərbaycanın Milli Qəhrəmanının qızıyam, atam ali təhsilli mühəndis olub, eyni zamanda tikinti idarəsinin müdiri vəzifəsində çalışıb. MƏKANI CƏNNƏT OLSUN! Anam kitabxanaçılıq fakültəsini bitirib və hazırda da çalışır. ALLAH QORUSUN! Kitablara marağım anamdan keçib, deyəsən. Babalarımdan biri ibtidai sinif müəllimi, o biri uzun illər kənd ərazi nümayəndəliyinin sədri olub, nənələrim isə evdar qadın... Allah hər birinə rəhmət eləsin. Üç qardaşın bir bacısıyam, ikisi məndən böyükdür, biri məndən kiçikdir. Kiçiyimiz rəhmətə gedib, Allah rəhmət eləsin. Böyüklərdən biri ali təhsilli mühəndis, digəri isə ali təhsilli həkimdir, hər ikisi də ixtisası üzrə çalışır. Özüm Bakı Dövlət Universitetinin biologiya fakültəsinin bakalavr və magistr səviyyələrini qırmızı diplomla bitirmişəm. 2008-ci ildə Moskvada aspiranturaya qəbul olmuşam, lakin qardaşımın qəfil vəfatı ilə bağlı geri dönmüşəm. O gündən təhsilə əlvida demişəm. Hazırda ixtisasım üzrə müəllimə işləyirəm. Şəxsi həyatım barəsində məlumat verməyi və foto paylaşmağı xoşlamıram. Mən hər zaman çalışıram ki, insanlara qarşı kübar yanaşıb, diqqətli olum, ələlxüsus, böyüklərə qarşı... Çünki aldığım tərbiyə başqa cür hərəkətə yol verməz, atamın çörəyi, anamın südü burnumdan gələr. Böyüklərim hər zaman başıma tacdır".

Bəli, adi bir həyat tarixçəsi deyil. Bu, özünə və başqalarına hörmət üzərində qurulmuş bir kimlikdir, tərcümeyi-haldır. Vaxtsız dünyasını dəyişmiş qardaşına yazdığı şeir isə, doğrudan, adamı kövrəldir:

Elə darıxmışam!
İllər nə tez keçdi, heç bilmədim ki.
Elə dünən sənə çay dəmləyirdim
öz əllərimlə.

Elə dünən ən sevdiyin köynəyi
ütüləyirdim
öz əllərimlə.
İllər nə tez keçdi, heç bilmədim ki.
Bu günsə… bu gün sən yoxsan.
Yoxluğun içində yerin görünür.
Mən qardaşsız qalmadım, amma sən
yoxsan,
Qardaşlar içində yerin görünür.
Bax, artıq çay dəmləmirəm.
Səndən sonra bir köynək də ütüləyə
bilmirəm,
səni xatırladır deyə.
Mən aynadan qaçıram,
deyirlər, xanımlar aynadan doymur heç
zaman,
mən doymuşam,
mən aynadan qaçıram,
səni xatırladır deyə...

Qardaş itkisi Məryəmin oxumaq, elm arxasınca düşmək arzularına son qoyub. Məryəm təkcə qardaşını itirməyib, o, arzularını, ideallarını itirib bu ölümlə… Çox-çox arzusu qəlbində ölüb qardaşı ilə bərabər! Məryəm nə deyir? Məryəm deyir ki, bir şamın işığı o qədər güclü ki, cazibəsinə çox pərvanə yığışar, amma yalnız biri özünü o işığın alovuna atar və alovun dilləri ilə qovuşar sonsuzluğa… Və yalnız həmin gün şam anlayar ki, pərvanənin bəzəklisi yox, canından çox sevəni ona gərək imiş… Pərvanə onun odunda yanıb kül olduqdan sonra! Və o anda istər ki, alovun dillərindən o pərvanəni alsın, lakin heyhat, külünü belə tapa bilməz".

Məryəm yenə nə deyir? Məryəm deyir ki, səni nə qədər çox sevdiyimi bilmək istəyirsən, üzünə çilənən YAĞIŞ damlasını tut! "Tuta bilmədiklərin sənin həsrətin, tuta bildiklərin sənə olan sevgimin göz yaşlarıdır. Diləyirəm ki, kirpiklərindən yanağına, yanağından ÜRƏYİNƏ TÖKÜLSÜN!"



Bəlkə də, buna görə söz Məryəmin qələmində o qədər oynayır, axırda şirin bir kalambura dönür:

Könül istər qonaq gələ könlünə,
Könlün ala, qonaq edə könlünə.
Anlayasan, könül varmı könlünə?
Sonra alıb ömrə dəva edəsən.

Dinləyəsən dərdi nədir könlünün,
Doğrusu nə, səhvi nədir könlünün.
Könlüm içrə yeri nədir könlünün,
Dərdin alıb dərdə dəva edəsən.

Qoymayasan başqa qəlbə yar ola,
Öncə sevə, sonra ona ar ola.
Elə bircə sənin üçün var ola,
Sən də ürəyinə dəva edəsən.

Ürəyə dəva edən məlhəm sözlər Məryəmin poetik dünyasından soraq verir. Qəlbinin sirlərini yalnız oxucusuna açan və dərdini, sevincini yalnız oxucusu ilə bölüşən bu xanım şairin söz dünyası adamı valeh edir. Amma, yeri gəlmişkən, bir neçə dostyana iradımı da bildirim. Bəzi şeirlərində texniki tələblər tam gözlənilmir, xüsusən, qafiyələrdə çatışmazlıqlar var. Şeirin texniki tələblərinə görə, kök qafiyələrdə, rədiflərdə həmahənglik, ritm gözlənilməlidir ki, sözün poetik yükü ekspressivlik yarada bilsin. Əlbəttə, mən şeirin sırf qafiyə üzərində qurulmasının tərəfdarı deyiləm. İntellektual şeirlərdə poetik yük sözün semantikasına keçirilir. Amma emosional şeirlərdə bu hal (ahəngdarlıq və qulaq ritmi) mütləq gözlənilməlidir.

Məryəmə uğur diləmək qalır. Daha böyük uğur qazanmaq üçünsə çağdaş poeziyanın fövqündə dayanmaq gərək, əks halda, fərqlənmək mümkün olmayacaq! Elə bilirəm, Məryəm Əliyeva və onun ədəbi fəaliyyəti fərqlənənlərdən olacaq.

Bilal ALARLI

doktor Elxana

Şəlalə GÖYTÜRK

Doktor,
məlumunuz olsun ki,
dərdlərimiz bizimlə həmyaşıddı.
Sizin həsrətlə gözlədiyiniz işıq
bizim gördüyümüz İŞİDdi.
Qəlb ağrısını bilməz hər adam,
hər adam içə sızmaz.
Yaradanda insaf olsa,
belə tale yazmaz.
Bizim alın yazımız
sizin xəttiniz kimi dolaşıq;
hər şey puç olsa belə,
uzaqlardan göz vurur
yanıb-sönən bir işıq...
Bu yazılanlar heç kimə sirr deyil,
nə də bu şeir deyil.
Onsuz da hər birimiz nə vaxtsa
şeir yazacaq qədər ağrımışıq,
ağlımız itənəcən içmişik,
xəyanətə qədər uduzmuşuq...
Onsuz da
həmişə aldadıblar,
biz də aldatmışıq,
vicdanımızı divara çırpıb
qanatmışıq...
Sonra ağrılarımızı bir yaxşı adama yükləyib
sərxoş axşamların birində onu da atmışıq,
başımızı bir əclafın çiyninə söykəyib
yatmışıq...
Doktor, bizim səfilliyimiz
ən böyük həqiqətdi,
ən azad təriqətdi,
ən yaxşı təsəllidi,
bu, hamıya bəllidi.
Bank kreditinə nə var ki,
hətta ömrümüz də kreditdi;
can ödəyirik yüksək faizlə,
qızımız ərə getsin deyə qırmızı cehizlə...
Nə isə, doktor,
salamat qalın,
ağrıları qəlbinizə yıxmayın,
qafanıza taxmayın,
bu sərxoş dünyada
ayıq olmaq çətindi...
Gəl ümid edək ki,
dünyanın bütün yağlı qoyunları
hasar dibində mürgüləyən
o ac, yiyəsiz itindi...

“XOŞCA QAL, OLACAQLAR SƏNSİZ OLSUN…”

(Emre Aydın)

İtirib hər şeyi,
buraxıb hər kəsi
gedərsən…
içində bir ovuc
göz yaşı,
bir udum qəhər…
Özün boyda
tənhalıq,
bir də
yabançı şəhər…
Veyil-veyil
dolaşarsan küçələri…

düşünərsən
bir ömürdən
uzun imiş
bu şəhərin gecələri…
Kimsəsizdir
bu adamlar,
bu evlər
sənintək…
Nə sən onlara lazımsan,
nə onlar sənə gərək…
Üşüyərsən,
üstünə yağış yağar,
qar yağar,
kiminsə isti əli
əllərini sığallar…
Diksinib ayılarsan,
bu nə yuxuydu belə?
Bəlkə, yuxu deyildi,
əlin istidi hələ…
Bəs kimin əməliydi
buz qəlbini əritdi?
Bu əl kimin əliydi,
bir anda gözdən itdi?
Kimdi səni axtaran
insanların içində?
Sən ki yoxsan mələk cildli
şeytanların içində?
Fikirdən dəli olarsan,
suallar verməz aman…
Özünlə tənha qalarsan
milyonların içində…
Sən dərdinə yüklənərsən,
içində böyüklənərsən,
gündən-günə təklənərsən
meydanların içində…
Hər kəs sirrinə qul olar,
günahlarına qurban…
Sən günahsız günahkarsan
qurbanların içində…
Gedərsən beynində tufan,
qəlbində həsrət acısı…
Nə uçmağa qanad olar,
nə açmağa dost qapısı…
Nəhəngsən,
meydanda təksən,
günəş də tutmaz kölgəni…
Sonda mənə gələcəksən,
bir gün tapacağam səni!

Natiq RƏSULZADƏ

QOLFSTRİM

Roman-kardioqramdan parça

Yansan, necə olarsan,
Tüstülənib mavi göyə
uçarsan?

Yel səni uçurduqca
quru kül olarsan?
Dünyada nə qalacaq
səndən?
Dərdin-sərin əlində
nəylə yada salacağıq səni?
Dünyaya niyə gəldin?
Kül altında nə vardı?
Bəlkə, küldən almaz törər,
cilasından şəfəq saçar yer altdan?

Tsiprian Norvida

Yox, bu, memuar deyil, iraq olsun, sadəcə, bir az oxşarlığı var. Mən bu "memuar" sözündən həmişə qorxmuşam, xüsusən son on ildə, çünki yazıçı üçün "memuar" sözü "yekun" anlamına gəlir, yekunlaşdırmağa gəlincə isə... həmişə "tezdir" demək istəyirsən. Materiallar yığılana qədər, toplanana qədər, baxırsan ki, gecikmisən, başın qarışıb, həddi keçmisən və səndən heç bir xatirə qalmayıb... Amma hər bir insanın, illah da ki, yaradıcı insanın həyatında elə bir şey var ki, onu geriyə baxmağa, götürqoy etməyə, keçmişini xatırlamağa, etdiyi saysızhesabsız səhvləri yada salmağa və bu səhvlərdən dərs almadığını, ömrünün bu yeni, daha uca dönəmində də eyni səhvlərə yol verdiyini anlamağa məcbur edir. Belə deyək: böyüyüb uşaq qəlibindən çıxmış səhvlər və uğursuzluqlar sadəcə cildini dəyişir. İstəsək də, istəməsək də, keçmiş bizimlə addımlayır, yaddaşımızı döyəcləyir, "buradayam" deyib, unudulmaq istəmir, ürəyimizi titrədir, günügündən mənasızlaşan və təşviş doğuran dünyadan baş çıxarmağımıza çox vaxt kömək edir.

Kim ki həyatını ürək dolusu yaşaya bilmir, keçmişə baş vurur, çox zaman onu bəzəyibdüzəyir, ideallaşdırır, çəhrayıya boyamağa çalışır. İllər ötdükcə bəzən uydurduqlarını çoxdan baş vermiş gerçək hadisələrdən ayırd edə bilmir, çox halda bu durum işə yarayır. Lakin eyni zamanda keçmişini də unutmamalısan, çünki irəliləmək üçün hissə-hissə də olsa keçmişindəki səhvlərin, etməli olub, etmədiklərinin ağırlığından qurtulmalısan.

Keçmişimizi dibinə qədər görə bilirik, ona görə insan ömrü nə qədər uzun olsa da, bizə bir an qədər qısa gəlir – hər şeyi dünən olmuş kimi xatırlayırıq. Lakin bir dəqiqə əvvəlimizi görmək imkanımız yoxdur. Bəlkə, bu əskikliyimizi kompensasiya edərək, Allah bizə keçmişimizi, ən uzaq keçmişimizi unutmamaq qabiliyyəti bəxş edib? Yəni geriyə baxın, günahlarınızı, günah sayılan düşüncələrinizi unutmayın, ömrünüzün qalan hissəsində günahlarınızı təkrarlamayın, düzgün yaşayın, o zaman sizi irəliyə Mən aparacağam. Artıq çox əvvəllər bir

dəfə yaşadığımız duyğuları, qorxunu, hissiyyatı xatırlatmaq, oyatmaq, diriltmək...

Ömrüm boyu mənimlə qalan ən işıqlı uşaqlıq təəssüratlarımı pasifistik hesab etmək olmaz, burada aqressivlik üstündür, mən oğlan uşaqlarının dava-dalaşlarından bezmiş küçədə böyümüşəm, bədənimdəki qançırlar, tuluqlar artıq yeddi-səkkiz yaşımda anamı narahat etmirdi, məhəlləmizdəki başqa analar da eləcə. Biz şəhərin kasıbyana hissəsində yaşayırdıq. Əslində, o vaxtlar varlılar yox idi, "varlı" sözü, az qala təhqir sayılırdı, "burjuy" sözünü isə biz – oğlanlar söyüş yerinə işlədirdik. Kasıb, az təminatlı ailələrin uşaqlarının qorxulu "burjuy" anlamına münasibəti eyni idi, hər halda antoqonist çəkişmələr, dava-dalaş üçün səbəb tapılırdı, kasıblıq qəzəb doğurur və səni həyata qəddar, müqavimətə hazır olaraq atırdı.

Bütün bunlara baxmayaraq, dar günə bir şey ata bilirdilər, ölkədə əmanət kassaları vardı (banklarla qarışdırmayın), xalq getdikcə ağıllanırdı, gəlirini-çıxarını düzgün qurmağı öyrənirdi, artıq proletar mənşəyilə lovğalanmır və harada gəldi bunu gözə soxmaqdan çəkinir, tabutu xatırladan nahamar dolabdan asılmış bir kostyumu və iki nimdaş köynəyilə qürrələnmirdi. Dünyanın özəl və yeganə "dürüst" ölkəsinin ümumi kollektivləşmə təbliğatı ilə keyləşdirilmiş, əslində, neandertal insanlardan bu yana bəşər övladının canında olan xüsusi mülkiyyətçilik hissi çoxlarının içində dit vurmağa başlamışdı və artıq mürgüləmək istəmirdi. Tapırdılar, alırdılar, amma ehtiyatı da əldən vermirdilər, riskli "burjuy" kateqoriyasına düşməmək üçün həddi aşmırdılar, bunun axırı yaxşı qurtarmazdı. Gözdən iti olanlar hər kəsə, hər şeyə ciddi nəzarət edirdilər.

Hələ məktəbə getməmişdən fiqurlar düzəltməyi sevirdim. Əvvəlcə bütün dəftərxana malları dükanlarında satılan plastilin işlədirdim. Göstəricilərim yaxşılaşdıqca gilə, gipsə keçdim. Anamın "dayı" dediyim əmisi oğlu şəhərimizdə tanınmış rəssamdı, o, mənim işlərimlə maraqlanır, məni həvəsləndirir, valideynlərimə işıqlı gələcəyimin müjdəsini verirdi. Valideynlərim də peşəkar rəssamın sözlərinə inanır, məndən bir şey çıxacağına, əsl heykəltəraş olacağıma ümidlənirdilər. Məşhur rəssamın sözləri onların ürəyinə yağ kimi yayılırdı, çünki sadə insanlarla müqayisədə yaradıcı şəxslərin, yazıçıların, rəssamların, bəstəkarların daha təminatlı yaşadıqlarını görürdülər. Birdən-birə məndə də xüsusi bir qabiliyyətin aşkara çıxması onları çox sevindirirdi və məni hər cür dəstəkləyirdilər. O vaxtlar Pioner evlərində müxtəlif dərnəklərin fəaliyyəti genişləndirilirdi, uşaqlarında az-çox qabiliyyət görən valideynlər övladlarını buraya gətirirdilər. Uşaqlarla müəllimlər məşğul olur, kimini şahmatçı, kimini rəssam etməyə çalışırdılar.

Məktəb yaşına çatmamış uşaqları Pioner evlərinə qəbul etmirdilər, amma dayımın sözünü yerə salmadılar, məni dərnəyə qəbul etdilər. Bəxtimdən rəsm dərnəyinin rəhbəri gənc rəssam dayımın tələbəsi çıxdı. Burada mən rəsm çəkməyi və heykəltəraşlığı (heykəltəraşlığa nisbətən, rəssamlıq məndə zəif alınırdı) öyrənməyə başladım. Məni dərnəyə atam aparıb-gətirirdi. Onun şəhadət barmağından tutub addımlayırdım, arada çevrilib altdan-yuxarı atama baxırdım, hiss edirdim ki, atam mənimlə fəxr edir, elə bil qeyri-adi qabiliyyətli, vunderkind bir uşaqdım. Bundan xoşallanırdım, bir tərəfdən də narahat olurdum ki, birdən atamın etimadını doğrulda bilmərəm. Atamın mənimlə fəxr etməsi uşaq çiyinlərimə məsuliyyət qoyurdu. Elə bilirdim ki, nə olursa-olsun, dəridən-qabıqdan çıxıb, atamın ümidlərini doğrultmalıyam ki, o mənimlə həmişə fəxr etsin. Bu, mənim azadlığımı, ağlıma gələn hər şeyi yerinə yetirmək istəyimi, xəyalpərəstliyimi və tənbəlliyimi, bütün tənbəllərə xas gizli həvəsimi – heç bir şey üçün məsuliyyət daşımamaq niyyətimi məhdudlaşdırırdı. Məsuliyyətdən qorxurdum, elə indi də qorxuram.

Kiçik həyətli evdə bir neçə ailə yaşayırdı. İkinci mərtəbəyə qalxan pilləkənin altında istifadəsiz, xudmani bir yer vardı. Bu yer elə bil dil açıb özü balaca, ambisiyası böyük heykəltəraşa "gəl-gəl" deyirdi, əsl emalatxanalıqdı. Bacarığımın sorağını alan qonşular əvvəlcə əmin oldular ki, mənim işlərim həqiqətən orijinala "bənzəyir" (mən müxtəlif heyvan fiqurları düzəldirdim və o vaxt yaradıcılığımın zirvəsi – süvarisilə böyrü üstə düşmüş yaralı at fiquru idi), bundan sonra mənə kömək etməyə başladılar: kimsə fiqurları yığmaq üçün yonulmamış taxtadan qayrılmış sınıq-salxaq stol tapıb gətirdi, kimsə gil yoğurmaq üçün işlətmədiyi tasından keçdi... Kiçik heykəltəraşın yetişməsi üçün atam da əlindən gələni edirdi: o, məxsusi mənim

üçün şəhər kənarından yumşaq, açıq rəngli, keyfiyyətli gil tapıb gətirdi. Mən işə başladım. İşimdən aldığım zövqü sözlə ifadə etmək mümkün deyildi. Bu iş həm də ona görə cəlbedici idi ki, mən əl işimlə (bunu hələlik başqa cür adlandırmaq olmazdı) daim böyüklərin diqqət mərkəzində idim. Həyətə girib-çıxan qonşular, xüsusən də qonşu qadınlar ayaq saxlayır, əl işlərimə baxır, heyranlıqlarını gizlətmir, ağızlarını marçıldadır, məni tərifləyirdilər.

Lakin yaşıdlarım, məndən böyük oğlanlar azyaşlının yaradıcılığına barmaqarası baxırdılar və hər fürsətdə məni ələ salırdılar. Küçəmizin sakinləri sakit adamlardı, uşaqlardan heç birinin atası və ya anası nə rəssam idi, nə də incəsənət xadimi, mənə çəp-çəp, dəvə nalbəndə baxan kimi baxmağa başlamışdılar, elə bilirdilər, bu işi seçilmək üçün, başqalarından fərqlənmək üçün edirəm.

Bir dəfə Puşkinin "Ruslan və Lüdmila" nağılından tilsimlənmiş bahadırın fiqurunu düzəltmişdim. Anam kitabdan mənə nağılı oxumuş, Puşkinin nağıllarına çəkilmiş illüstrasiyaları göstərmişdi. Torpaqdan başı çıxan bahadırın rəngli şəkli xoşuma gəlmişdi, onun mərhəmətli və kədərli üzü vardı. Anam şeirləri, nağılları oxuyub, sonra adəti üzrə kitabı şappıldadıb bağlayırdı. Lap kiçik yaşlarımda onun bu hərəkətindən diksinirdim, qorxurdum ki, səliqə ilə cərgələnmiş söz və cümlələr qarışar, anam növbəti dəfə kitabı açanda sətirlərin yeri dəyişmiş olar və gözəlliyi itər.

Bacardığım qədər fikirlərimi ona anlatdım, o, sözlərimi ciddi qarşıladı.

– Sən qorxma, sözlər möhkəm yazılıb və kitaba möhkəm pərçimlənib, qarışmaz.

Beləcə, nağıldakı bahadırın heykəlciyini düzəltdim, ürəklə girişdim bu işə, çox əlləşdim, lap peşəkarlar kimi, düzətdiyim ürəyimə yatmayınca bir neçə dəfə əzdim, yenidən işlədim, nəhayət, razı qaldım, indi işimi böyüklərə, xüsusən də, rəssam dayıma göstərə bilərdim. Onun rəyi mənim üçün çox önəmliydi. Dayım mənə məsləhətlər verirdi, mənim üçün şümşad ağacından heykəltəraş qələmi almış, istifadə qaydalarını da öyrətmişdi. Hə, işim hazır idi, əl gəzdiriləcək bir şey qalmamışdı, rahatlaşmışdım artıq: budur dəbilqəli baş rahatlığını pozmuş dikbaş süvarini toz kimi üfürmək üçün yanaqlarını şişirdib, qaşları çatılıb, gözlərindən hirs yağır, saçları torpağın üzərinə səpələnib, lap şəkildəki kimi, bir sözlə, baş elə bil dil açıb danışacaqdı. Dayım gəldi, işimə baxıb tərifləndi, o, məni üzümə tərifləməzdi, fikirlərini anama söyləyər və gələcəkdə əsl heykəltəraş olacağımı deyərdi. Bu dəfə dayım məni nəinki tərifləndi, hətta əl işimi odda bişirmək üçün götürdü və tezliklə qaytaracağını vəd etdi. Belə bir şərəfə layiq görüləcəyimi gözləmirdim. Tanınmış rəssam mənə – altı yaşlı oğlana, mənim fikrimcə, böyük yaxşılıq etmişdi. Sevincimdən uçurdum, göyün yeddinci qatındaydım, evdən, emalatxanamın olduğu həyətdən çıxmaq istəmirdim. Pişik balası süd qabının başına dolanan kimi, əl işlərimi düzdüyüm masanın ətrafında dövrə vurur, fəxrlə sənətimə baxırdım. Küçədə uşaqlarla oynamağa heç həvəsim yox idi, sevincdən köksümə sığmayan ürəyimdə kiçik xoşbəxtliyimi götürqoy edir, onu heç kimlə bölmək, heykəltəraşlıqdan başı çıxmayan insanlara sərf edib, qanımı qaraltmaq istəmirdim.

Bütün varlığımla sənətimə dalmışdım, bir neçə gecə gözümə yuxu da getmədi. Bəxtimdən gecə bürküsü valideynlərimin daş kimi yuxusuna zərər verməmişdi və mən də bu yay gecələrindən yararlanıb həyətə çıxır, dəzgahı əvəz edən iş masamın başında durub, yanaqlarını şişirdərək hirslə mənə baxan bahadırı uzun-uzadı seyr edirdim, o elə qəzəblə baxırdı ki, elə bil onu mən nizələmişdim. Heykəlin tamaşaçını təqib edən baxışları təsadüfən alınmışdı, mən mat qalmışdım, bunun sirrini anlamağa çalışırdım, bu, mənim üçün gözbağlıca idi, peşəkar sehrbazın ardınca uşağın təsadüfən göstərdiyi gözbağlıcaydı bu. Bir sözlə, alınmış işimə məftun olmuşdum, ondan sonra xeyli vaxt gilə əl vurmadım, "yarada" bilmirdim, yəqin, bundan yaxşısını yarada bilməyəcəyimdən qorxurdum.

Rəssam dayımın tənqidindən salamat çıxmış şişyanaqlı gil baş və başqa əl işlərim pilləkənin altındakı sınıq-salxaq masada dururdu. Pilləkənin altındakı masaya düzülmüş fiqurlar artıq qonşuları cəlb etmirdi, yanından saymazyana keçib gedirdilər. Kiçik həyətdə həyat öz axarıyla davam edirdi, mənim uşaqlığım da eləcə. Məni dəcəllərin cərgəsindən müvəqqəti uzaqlaşdırmış həvəsimdən öncəki kimi küçədə atılıb-düşürdüm, başım səsli-küylü oyunlara, dava-dalaşa, küsüb-barışmağa qarışdı. İlin

başqa fəsillərindən fərqli olaraq, altı yaşlı oğlan üçün yay fəsli tez ötüb keçir. Artıq məktəb zamanı gəlmişdi.

Bir gün məktəbdən qayıdanda qapısı yalnız gecələr bağlanan həyətimizdə daim çəkişdiyim qarı düşmənimi gördüm. O, məndən bir yaş böyük idi, amma nədənsə məktəbə getmirdi. Deyirdilər ki, onun anası ögeydir, uşağın bir istəyinə "yox" demirmiş və oğlanı əməlli-başlı ərköyün edibmiş. Qadın göstərmək istəyirdi ki, uşağa bir neçə il əvvəl vəfat etmiş anasından pis baxmır. Başqa uşaqlar bağ evlərində, qohumlarının yanında dincəldiyi, dənizdə çimdiyi isti yay günlərində mən qan-tər içində əlləşib fiqurlar düzəldib yığdığım masanın yanında onu görəndə dalağım sancdı. Məni görcək oğlanın üzündən kinayəli bir təbəssüm keçdi, əlini arxasında gizlətdi və yanımdan sivişib küçəyə qaçdı. Nə baş verdiyini o dəqiqə anlamasam da, içimdən bir təlaş keçdi, oğlanın arxasınca qaçdım, amma gec idi. O çömələib rişxəndlə gülümsəyərək, ən yaxşı əl işimlə – bahadırın dəbilqəli başıyla səkini döyəcləyirdi, kövrək gil qəlpələri ətrafa səpələnirdi. Ağlım başımdan çıxdı, "qan beynimə vurdu" ifadəsinin nə anlama gəldiyini ilk dəfə təcrübə etdim, dəli kimi bağırıb oğlanın üstünə atıldım. Oğlan qorxub, çapılmış fiquru üstümə ataraq götürüldü. Qəzəbdən alışıb-yanırdım. İnsanın əlindən gələni sərf etdiyi, canla-başla gördüyü işin nə qədər qiymətli olduğunu ilk dəfə hiss etdim. İnsanın əziyyət çəkdiyi, arayıb-axtardığı, bütün təxəyyülünü səfərbər etdiyi iş və qısa ömürdə qazandığı ilk uğur nə şirinmiş... Gözlərim yaşla dolmuşdu, yaxşı görməsəm də, ayağımı saxlamadım, onu haqlayıb, harasından yapışdım, bilmirəm, deyəsən, qaçağan oğrunun ayağıydı, dişlərimi o anda ən nifrət etdiyim varlığın murdar ayağına ilişdirdim. Qurbanını cəhənginə almış yırtıcı kimi oğlanın ayağını bədənindən qoparmağa hazırdım. Onun çığırtısına qonşular tökülüb gəldilər. Bir tək mənim anam burada yoxdu, o heç vaxt bizim bu Allahın ümidinə qalmış küçəmizdə səhərdən axşamacan arası kəsilməyən uşaq münaqişələrinə baş qoşmazdı. Əvəzində mənim qatı düşmənimin ögey anası bu məsələdə hamının əlinə çöp verərdi. Nifrətdən gözlərim elə qızmışdı ki, onu öldürməsəydim, əl çəkməyəcəkdim. Ard-arda üzümdə partlayan şapalaqlardan ayıldım, yaşlı bir qadın üzərimə əyilib məni şilləyərək, ögey oğlunu nə qədər sevdiyini qonşulara göstərməyə çalışırdı. Bir az özümə gəldim və nəhayət, kişilər oğlanın ayağını dişlərimdən qopara bildilər. Məni ağrıdan ulayan oğlandan uzaqlaşdırdılar.

Bu dəfə qalmaqal xeyli böyüdü. Qonşu oğlanın ayağını şalvarın üstündən qanı çıxanacan dişləmişdim. Oğlanın analığı da şillələməklə kifayətlənməyib, anamın üstünə şikayətə gəldi. Elə qışqırırdı ki, elə bil ətini kəsirdilər, arada ümumişlək sözlərə küçə söyüşləri də qoşub, tərbiyəsinin səviyyəsini və həyat tərzini nümayiş etdirirdi. Bununla belə, mən cəzalandırıldım. Anam məni həmişə cəzalandırırdı, heç vaxt təfərrüata varmayıb, ilk növbədə məni suçlu bilirdi. Əlbəttə, çox inciyirdim. Amma anamın bir dəlili vardı, bu dəfə yerinə düşməsə də, həmişə olduğu kimi, eyni sözü işlətdi: "Beləsindən uzaq durmaq lazım idi". Deyə bilmədim ki, mən ondan deyil, o, məndən uzaq durmalıydı, mən yalnız canımı qoyduğum, zəhmət çəkdiyim və fəxr etdiyim işimi qoruyurdum. O, mənim zəhmətimi yerə vurdu və buna görə də mən kənarda dayanıb baxa bilməzdim, əksinə, o qədər yaxın gəlməliydim ki, ondan intiqam ala bilim, yoxsa mənim kiçik ürəyim haqsızlıqdan çatlaya bilərdi.

Başıma belə bir iş ilk dəfə gəlirdi. Sonralar anladım ki, başı çıxmayan, bədxah insanlar, naşılar sənin əsl ilhamın diktəsilə yaranmış işini məhv edirlərsə, bununla sənin canının, ürəyinin bir parçasını məhv edirlər. Bunu boş buraxmaq olmaz, buna qarşı mübarizə aparmaq lazımdır.

İndi – yaşımın üstünə xeyli yaş gəldikdən sonra, uşaqlıq xatirələri daha aydın, daha yaxın olduqca, mən şüurlu həyatımın hesabını o illərdən – yaradıcının (bu yüksək sözü işlətməkdən çəkinmirəm), sənətkarın yaratdığı dağıdılarkən, üzərindən xətt çəkilərkən, məhv edilərkən haqsızlığın çəkilməz acısını hələ aydın, ağılla deyil, ürəklə çəkdiyi vaxtlardan götürürəm. Bu, ölümə bərabər bir şeydi.

Yeddi yaşım tamam oldu.

Mən heykəltəraş olmadım. İndi fikirləşirəm ki, belə uğurla başladığım bu yapma sənətini davam etdirməməyimin bir səbəbi də bu qədər əmək və can qoyduğum işin bu qədər kövrək, bu qədər dayanıqsız olmasıydı, bir dəqiqədə

sınıb-tökülüb yox ola bilər. Mən heykəltəraş olmadım, düşünmürəm ki, yazıçılıq ondan əskik sənətdir, hamımız Allahın obrazını yaratmağa, həqiqəti tapmağa çalışırıq; kimi sözlərlə, kimi gildən istifadə edərək, kimi rənglərlə...

Allah kainatı yaratdığı kimi, yazıçı da öz kainatını yaradır, bu kainatın kiçik Yaradanı olur, qaranlığı işıqdan, suyu qurudan, xeyiri şərdən ayıraraq, özünəbənzər surətlər yaradır, onlara can verir, hərəkətləndirir, məhəbbət və nifrət aşılayır, danışdırır, inandırır. Ona görə də yaradıcı insan işləyərkən, bir şey yaratmağa çalışarkən Allaha zamanla yaddaşından və ürəyindən silinib gedən sözləri təkrarlayaraq ibadət edən dindardan daha yaxın olur.

Ötən əsrin ortaları. O illərin uşaqları zəif inkişaf edirdilər. O vaxtlar valideynlər yeddi yaşlı uşaqlarından vunderkind yetişdirmək düşüncəsindən çox uzaqdılar. Yadımdadır, birinci sinifdə oxuyarkən biz yarım il hərflərin yazılışını öyrənirdik, müxtəlif sadə fiqurlar, xətlər və s. öyrənirdik ki, bu, uşaqların sürətli intellektual inkişafına çox yardım etməsə də, uşaqlığından mümkün qədər zövq almasına imkan verirdi. Bu ümumi axında günlərin bir günü gördüm ki, nağıllar düzüb-qoşuram, nələrsə uydururam. Mən bu uydurduqlarımı xalq nağılları adıyla həvəslə sinif yoldaşlarıma danışırdım, bir də xəbər tutdum ki, bütün məktəb bu sensasiyadan danışır: "Bax, nağıl qoşan bu oğlandır, birinci sinifdə oxuyur. Əla fantaziyası var!" Mən bir növ məktəbin nailiyyəti sayılırdım. Hamı çevrilib mənə baxır, nə cür yaxınlaşacaqlarını bilmirdilər, bəzən sataşırdılar, bu da dərhal dalaşmaya keçirdi, bəzən də belə birtəhər baxırdılar mənə. Hər iki hal məni sinif yoldaşlarımdan uzaqlaşdırırdı.

Daha qəliz şeylər uydurmaq istəyirdim, yoldaşlarımın ağlı kəsməsin ki, sonra mən fəxrlə gəzib, hələ mənim üçün anlaşılmaz olan bir hissin (bax siz anlamırsınız, o qədər böyüməmisiniz, mən isə fikirləşmişəm) gizlicə kefini çəkə bilim, yoldaşlarımdan daha çox uzaqlaşmaq, bir növ qisas almaq istəyirdim. Bu qisas düşüncəsi ürəyimdə acı iz buraxır, mən də lap dərinə gedib ağlıma gələni ağıllı və ciddi görkəmlə yaşıdlarıma sırıyıb, onları çaşbaş salırdım. Bəziləri çaşqınlıqla məndən uzaqlaşır, kimi də "gopa basdığım" üçün əlini dinc saxlamırdı, hər halda kütlənin içərisindən bir nəfər ağıllı çıxır.

Mən tək qaldım və getdikcə özümə qapandım. Təsəvvürümdə bütün uşaq oyunlarını müəyyən bir vaxt çərçivəsində deyil, zamansızlıqda oynayırdım.

Heykəl yapmağı atmışdım, bu işdən getdikcə soyudum və həvəsim keçib getdi. Yeni "qabiliyyətim"ə daldığımdan rəssam dayımın çin olmamış uzaqgörənliyi uzun müddət vicdanımı incitsə də, itirdiyim "istedad"ın dərdini çəkmirdim.

Amma bu peşənin kölgəsi hələ bir müddət məni izlədi, mənim üzümdən deyil və ona görə yox ki, bu işə həvəsim daha güclüydü. Bizim küçədə, qonşu binanın birinci mərtəbəsində pəncərələri küçəyə baxan mənzildə bir qız yaşayırdı. Mən o tərəflərdə çox olurdum. Qız bizim məktəbdə məndən iki sinif yuxarı oxuyurdu. Mənim nəzərimdə o hamıdan gözəl idi: səliqəsi heç pozulmayan gur sarı saçları, mavi gözləri vardı, üzünün cizgiləri elə bil qələmlə çəkilmişdi. Ondan çox xoşum gəlirdi. O da heykəltəraşlıqla məşğul olurdu, bir müddət məşğul olduğum Pioner evində heykəltəraşlıq və rəssamlıq öyrənirdi.

Arzularının qanadlarında uçan yeddi yaşlı oğlan necə aşiq ola bilərsə, mən də o qıza eləcə vuruldum. Məktəbdəki gözəl qızların böyük əksəriyyəti əsmərdi və mənə elə gəlirdi ki, məhz əksəriyyət sıxıcıydı, zahirən əksəriyyətdən seçilən bu rus qızı heç kimə bənzəmirdi, sanki hamıdan kənarlaşdırılmışdı, tənhaydı, eynən mənim kimi. Civildəşən qızların dəstəsinə uymurdu. Amma bu yenə də mənim o vaxt da, çox sonralar da normal yaşamağıma, həyatı olduğu kimi qəbul etməyimə mane olan intəhasız təxəyyülümün məhsulu idi. Rus və digər millətdən olan uşaqlar şəhərimizdə olduğu kimi, məktəbimizdə də çox idi. Amma mən istəyirdim, çox istəyirdim ki, o özünü yalqız hiss etsin və özündən iki yaş balaca oğlanın təsəllisinə ehtiyac duysun. Bu elə fantastika idi, çünki üçüncü sinif şagirdləri bizə tərəf heç baxmırdılar da, xüsusən də qızlar. İki yaş fərq bir uçurum kimi araya girmişdi. Bir şey də vardı, mən onu hamıdan kənar, tənha görmək istəyirdim, amma bu xəyallarım da bir göz qırpımında çilik-çilik oldu. O özünün tam əksi olan sinif yoldaşıyla canbirqəlb rəfiqə idi. Rəfiqəsi qarabuğdayı, çirkin qızdı. Çox vaxt evə birgə gedirdilər. Dərsdən sonra bizim küçəyə baxan

evlərinin həndəvərində fırlanırdım. Rəfiqələr pəncərənin qarşısında oturub, plastilindən nəsə düzəldirdilər. Mən ağzımı açıb sevdiyim qızın hər bir hərəkətini izləyirdim: hörüyünü kürəyinə atır, plastilinə bulaşmış əllərinin arxasıyla burnunu qaşıyır, başını əyib nəsə gülməli bir şey danışır – yüz faiz məndən danışır – sonra rəfiqəsinə gülümsəyir. Mən pəncərənin iki addımlığında dayanmışam, qızın rəfiqəsi mənə elə ikrahla baxır ki, elə bil mikroskop altından həşərata baxır. Baxıb-baxıb qəhqəhə çəkirlər. Amma mən yenə də xoşbəxtdim, çünki mən onu görə bilirdim, onun hərəkətlərini, təbəssümünü seyr edə bilirdim və sonra bunları uzun-uzun xəyalımda canlandırırdım. Onlar inadla mənə baxanda mən gözlərimi çəkirdim, hiss edəndə ki, burada olduğumu unudublar, yenidən qonşu qızı gözlərimlə yeyirdim. Tək qalanda hətta qızın bəzi hərəkətlərini təqlid edirdim, o sanki canıma hopurdu və mən bundan anlaşılmaz bir zövq alırdım.

Bir dəfə yenə beləcə dayanıb onları, daha çox onu – sevgi obyektimi baxışlarımla təqib edərkən, qızlar pıçıldaşıb birdən başlarını pəncərədən çıxardılar və mənim mavi gözlü qonşum məni səslədi:

– Buraya gəl, ay oğlan, qalx yuxarıya!

Əvvəl heç nə anlamadım, qulaqlarıma inanmadım. Yəni o məni çağırırdı, yəni o mənə müraciət edirdi? Mən yan-yörəmə baxdım ki, görüm hansı bəxtəvəri çağırır.

– Sən ee, sən! – Barmağıyla məni göstərdi ki, məni çağırdığına əmin olum.

Boğazım qurudu, heç nə deyə bilmədim. Amma bəbə kimi görünməmək üçün nəsə etməliydim. Mən utancaqlığıma güc gəlib, ayaqlarımı sürüyərək, pişik sidiyi iylənən kiçik bloka girdim. İki pilləni ayağım dolaşa-dolaşa addayıb, sevdiyim qızın qapısına yetişdim. Qapı açıqdı, qız kandarda məni gözləyirdi. Qız teatral bir görkəmlə kralı qarşılayırmış kimi bir jestlə, açıq-aydın rişxəndlə məni içəriyə dəvət edib, otağın o biri başındakı pəncərəni göstərdi – pəncərənin qabağına plastilin fiqurlar düzülmüşdü.

– Deyəsən, sən də yapma dərnəyinə gedirdin, – deyə soruşdu.

Başımı yelləməklə təsdiqlədim.

– Məgər belə cıqqılıları yazırlar dərnəyə? – Qarabuğdayı rəfiqə də sual verdi.

Yenə başımı yellədim.

– Hə, necədi? İşlərimiz xoşuna gəlir? – Qız soruşdu.

Başımı tərpətdim.

Rəfiqəsi qıza baxdı:

– O laldı?

Qeyri-ixtiyari başımı yellədim. Qızlar gülüşdülər.

Rəfiqə dedi:

– İndi sənin heykəlini düzəldəcəyik. Yaraşıqlı başını əy.

Başımı əydim.

Qız sözgəlişi demirdi, mənim başım həqiqətən yaraşıqlıydı, çünki mən bərbərxanaya getməyi xoşlamırdım. Atam məni bərbərxanaya aparanda qiyamət qopurdu. Mümkün qədər az qalmaqal olsun deyə, atam məni başqırxdıya gec-gec aparırdı, yaşıdlarımdan fərqli olaraq, saçlarım uzanır və mən məktəbli kimi görünmürdüm ki, bu da məni sinif yoldaşlarımın dəstəsindən ayırırdı. Saçlarım çox gözəldi, mən saçlarımla qürrələnirdim, tez-tez başımı yana atıb saçlarımı dalğalandırırdım. Hətta məktəbimizin yaşlı qadın direktoru da bir gün uzun saçlarıma irad tutdu, amma yaşıma uyğun gəlməyən gur tellərimi bir xeyli süzüb dərinə getmədi və məni rahat buraxdı.

– Əy görüm başını, kəkilli, – qonşunun rəfiqəsi əmr etdi, – utanma.

Elə o dəqiqə əlinin hərarətilə isinmiş plastilini saçlarıma yapışdırdı. Onlar növbə ilə plastilini saçlarıma yapışdırdılar, mən isə dinməzcə sevdiyim qıza, onun gözəl, zərif əllərinə, arada altdan-altdan məni süzən gülümsər gözlərinə baxırdım. Plastilindən yüngül kerosin iyi gəlirdi, bu iyə alışmışdıq, o illərdə məhəlləmizin tinində kerosin dükanı vardı, analarımız, demək olar ki, hər gün dükandan kerosin alıb gətirir, yemək bişirdikləri pilətəyə tökürdülər. Amma mənə elə gəlirdi ki, başımdakı plastilindən əvvəl onun əllərinin, incə, nazik barmaqlarının qoxusu gəlir. Özümü çox asanlıqla aldadırdım, axı sevgi hər zaman və hər yaşda görmək istədiyini görür, eşitmək istədiyini eşidir... İndi deyə bilərəm ki, onun yaşına görə iri, kobud əlləri vardı: əllərini proletar atasından və ictimai iaşə yeməkxanasında işləyən anasından almışdı, lakin o vaxt mənə pəri qız kimi görünürdü. Pərtlikdən ağlamaq dərəcəsindəydim, ancaq müqavimət göstərmirdim, fikir-

ləşirdim ki, qıza sevinc bəxş edirəm, başıma plastilin yaxmaq nədir ki, istəsə, bu balaca canımı verərdim.

Məni böyük qalmaqal gözləyirdi. Saçlarımdakı plastilini təmizləmək asan olmadı, ona görə də bu əziyyətli işə anam qarışdı. Anamın verdiyi işgəncə (dalbadal başıma endirdiyi qapazlar) və məni dərsdən sonra bir həftə həyətə buraxmayacağıyla təhdid edib, başıma açılan oyunun təqsirkarının adını öyrənmək cəhdi boşa çıxdı. Ağrıdan, iztirabdan ağlayırdım, amma möhkəm dayanmışdım. Mən inadla və axmaqcasına təkrar edirdim ki, bu işi özüm etmişəm, halbuki heç bir normal insan buna inanmazdı.

Anam saçlarımın öhdəsindən gələ bilmədi, plastilinli saçlarım ip-ip olmuşdu. İşdən qayıdan atam çox götür-qoy etmədi, məni qabağına qatıb düz bərbərxanaya gətirdi. Bərbər də çox fikirləşib vaxt itirmədi, saçlarımı dibindən qırxdı, hərçənd küçəmizdəki oğlanların keçəlləşdikləri vaxta – yaya hələ çox vardı. İndi mən yenə hamı kimi deyildim, amma qürrələnəcək bir şeyim yoxdu. Qızların başıma gətirdikləri plastilin qəziyyəsindən məktəbdə xəbər tutmuşdular (yəqin ki, mavi gözlü qonşumun qarayanız rəfiqəsi canfəşanlıq etmişdi). Xeyli vaxt məni qəddarcasına ələ saldılar. Məni dolayanlarla savaşırdım, amma başa düşmürdüm ki, mənə bu da azdır, çünki o vaxt özümü gicbəsər kimi aparmışdım. Bütün bunlara baxmayaraq, hisslərim hələ soyumamışdı, bu əhvalatdan sonra hələ bir müddət pəncərənin önündə plastilindən fiqurlar düzəldən qızı sevməkdəydim. Onu parça-parça yuxuda görürdüm: plastilin yoğuran əllərini, barmaqlarını, rişxəndli baxışlarını, gözəl saçlarının qıvrımlarını – ah, mənim məhv olmuş saçlarım. Mən tez aşiq olurdum, ünsiyyətcil deyildim, qaradinməzdim, hələm-hələm söhbətə girişməzdim. Bir tək nağıllar uydurub, bunu həqiqi nağıl yerinə sinif yoldaşlarıma sırıyanda dilim açılırdı. Lakin gələcəkdə bu uydurmalar həsrətlə gözlədiyi məcrasına düşəcək, əvvəlki kimi lovğalıqdan qaynaqlanan ilkin enerjisini yolda itirə-itirə səliqəsiz, qarmaqarışıq olmayacaq, sənətin lənətə gəlmiş yenilməz qanunlarına tabe olaraq baş alıb gedəcəkdi.

İndi unudulmaqda olan "mürəkkəb ləkəsi" ifadəsi o vaxtlar ibtidai sinif şagirdləri arasında aktual idi. Polad qələm ucluğu ilə mürəkkəb balacaların başına bəla idi. Onlar analarının məxsusi tikdikləri kiçik kisələrdə məktəbə mürəkkəbqabı gətirirdilər. Kiçik bir ehtiyatsızlıqdan aləm tünd-bənövşəyi mürəkkəbə bulaşırdı. Mürəkkəb ləkəsi...

Məktəbdə oxumaq əziyyət deyildi, istəsəydin də aşağı qiymət ala bilməzdin, "dörd", "beş" yarma kimi göydən başımıza yağırdı, altıncı sinfə qədər hamı kimi, mən də əlaçıydım. İndi nəvələrimə baxanda, birinci sinifdə oxuyan nəvəmə ev tapşırıqlarında kömək edəndə, mənə elə gəlir ki, onun yaşında mən əqli cəhətdən zəif inkişaf etmiş uşaqların məktəbində oxumuşam. Əlbəttə, zaman çox irəliyə gedib, çaparaq keçib, amma bəzən üzülürəm ki, ən gözəl uşaqlıq çağı biliklərin qazanılmasına sərf olunur və bu öyrəndiklərimizin çoxu həyatda gərək olmur.

On iki yaşım tamam olanda atam kiçik bir bağ evi aldı və ömrümün on ikinci yaşını yeni bağımızda keçirdim. Bağımız dənizdən çox uzaqdı, elektrik qatarı ilə iki dayanacaq yol gedib, dənizə lap yaxın "Sahil" stansiyasında düşürdük. Yol vaxtımızı çox alırdı, çünki qatarlar dəqiq işləmirdi, stansiyalarda xeyli dayanırdı, heç bilmirdin nəyi gözləyir. Deyirdilər, qarşıdan gələni gözləyir. Mən başa düşmürdüm ki, niyə qarşıdan gələn qatarı bu qədər gözləməlidir ki? Atam izah edirdi ki, üz-üzə gəlib toqquşmamaq üçün. Bu izahat da məni razı salmrdı, qızmar vaqonda bişmək istəmirdim, dənizə girməyə tələsirdim. Bütün oğlan uşaqları kimi hövsələsizdim, lakin hər yay gününü dəniz sahilində keçirmək arzum (on iki ildə belə fürsət az olmuşdu, hərdən xalamgilə, xalauşaqlarının yanına gedirdik, onların bağı dənizin beşaltı addımlığındaydı) gerçək olmuşdu. İndi bizim bağımız vardı, hər gün olmasa da, yetərincə tez-tez çimərliyə gedirdik, daha kiminsə evində qonaq qalmaq lazım deyildi. Doğrusu, qonaq qaldığım yerdə rahat olmurdum, özümü evdəki kimi hiss etməliydim. Əslində, valideynlərimin üzündən evdə də tam sərbəst deyildim, mənimsə uşaqlığımdan bu günə qədər – bu sətirləri yazdığım günə qədər ən çox sevdiyim şey azadlıqdır.

– Azadsan! – vəhşi adaya çıxan səyyah qışqırdı.

– Azadsan! – növbəti cinayətdən sonra ömrünün çox hissəsini keçirdiyi zonaya qayıdan qoca məhbus qışqırdı.

– Azadsan! – arvadından boşanan kişi qışqırdı.

Hər kəsin özünün azadlıq anlayışı var, hər kəsin azadlığı özünə məxsusdur. Nə olursa-olsun, çoxdankı məqsədinə çatan insan bir müddət xoşbəxt olur. Bu, az şey deyil.

Bağda yay axarıyla gedirdi, indi daha çox dənizə gedə bilirdik, amma mən bağ adamı deyildim, mən qaynar qumda ayaqyalın gəzməyi sevmirdim, çəkmə geyinib küçədə gəzmək daha xoşdu, həm də çəkmələr cırıldasın, dabanları taqqıldasın. Yeni həyat məni sıxmağa başlamşdı, yəqin, ona görə ki, özümə dala bilmirdim. Şəhər evində çox vaxt təkbaşına qalırdım, bağda isə çox şey məni yayındırırdı, böyüklərin göstərişi bitmək bilmirdi (lək qaz, qızılgül kollarını sula, ağaca dırmaş, qaysı topla, tut ağacını silkələ, bezin üstünə yığ və sair və sair), gerçəklik gözə girirdi, xəyallara dalmağa imkan vermirdi, çox vaxt da o xəyallara ki, gerçəklikdən çox uzaqdı, ağlasığmazdı. Atam məni izlədiyini hiss etdirməməyə çalışaraq, mənim öz-özümə danışdığımı, əl-qol atdığımı, yan-yörəmdəkiləri fərq etmədən qəribə oyunlar oynadığımı görüb, qəti qərara gəlmişdi ki, oğlu bacarıqsızın biri olacaq.

On üç yaşımda atam mənə velosiped aldı. Bu, ad günü sürprizi deyildi. Ona qədər də atamla biz bir neçə dəfə idman malları mağazasına getmişdik. Velosipedlərə baxıb heyran qalmışdım, minib yoxlamışdım da. Amma bilmirdim, hansını seçim. Mən elə bilirdim ki, başqa mağazadakı mallar kimi, idman malları mağazalarında da elə bir adda velosiped olacaq. Ona görə ki, o vaxtlar alıcıların mal bolluğu kimi bir imtiyazı yoxdu. Amma, deməyəsən, bura istisnaymış. Bir neçə markanın məhsullarını görüb çaşmışdım, çünki hər biri xoşuma gəlirdi. Nəhayət, birini seçdim – “Turist” velosipedini. Satıcının verdiyi əskiylə təkərin millərini yağdan təmizləyib par-par parıldatdım, şinlərə hava vurdum, ov tulasının sifətinə bənzəyən oturacağının tozunu aldım, əyri sükanından yapışıb, mağazadan çıxardım (azadlıq, azadlıq, velosiped). Canlı məxluq kimi tumarlayıb, yəhərə oturdum və boş küçə ilə şütüməyə başladım. Sevincdən atamı da, dünyada hər şeyi də unutmuşdum. Hələ də xoşbəxtliyimə inanmırdım, inanmırdım ki, altımdakı bu pedall arını tərpətdiyim, tərli əllərimlə yaraşıqlı əyri sükanından yapışdığım velosiped mənimdir, yəni mən istədiyim vaxt heç kimdən izn almadan bu velosipedi sürə bilərəm? İndiyə qədər də velosiped sürmüşdüm, həyətimizdə bir oğlanda vardı, kefinə düşəndə uşaqlara sürməyə verirdi, o cümlədən də mənə. Amma çox vaxt təmənnasız verməzdi. Məhəlləmizə gənc dondurmasatan gələrdi, kiçik, təkərli dondurma arabası qənbər döşənmiş yolda gurultu qoparardı. O, icarə haqqını malla – dondurma ilə ödəyərdi. Velosipedin sahibi öz mənfəətindən də qalmazdı. Xülasə, velosiped sürməkdə bir az təcrübəm vardı. Amma atam bunu bilmirdi, narahat oldu, əlini yelləyib işarə etdi ki, geri qayıdım.

Bağdan dənizə velosipedlə gedib-gəlməyə başladım. Təbii ki, valideynlərim, əsas da anam yol qəzalarından, hər hansı bir hadisədən ehtiyat edərək (nə qəza olacaqdı ki, küçədə iki cüt, bir tək maşın olurdu, xüsusən də kənddə), razı olmurdular. Nə də olsa, cəmi on üç yaşım vardı. Amma nə ləzzət eləyirdi... İkiqat olub əyri sükandan yapışaraq, pedalları sürətlə hərəkətə gətirirdim, təsəvvür edirdim ki, velosiped yarışındayam və yoldaşlarımı ötüb keçirəm. Möhkəm doldurulmuş təkərin xoş xışıltısını eşidir, gümüşü millər bir-birinə qovuşub gümüşü dairəyə çevrilirdi, ürəyimə yağ kimi yayılan sevincdən gülümsəyirdim, qızmar iyul küləyi də vecimə deyildi. O xoşbəxtliyi indi də hiss edirəm.

İnsanı xoşbəxt edən əsl sevincin tək-tük qəlpələri, elə kədərin qəlpələri də həyatı boyu insanın canında yaşayır, xüsusən də çox uzaqda qalmış uşaqlığın qəlpələri. Zaman insanın həyatına əl gəzdirir, getdikcə həyatın dadı qaçır, işıqlı qəlpələr seyrəlir, yerini sönük qəlpələr tutur, qayğılar çoxalır, qarşımıza elə insanlar çıxır ki, insan adlandırmağa dilin gəlmir, uzaq xatirələri xatırlatmaq istəyirsən, donuq baxışlarından hiss edirsən ki, keçmiş hadisələrin məzmununu xatırlayırlar, doğurduğu həyəcanı deyil, hisslər çoxdan kütləşib.

Lakin bunlar çox sonra olacaq işlərdir. İndi qayğısız uşaqlıq və yeniyetməlik var. Əslində, qayğısız da sayılmazdı, o qədər tələş və həyəcan vardı ki, çoxlarına elə gəlir ki, uşaqlıqları dərdsiz-sərsiz keçib. Bəlkə də, kimdəsə belə olub. Amma uşaqlıq illərinə bir dərin baş vursaq, mütləq qorxu dolu sirlərlə, gecənin bir

aləmi bizi yerimizdə dik atılmağa məcbur edən dəhşətli yuxularla, yada düşərkən əlimizi uşaqlıq oyunlarından soyudan daha nələr-nələrlə toqquşarıq.

Oğlan çox duyğusal idi, istər yaxşı şey olsun, istərsə pis, o dəqiqə təsirə düşür, uzun müddət özünə gələ bilmirdi. İş o yerə gəldi ki, valideynlər qarışmalı oldular. Əsas əl-ayağa düşən anası olurdu.

Bir gün anam məni bir qadının yanına apardı. Deyilənə görə, bu qadın bəd nəzəri, qorxunu, pis nəfsi götürürmüş. O vaxt evdar qadınların çoxu belə şeylərə inanırdı. Qəribədir ki, indi də inananlar var, həm də tək evdar qadınlar deyil.

O uzaq uşaqlıq yuxularım, qorxulu röyalarım indiki işimdə, kitablarımda tez-tez öz əksini tapır. Bu yuxular əqrəb kimi gizlənib fürsət gözləyir, uyğun bir əsərə yeriyib əsərin babat bir qəhrəmanına iynəsini batırıb zəhərləyir və qəhrəman özü də bilmədən (elə mən də – müəllif də) bədheybətə çevrilib, əlbəttə ki, zahirən deyil, daxilən, getdikcə həmcinslərini sümürməyə, dünyalarını başlarına dar etməyə, rahatlıqlarını əllərindən alıb, nəfəslərini kəsməyə başlayır. Həyatda belə dəhşətli şeylər çoxdur, bu təbiidir, çünki insanların ağlasığmaz əməl və hərəkətləri çoxdur. Uzaq uşaqlıqdan gəlib yazılarıma qarışan canımdan çıxmamış qorxu ürəyimi xısın-xısın gəmirir. Nə edək, onların arasında yaşayırıq, onları göstərməmək həyatdan üz çevirmək deməkdir. Hər şeyin öz yeri var: yaxşının da, pisin də.

Nə isə... Mənim çox əsəbi, duyğusal olduğumu düşünən anam canıyanan qonşuların məsləhətilə məni qorxugötürən qadının (indi ona ekstrasens deyirlər) yanına apardı, çünki anam bu fikirdəydi ki, mən məhz yuxuda qorxmuşam, ona görə də belə qorxağam, hər şeydən diksinirəm, depressiyaya düşürəm. Depressiya demişkən, o vaxtlar depressiya sözü dəbdə deyildi, belə hallarda deyirdilər ki, "filankəsin kefi yoxdu", ya da "axır vaxtlar nəsə qaşqabağı açılmır".

Necə olmuşdu, tramvay şəhərdən uzaq geniş qarlı çöldə batıb qalmışdı? Əsərin baş qəhrəmanına heç kim izah edə bilməzdi ki, adamı yeyən canavarların yaşadığı meşənin yaxınlığına necə gəlib düşmüşdülər və sağ qalmaq üçün – əgər bacarsalar – mütləq qorxulu yuxuda olduğu kimi göz görə-görə ölümə getməlidilər. Nəvəsinin cib dəsmalına bükülmüş barmaq boyda cadugər qarı birdən-birə böyüyüb adam boyda olur, hekayənin qəhrəmanı sarısını udur. Qış gecəsi tanış küçələrdə azmış başıbəlalı yolçunu əkizlər kimi, bir-birinə bənzəyən qatillər təqib edir. Cəhənnəmə şütüyən qatar baş qəhrəmanı gerçək həyatdan üzülmüş dəlilərin toplandığı evə gətirir. Sıravi oxucu üçün çox da aydın olmayan bütün bunlar və daha nələr-nələr başlanğıcını çox keçmişdən, soyuq tər içində oyandığım yuxulardan alıb.

Xəyalımda canlandırdığım tipik cadugər – qartalburun qaxac qarı əvəzinə bizi çox mehriban, üzügülər, dilli-dilavər qadın qarşıladı. Bizi özünün bişirdiyi albalı mürəbbəsilə çaya qonaq etdi. Qadın hey başımı sığallayır, nəsə xoş şeylər deyir, sanki qorxulu bir şeyə hazırlayırmış kimi məni sakitləşdirib, keyləşdirirdi. Onsuz da qaramat idim, qadının belə canfəşanlığından daha da eyməndim. Qadın elə gülümsəyə-gülümsəyə məni döşəyi çökmüş divana uzandırıb, üstümə tərtəmiz ağ döşəkağı çəkdi. Üzüm bağlı olsa da, masa arxasında oturmuş anamı sezə bilirdim. Qadın pambığı didib döşəkağının üzərinə səpələdi, nəsə mızıldadı və qəfildən kibriti çəkdi. Pambıq didikləri bir göz qırpımında alışdı. Mən diksindim və deyəsən, qorxudan qışqırdım da.

Qəribə görünsə də (hər cür falçı və cindarlara indi anlayışlı yanaşan yaşa dolmuş bir insan kimi), cadugər – biləndə ki, anamla qorxumu götürməyə gedirik, o qadını belə adlandırdım, anam "belə demə, inciyər, cadugər nədir, biz insanlara kömək edən xeyirxah bir qadının yanına gedirik", dedi – qadın məni sağaltdı və artıq yuxuda qışqırmırdım (qan-tər içində oyandığım əvvəlki vaxtlar, gördüyüm yuxular yadımda qalmırdı, çünki gördüyüm əcaib şeylər aydın deyildi, duman içində üzürdü sanki, təsvirə, izaha gəlməyən dəhşətli bir şey üzərimə gəlirdi), daha səbəbsiz şivənlərim də kəsilmişdi, uzun-uzun səssiz oturub nəsə baş verəcəyini tələsə gözlədiyim o qeyri-normal hallar da keçmişdə qalmışdı. Anam çox sevinirdi və "cadugər"in şəfaverici qabiliyyətindən qonşulara ağız dolusu danışırdı.

Uşaqlığımın çox uzaqlarda qaldığı indiki vaxtda elə istəyirəm ki, həyatımdakı bütün xoşagəlməz məsələlər, dərdlər beləcə kiminsə

yüngül əlilə bir anda həll olsun, yaşadığım bir anlıq qorxu yanıb-sönən işıq kimi saxta insanların həyatıma bulaşdırdığı qorxunu, dəhşəti, çirkabı çəkib aparsın. Mən belə adamlarla ünsiyyətdən qaçıram, işin içərisində gizlənməyə çalışıram, lakin həyat, şərait məni ortalığa çıxarır, silkələyir və sevmədiyim mühitə atır.

Kafkanın sözləri düşür yadıma: "Özünüzü niyə belə göstərirsiniz ki, guya dürüstsünüz?.."

Son yüz ildə bədii əsərləri təbiət təsvirlərilə başlamaq dəbdən düşüb, halbuki bir vaxtlar klassiklər əsərlərinə bununla giriş verərdilər. Təbii ki, belə olacaq. Müasir insanlar təbiətdən elə uzaqlaşıblar ki, onu ciddi-cəhdlə məhv etməyə girişiblər, elə bil ən qəddar düşmənlərini məhv edirlər. Əslində, təbiət bizim uşaqlığımızdır, məhz uşaq vaxtı biz təbiətə çox yaxın olmuşuq. Təbiətin qəsdinə durmaq uşaqlığımızı edam etməkdir, uşaqlıq xatirələrimizi yaddaşımızdan silməkdir.

Mənim ilk hekayələrim uşaqlıq illərimə həsr olunub. O vaxt iyirmi yaşlı tələbəydim və uşaqlığım məndən çox uzaqlaşmamışdı. "Uşaqlıq şəkilləri" adlanan kitabıma uşaqlıq çağımın xatirələri daxil edilib. Sonralar da uşaqlıq illərim müxtəlif epizodlarla əsla uşaqlara dəxli olmayan kitablarımda özünə yer edirdi, həm də möhkəm yer edirdi, elə bil öz evindədir. Çünki uşaqlıq xatirələri, uşaqlıq insanla, xüsusən yaradıcı insanla sona qədər yoldaşdır. İnsan arada o qayğısız illərə qayıdır, ona görə yox ki, o illər qayğısız və firavan olub, ona görə ki, o illərdə həyat daha dolğun, daha parlaq yaşanırdı.

Mən ilk kitabıma bədii tərtibat vermiş istedadlı rəssam Rasim Babayevi xatırlayıram. O vaxt mən heç kimin tanımadığı gənc yazıçıydım, o isə əsərləri Avropada sərgilənən məşhur rəssam idi. Yaş fərqimiz də çoxdu, durub lovğalana da bilmərəm ki, onunla dost idim. Amma fəxr edirdim ki, tanınmış istedadlı rəssam mənim ilk hekayələrimlə maraqlanmış və kitabımın bədii tərtibatını vermişdi. Bu qənaətdəyəm ki, hekayələrim səmimiliyilə onun xoşuna gəlmişdi, o özü də səmimi, xeyirxah insan, bütöv şəxsiyyət idi.

Bu kitab Ədəbiyyat İnstitutunda oxuduğum illərdə, Ədəbiyyat İnstitutunun xoş duyğularla xatırladığım yataqxanasında qələmə alınmışdı. Moskvada olanda heç vaxt doğma institutuma getmirəm, çünki peşman olmaq istəmirəm. Bilirəm ki, qırx ildə süqut etmiş ölkənin bir çox şəhərlərində olduğu kimi, mənim təhsil ocağımda da böyük dəyişikliklər olub. Ədəbiyyat İnstitutundan da kitab yazmışam. "Arxaya kədərlənmədən bax" adlanan bu kitab, adından da görüldüyü kimi, bir az sentimental tərzdədir və bu əsər ən sevdiklərimdən olmasa da, hər halda yazılıb, həm də, necə deyərlər, isti-isti, mən institutu bitirib Bakıya qayıdan kimi yazılıb. Yəqin, şüuraltı anlamışdım ki, vaxt itəndən sonra Ədəbiyyat İnstitutunda keçirdiyim illəri, nəhəng ölkənin hər tərəfindən axıb gəlmiş dostlarımı, sevdiyim bütün qadınları, iştirakçısı olduğum bütün hadisələri olduğu kimi, gerçək boyalarla canlandıra bilməyəcəyəm. İllər keçdikcə tələbəlik illəri mənə daha şirin gəlir, Moskva təhsil ocağında keçirdiyim günlərin əməlli-başlı xiffətini çəkirəm, öz şəhərimdə – Politexnik İnstitutunda oxuduğum illər barədə bunu deyə bilmərəm.

Mətbuatda çıxan ilk yazımın sevincini sözlə ifadə etmək mümkün deyil. Qəzet səhifəsindən gözlərimi çəkə bilmirdim, inanmırdım ki, tünd şriftlərlə yazılan mənim adımdır. Bu, sonralar ciddi şəkildə məşğul olduğum nəsr nümunəsi deyildi, dəqiq yadımda deyil, ya məqalə idi, ya da oçerk. Amma keçirdiyim hisslər dəqiq yadımdadır. Ürəyim şiddətlə döyünürdü, fəxrlə ətrafıma baxırdım, elə bilirdim, indi hamının diqqəti məndədir. Elə bilirdim, obrazlarla yüklədiyim məqaləmi (yeri gəlmişkən, redaksiyada çox şeyi haqlı olaraq, kəsib götürmüşdülər, amma o anda adımı qəzetdə görüb sevincək olmuşdum, yazıya əl gəzdirildiyindən şübhələnməmişdim) oxumuş milyonlarla oxucum küçədə məni tanıyacaq, məni – bir saatda məşhur olmuş yazıçını bir-birlərinə göstərib pıçıldaşacaqlar... Dərc olunmuş ilk yazım haradasa mənim üçün ilk məhəbbət, ilk qadın (əslində, özü haqqında dumanlı xatirələrdən başqa heç bir şey qoymamış qadın) kimidir. Bu duyğunu bu gün olmuş kimi yaşayıram, baxmayaraq ki, o vaxtdan çox illər ötüb, o vaxt mən çox cavandım. Yazının ardınca həyat boz üzünü göstərdi, redaksiyada məqaləmə xeyli irad tutdular və ilk təəssüratımın dadı qaçdı. Lakin mən dərsimi aldım, gələcəkdə daha yığcam yazmağa, əsas məsələdən yayınmamağa çalışdım. Bu, yaxşı məktəb idi, amma bu

sahədə çox qalmadım, mən qəzetçi olmağı düşünmürdüm. Mən dumanlı da olsa hiss edirdim ki, məni nəsə qəzet reportyorluğundan daha maraqlı bir şey gözləyir. Çox mütaliə edirdim, öz ecazkar dünyasını qura bilmiş yazıçılara heyran olurdum, kitabı bitirdikdən sonra uzun müddət o dünyada yaşayır, qəhrəmanların taleyinin ardını fikirləşir, süjeti uzadırdım və özüm də nəsə oxşar dünya yaratmağa cəhd edirdim.

Məqalə üçün aldığım qonorar mənim üçün çox da maraqlı deyildi, önəmli olan faktın özü idi və yəqin ki, bu mənim gələcək taleyimi müəyyən etdi. Pul fürsət düşdükcə məndən qaçırdı (bu o demək deyildi ki, mən pul qazana bilmirdim, sadəcə, başqalarının asanlıqla əldə etdiklərini mən alın tərilə, zəhmətlə əldə edirdim), məşhurluq isə tədricən gəlirdi və mən bir gün oyandım ki, artıq məşhuram. İlk kitablarımdan biri məni geniş məkanda tanıtdı, eyni zamanda başım ağrıdı, xoşagəlməz məsələlərlə üzləşdim. Kitabın nəşri, demək olar ki, möcüzə oldu, çünki senzura hər şeyə mız qoyurdu,o vaxtın anlayışına görə, əsərdə qiyam havası varmış. Elə buna görə də bu əsər məşhurlaşdı və əl-əl gəzdi. Bu kitabın bir nüsxəsi də əlimdə qalmayıb. Amma yadımdadı ki, o vaxtlar əldə gəzməkdən yıpranıb tökülmüş bu kitabdan çox görmüşdüm. Elə oxucular vardı – təəssüf ki, indi onların sayı çox azalıb – kitab yaxşı qalsın deyə sərt üzlüklə cildləyirdilər. Bütün bunlar məni sevindirir və hökumətin kitabımı soyuq, əslində, isti, top-tüfənglə qarşılamasından doğan təəssüf hissini səngidirdi. İndiyə qədər tanımadığım insanlar qırx il əvvəl çap olunmuş kitabı məndən soruşanda dəyişik hisslər keçirirəm: bir tərəfdən sevinirəm ki, çoxdanın kitabı indi də insanları maraqlandırır, digər tərəfdən təəccüblənir və məyus oluram ki, o səs salmış kitabımdan sonrakı daha uğurlu və maraqlı saydığım əsərlərimi çox az adam xatırlayır. Görünür, oxucunun səviyyəsi o əsərimdə donub qalıb və yuxarıya qalxmaq istəmir, yerdə qalanları görmək istəmir (əgər kitab oxumaq çoxları üçün qeyri-ciddi bir şeyə çevrilibsə, necə görsün axı). Bu kitabı, demək olar ki, birnəfəsə yazmışdım, yadımdadır, iki gün masanın arxasından qalxmamışdım, sətirləri saymaq, ölçmək-biçmək kimi bir şey yoxdu. O vaxtlar kompüter hələ həyatımıza daxil olmamışdı, qələmlə yazırdım, sonra ilk oxucu və redaktor kimi yazdığımı məqbul sayanda makinada çap etməyə başlayırdım. “Erika” markalı makinam vardı, bu makinada işləməyi sevirdim, deyəsən, o da mənimlə işləməyi sevirdi, elə şeylər vardı ki, peşəkar makinaçıdan daha sürətli yazırdı, mənim köməyimlə, təbii ki... Bax mən bu əsəri, ardınca başqa əsərləri yazanda uzun müddət masanın arxasından çıxa bilmirdim, elə olurdu ki, az qala huşumu itirənədək otururdum, ayağa qalxanda kürəyimin ağrısından dayana bilmirdim. Fikirləri tutmaq lazımdı, vaxtında qeyd edilməmiş, sözə çevrilməmiş və kağıza mıxlanmamış fikir uça bilərdi. Doğrudur, sonra qayıdır, amma başqa şəkildə, artıq əvvəlki kimi təsirli olmur, məni qane etmirdi. Fikirləri və duyğuları bərpa etmək üçün əldən-ayaqdan gedirdim, lakin işləyərkən leysan kimi üzərimə yağan incə duyğuları fiziki olaraq yığıb-toplamaq, yazmaq bəzən mümkün olmurdu və o düşüncələr, yaşantılar, hisslər uçub gedirdi, mən də kor-peşman onların arxasınca baxırdım. Dostlarım məsləhət görürdülər ki, diktofona yazım. Lakin belə bir iş üslubu xoşuma gəlmirdi, daxilən özümü reportyor kimi hiss edirdim, həm də qorxurdum ki, ağlıma yazıçı deyil, reportyor fikirləri gələr... Başqa çarəm yoxdu, yazılarımın üzərində titrəyərək işləyirdim, ona görə də masanın arxasında yatıb qalmalıydım. İşləmək üçün müəyyən vaxt ayıraraq səhifələrini səliqəylə yazıb doldurmaqla qazanılan peşəkarlıq bu cür iş üsulu üçün azlıq edir. Mən nadir hallarda elə işləyirdim. Əksər hallarda anidən işə başlayır, tələsirdim, qorxurdum ki, fikirlərimi qələmə alıb çatdıra bilmərəm, hövsələmi basa bilmirdim. Bir tərəfdən belə işləmək xoşbəxtlikdi. Çünki bu ağır işin əks tərəfi də vardı, elə olurdu ki, heç işləyə bilmirdim, uzun fasilələr olurdu, mən səksəkəyə düşürdüm, çox narahat olurdum, axı bulağın gözü bağlana bilər, istedad tükənə bilər, bəzi yaxşı yazıçılarımızda bunun şahidi olduğum üçün nigaran idim.

Fikir – sevincdir, üslub – əzabdır.

Həyatım və sənətim mənə çox şey öyrədib, səbirdən başqa. Səbrimin həddi uşaqlıqdan bu yana dəyişməyib. Ömür boyu gecikməkdən qorxuram, işə gecikməkdən, tədbirlərə gecikməkdən, qonaqlığa gecikməkdən qorxuram, elə bilirəm, mən geciksəm, nəsə vacib

bir şey baş verəcək və mən bu vacib şeyi qaçıracağam. Bunun nəticəsidir ki, mən hər yerə vaxtından əvvəl gəlirəm, işimi vaxtından əvvəl bitirirəm, saat zəng çalmadan beş dəqiqə əvvəl oyanıram, qonaq getdiyim yerə hamıdan birinci gəlirəm. Səbirsizliyim başımın bəlası olub, tələsdiyim üçün nədənsə məhrum olmuşam, nəsə məndən yan keçib. Çox vaxt başımı qaldırmadan işləyirdim, lakin işi tamamladıqdan sonra düşünürdüm ki, bəlkə, belə tələsik işləməsəydim, necə böyük zövq alardım... Çünki mən işimi sevirəm. Bəs fikirlər? Necə tələsməyəsən? Başlıcası, məqsədə çatmaq üçün tələsəndə çox şeyi görmədən, fərqinə varmadan ötüb keçirsən, sanki sürət qatarının kupesindəsən, maraqlı mənzərələr gözlərinin önündən sürətlə axıb keçir və əməlli-başlı görə, yaddaşına köçürə bilmirsən, halbuki ssenarilərində istifadə edə bilərdin və sadəcə xatırlayıb qatarda getdiyin günlərə dönə bilərdin. Məqsədyönlü insanlar müəyyən dərəcədə gözütoxdurlar, özləri özlərindən kəsirlər. Doğrudur, həyatda itirilənin əvəzi təxəyyüllə kompensasiya olunur. Çox vaxt gur, aşdım-daşdım fantaziyalı insanlar ətraf aləmə diqqətsiz olurlar. Yox, mən heç bir zaman intizamlı yazıçı olmamışam, yoxsa "heç bir zaman" ifadəsi bir az artıq oldu? Bəzən olub ki, planlı yazmağa çalışmışam, məsələn, gün ərzində filan qədər səhifə, amma çox çəkməyib, yenidən titrəmə və hövsələsizlik məni ağuşuna alıb, elə bil məni qovan var, nəfəsim kəsilənəcən işləmişəm. Planlı şəkildə, aramla, təmkinlə işləyən, işindən ləzzət alan yazıçılara həmişə həsəd aparmışam. Bəs mən? Mən isə... mən sürət qatarında sovuşub getmişəm. Yan-yörəmdən isə... Yaşanacaq çox şeyi ötürmüşəm. Xasiyyətdir də – tələsirəm və xasiyyətimi dəyişməyə də tənbəllik edirəm, çünki bu elə-belə şey deyil, buna can qoymaq lazımdır.

Sənətim mənə böyük işlər üzərində günlərlə işləməyi öyrədib, mən yazını ən maraqlı yerdə kəsməyi öyrənmişəm, elə olub ki, cümləni də bitirməmişəm ki, ertəsi gün işə nədən başlayacağımı bilim və işləmək maraqlı olsun. Süjeti tam bilməmək çox vacibdir, bu, ssenari deyil, ssenarinin sonluğunu müəllif dəqiq bilməlidir, qabaqcadan tərtib olunmuş süjet üzrə necə irəliləyəcəyini, harada kulminasiya olacağını, harada tamaşaçıya istirahət verəcəyini, boğulmaq həddinə gələn oxucunu nə zaman otaqdan təbiətə çıxarmaq lazım gəldiyini və ən başlıcası, ilk üç dəqiqədə tamaşaçını qaçırmamağın yollarını bilməlidir. Ssenari konstruktiv sənətdir. Ssenaristin əvvəlcədən tərtib olunmuş ssenari planı, kinoçuların dediyi kimi, "skeletto" olmalıdır ki, iş prosesində bu "skeletto" ətə-qana dolur. Nəsrdə də başlanğıc çox önəmlidir, ilk səhifədən oxucunu cəlb etmək lazımdır ki, elə ilk səhifədən (diqqət, sözlər qarışmasın) kitabı bağlamasın, əksinə, oxuduqca maraqlansın. Ssenaridən fərqli olaraq, nəsrdə müəllifin sonu bilməsi vacib deyil, yazdığı əsərin onun üçün də naməlum, sirli qalması məsləhətdir. Sonrakı sətirlər, səhifələr nələri açacaq? Vacib olan budur və bu, müəllifin işini əsl ağlasığmaz sənətə çevirir, bu sənəti açmaq və daxili mexanizmin necə qurulduğunu göstərmək olmaz, çünki qan tökülə bilər.

Qorxumu götürən qadını ziyarətdən sonra mən həqiqətən xeyli rahatlaşdım və mənim yeddi yaşlı həyatım yenidən axarına düşdü. Uşaq çağında çox şeylə maraqlanırdım, heykəltəraşlıq tez ötüb keçən həvəsimdi, lakin "ötüb keçdi" deyə bilmərəm, rəsm və heykəltəraşlıq əsərlərinə sevgi həyatım boyu olub, mən məşhur rəssamların əsərlərinə saatlarla baxmaqdan doymazdım, rəngkarlıqdan o qədər baş çıxarmasam da, kətanda əks olunmuş gözəlliyi qəlbimlə duyurdum. Sonra idmana həvəsləndim, on iki yaşımda "Dinamo" idman cəmiyyətinin boks bölməsində məşğul olmağa başladım, ta o vaxta qədər ki, rinqdə burnumu sındırdılar. Bununla da boks həvəsim bitdi, burnum isə əyri qaldı. İdmandan, ümumiyyətlə, uzaqlaşdım, əvəzində burunlarla düşmənçiliyi olmayan, amma taleləri məhv edən sənətə yönəldim...

Ruscadan çevirdi:
Arifə Əliyeva

Zaur İLHAMOĞLU

ÇATMIR

Ruh içimdə haray salmış, –
Dərd üstəyəm, dəvam çatmır.
Nə fayda, içimdən çölə
Səsim çatmır, sədam çatmır.

Həm doğmayam, həm özgəyəm,
Bütövdən qopmuş hissəyəm.
Yarımçıq qalmış cümləyəm,
Nöqtəm çatmır, nidam çatmır.

Bacarsan, alışma, yanma,
Bu nə sirdir, nə müəmma,
Hər tərəf açıqdır, amma
Boğuluram, havam çatmır.

Bir günəşəm, kütləm ziya,
Həmdəməm ulduza, aya,
Nur çiləsəm də dünyaya,
Öz dünyama şüam çatmır.

Əl açaraq göyə, hətta
Dua etsəm də həyatda,
İlişir hansısa qatda,
Allahıma duam çatmır.

KÖNLÜM

Fələyin köksümə vurduqlarından
Bir gündə min dəfə yarılan könlüm.
Yenə də sən mənə dönük çıxmadın,
Yenidən köksümə sarılan könlüm.

Saf oldun, hər kəsə inandın belə,
Həm alışdın belə, həm yandın belə.
De, sən nədən həssas yarandın belə,
Adicə bir sözdən qırılan könlüm?

Nə olar dayanma gəl pərişantək,
Sən ki çırpınardın dəli tufantək.
İndi inləyirsən qəmli kamantək,
Nisgilli kök üstə qurulan könlüm.

Dünənim qəm oldu, bu günüm kədər,
Sabah yaxşı olar, ya bundan betər...
Dincəlmək istərəm, yoruldum... yetər!
Sən də dincəl bir az, yorulan könlüm.

Lamiyyə SƏFƏROVA

OLDUMU, QUZUM

Başına tac qoyum məhəbbətimi,
Səni şah taxtına əyləşdirimmi?!
Ölüb, dirilməyə mən ki vərdişəm,
Səni də ölməyə öyrəşdirimmi?!

Sevgidən hörmüşəm divarlarını,
Bu evin daşı da, taxtası da mən.
Sənin bu sevgidə əməyin nədi?
Fəhləsi də mənəm, ustası da mən.

Mən səni sevdikcə dəyərin artır,
Sən məni sevdikcə ucuzlaşıram.
Mən səni sevdikcə ucalaşırsan,
Sən məni sevdikcə acizləşirəm.

Hər gecə yuxuma gəlməyin arzum,
Bilmirəm yaxşıya, pisəmi yozum.
Şəkildən üzümə baxırsan məsum,
Sən elə ordan bax. Oldumu, quzum?

BÖYÜYƏM GƏRƏK

Bezdim bu qaçaqaçdan, bu qovhaqovdan,
Yığam dərdlərimi, kürüyəm gərək.
Mən necə yanmamış çıxım alovdan,
Dünyanın nəyinə gərəyəm, gərək.

Tutub dörd yanımı, qaçmağa qoymur,
Günəşi üzümə saçmağa qoymur,
Söz desəm, ağzımı açmağa qoymur,
Kor olam, kar olam, kiriyəm gərək.

Gündə min söz duyur, min söz götürür,
Dözür, kirpiyində od, köz götürür,
Mənim sevinclərim tez göz götürür,
Başına üzərlik hərləyəm gərək.

Dünyaya bir az da baxam dünyadan,
Doydum xirtdəyəcən, toxam dünyadan,
Gərək acığımı çıxam dünyadan;
Tutam saçlarından sürüyəm gərək.

Yerin yerə çəkir, göydə yerim yox,
Ölsəm, ölüm hanı, qalsam, dirim yox,
Səndən nə baş çıxır, nə xəbərim yox,
Qarşında uşağam, böyüyəm gərək…
Dünya,
Qarşında uşağam, böyüyəm gərək.

GEDİRƏM

Gedirəm, bizimki bura qədərmiş,
Biz də sona çatdıq nağıllar kimi.
Gəl sevgi diləyək bir-birimizə,
Qarğış eyləməyək paxıllar kimi.

Gedirəm, fikrimi özündə qoyma,
Özünə yaxşı bax, tez unut məni.
Cücərtmə gözünlə xatirələri,
Bir kitab içinə qoy, qurut məni.

Gündüz çölə çıxma, göydən od yağır,
Allahın işidi, neyləsin günəş?!
Ayrılıq başında nağara çalır,
Bir az da başına döyməsin günəş.

Göz ilə görülmür, əllə tutulmur,
Canı sən verirsən, cansızdı sevgi.
Başını kəsmişəm, heç qanı çıxmır,
Nə yaman zalımdı, qansızdı sevgi.

Eşqini yarama məlhəm sanmışdım,
Yaramın üzünü soyub gedirəm.
Səni ürəyindən təhvil almışdım,
Onu da yerinə qoyub gedirəm.

Cavansan, onsuz da, unudacaqsan,
Sevginin matəmi heç qırx gün deyil.
Qəlbini birtəhər ovudacaqsan,
Ayrılıq nə ölüm, nə sürgün deyil.

Yenə də sevməkdən usanma, doyma,
Gedirəm, fikrimi özündə qoyma.

BİLMƏZLƏR

Xəlil Rza Ulutürkə

Ey iki qolları qandallı şair,
Qəlbini zəncirə vura bilməzlər.
Cismin zindanlara həbs edilsə də,
Məqamın hardadı, ora bilməzlər.

Xalqının çağlayan, coşan ürəyi,
Elinə nəğmələr qoşan ürəyi,
Çıxıb məcrasından daşan ürəyi,
Önündə dayana, dura bilməzlər.

Ey sözü qılıncdan kəsərli şair,
Küləkli, tufanlı, əsərli şair,
Ey əli yazarlı, əsərli şair,
Sənin qələmini qıra bilməzlər.

Mən təsvir edirəm səni dağ kimi,
Sanki ölməmisən, hələ sağ kimi,
Sən şeirə pərvanə bir qonaq kimi,
Gəlirsən gözümdə nura, bilməzlər.

Tərənnüm eylədin düz ədaləti,
Ələkdən keçirib süz ədaləti,
Gözündən düşənin yüz ədaləti
Etməyir bir quruş para, bimə zlər.

Sevdi bayrağını, ay-ulduzunu,
“Azərbaycan!” söylə, “vətən!” de onu,
Yolunu getsə də, mini, milyonu,
Qurduğun taxt-tacı qura bilməzlər.
Məqamın hardadı, ora bilməzlər.

ATAM

Gözlərimdə başın dəyir buluda,
Dünyanın ən uca zirvəsi atam.
Haqdır ünvanı da, haqdır yolu da,
Öyüddür hər sözü, kəlməsi atam.

Gözütox böyütdün, biz ac olmadıq,
Sən varkən heç kimə möhtac olmadıq,
Səni illər deyil, bizlər qocaltdıq,
Kəm olmasın evdən nəfəsi, atam.

Dünya bir yanadı, o bir yanadı,
Gözündə yaş görsə, bağrı qanadı,
Sevincdən uçmağa olmaz qanadı,
Gələndə övladı, nəvəsi atam.

Ağardı saçların bəyaz qar kimi,
İsitdin evini sən bahar kimi,
Üzündə nur doğar gün doğar kimi
Qəlbindən güc alar çöhrəsi, atam.

Açdın öz köksünü, eylədin sipər,
Verdin bizim üçün mübarizələr,
Sən təslim olmadın – vəfalı əsgər
Dünyaya güc gələr qüvvəsi atam.

Qanına, canına, arzuna şərik,
Duzla çörəyinə, ruzuna şərik.
Qaytara bilmərik, verə bilmərik,
Bir ömür haqqının zərrəsin, atam.

GÖZƏL

Qəlbini məhəbbət atəşi sarsa,
Yan külünə kimi, hünərin varsa,
Qəhrinə dözdüyün bir nazlı yarsa,
Yar yolunda cəfa, zülüm də gözəl.

Alnım ay kimidi, danacağım yox,
Heç nə itirmədim, bulacağım yox,
Dünyadan başqa şey umacağım yox,
Evimdə cüt mələk, könlümdə gözəl.

Ölüm təkcə kədər, göz yaşı deyil,
Ölüm qara torpaq, baş daşı deyil,
Əzrayıl heç kimin qardaşı deyil,
Allaha çatmaqsa, ölüm də gözəl.

Ülvi KAZIM

Səssizlik çağırır

Hava sakit. Göy üzü aydın. Həyat nazqəmzəli qızlar kimi çılğın...

Qollarımda can verən anam yaxamdan ikiəlli bərk-bərk yapışıb yalvarırdı:

– Qurban olum, mənə söz ver... söz ver...

Onun yumşaq, toppuş əlləri yavaş-yavaş yaxamdan boşalırdı.

Səssizlik, səssizlik, yenə də səssizlik...

Yadındadır, ana, atasız bir sinif yoldaşım var idi – Adnan? Sənin mənə hazırladığın çörəyin yarısını ona vermədiyim üçün cəza vermişdin mənə. Sonra mənə hər şeyi bölüşməyi öyrətmişdin. İndi mən bu sənsizliyi kiminlə paylaşım?

Balaca daxmamız kədərlə susmuşdu, mən içimə bağırırdım.

Ali məktəbə girmişdim, anam xəbəri alanda qanadlanıb uçurdu. Bilmirdi mənə necə qayğı göstərsin. İstədi kəndə gedim: “Bütün qışı oxumusan, ağrın alım, get, bir az dincəl”.

Bir gecə kəndimizdə bərk qorxdum, səhər Bakıya qayıtdım. Anam məni həkimə apardı. Xəstəydim, halım hər gün pisləşirdi. Həkimlərin acığına ən sevdiyi yeməkləri bişirirdi ki, tez sağalım.

Bir gün yataqdan heç dura bilmədim. Anam dərdimin çarəsini qapılarda, qonum-qonşunun türkəçarələrində axtarırdı.

Qar yağan gün anam mətbəxdə qonşu qadınla danışırdı:

– Bu uşağa ölü gözü dəyib. – Anamı inandırırdı. – Qəbiristanlıqdan köhnə qəbrin torpağı lazımdı.

Yazıq anam... Ölüdən də, qəbiristanlıqdan da, hətta mollanın səsindən də qorxurdu.

Səhər oyandım ki, anam əlində bir ovuc torpaq evimizdə həmin qonşu ilə nə isə pıçıldayır. Anladım ki, o, qəbiristanlığa gedib. Mənə görə bütün qorxularını canına sıxıb, ordan torpaq gətirib.

Mən anam üçün sağalmalıydım, anam üçün yaşamalıydım. Onun inancını qorumalıydım. Mən sözümü tutdum, anamı sevindirdim, amma o... İndi o yoxdu. Mən onu qoruya bilmədim, saxlaya bilmədim. Anam əllərimdən uçub getdi.

Üç gündən sonra əynimə anamın köynəyini geyindim və anamı aparıb kəhrizin yanında yandırdım. Qəbiristanlıqda dəfn edə bilməzdim, o qəbirlərdən və molla səsindən qorxurdu. Elə o qorxu da anamı məndən alıb apardı.

Səndən başqa heç kim

Başımın üzərindən buludlar keçir. Sənə o qədər yaxınam ki... Buludların arxasınca, xəyallarımla birgə küləyin qovduğu yerlərə gedirsən. Adını belə bilmədiyimsən. Nə məndən əl çəkirsən, nə də ki gözlərimə görünərək içimdəki yanğını söndürürsən. Amma nədənsə həmişə həsrətlə yolunu gözləyirəm. Hərdən düşünürəm: “Bəlkə, sən elə mənim özümsən? Neçə illərdir içimdə mənimlə danışan elə mənim özüm... Hərdən bu barədə düşünmək istəmirəm. Bəlkə də, düşünməkdən, oradakı qaranlıqda itib-batmaqdan, bəlkə də, həyatın həqiqətləri ilə qarşılaşmaqdan qorxuram.

Bu necə sevdadır ki, baxdığım hər yerdə səni görürəm? Yağış damlalarının üzümə çırpılaraq torpağa qovuşmaq ümidi ilə yanaqlarımdan aşağı süzülmələrindəki hikmətdə də sən varsan. Yolunu azmış sevgi qoxuyan səyyar küləklər qulağıma sənin sevgindən nələrisə pıçıldayar və min naz ilə mənə sürtünərək yanımdan biganə keçir. Dörd yanımı bürüyən çəmənliklərdən gələn gül-çiçəklərin qoxusu var gücüylə “sevgi, sevgi...” deyə bağırır.

Mən ac baxışlarla hər yerdə səni axtarıram.

Hərdən hər şeydən bezib dayanmaq, sənsizliklə barışmaq istəyirəm. Olmur. Bacarmıram. Sənə qovuşmaq, sənin bir parçan olmaq, qayalıqlarda bitən kəklikotu çiçəyinin qoxusunu doyunca sənlə qoxlamaq istəyirəm. Yoxsan! Yoxsan!

Uçurumun kənarı ilə addımlayıram. Bilirəm ki, sən də arxamca gəlirsən, qorxursan ki, yıxılaram. Çevrilirəm, yenə yoxsan.

Çatlamış qayaların arasında yığılmış xırda qum dənələrinin üzərində cücərərək onlara bərk-bərk yapışan bitki zoğlarını görürəm. Onların yaşamaq üçün həyatla necə mübarizə apardıqlarını görürəm. Sonda məğlub olacaqlarını bilsələr də, həyatla savaşırlar. Bu iradənin özü sənsən.

Boş otağımdakı sükuta baxıram. Bu günə kimi sükutun səsini bu qədər aydın eşitməmişdim. Fikirləşmədən içimdəki boşluqda, gölməçədə su zanbaqlarının arası ilə üzürəm. Baxışlarım otağımın künclərində tora düşüb.

Pəncərəmdən içəri gizli girən yaz küləyi qurumuş dodaqlarımdan öpərək, mənə yaşamaq üçün müjdə verir. Hardasan?

Bilirsən, necə darıxıram? Deyə bilmirəm...

Əşrəf VEYSƏLLİ

GÖYNƏYİR

Gün batan tərəfə baxa bilmirəm,
Qırılan ömrümün köçü göynəyir.
Qarlı zirvələrə qalxa bilmirəm,
Yaşlı gözlərimin içi göynəyir.

Günəşli günlərdə, yağışda, çəndə
Xəyalım dolanıb gedir o kəndə.
Əlvan çiçəklərin hər yaz gələndə
Başımın üstündə tacı göynəyir.

O nədir qəlbimi yandırıb-yaxan,
O kimdir həsrətlə yollara baxan?!
Ərləri şəhidlik taxtına qalxan
Cavan gəlinlərin saçı göynəyir.

Vətən harayına çatan əsgərin,
Özünü odlara atan əsgərin,
Şəhid məzarında yatan əsgərin,
Bəlkə, Xocalıda qıçı göynəyir.

Kövrək arzularla dolur sinələr,
Pozulur o növraq, o ənənələr.
Qovrulur, sızlayır qoca nənələr
Ürəkdə min ağrı, acı göynəyir.

Göylərə əl açıb "Allah!" deyənlər,
Hər sözün başında "sabah" deyənlər,
Günləri əliylə itələyənlər
Səhəri gözüylə açır, göynəyir.

Zülmət gecələrim səhər gözləyir,
Səpdiyim toxumlar bəhər gözləyir.
Gözüm "Xəbərlər"də xəbər gözləyir,
Ürəyim min yerdən sancır, göynəyir.

Bir də əlim çatmaz ötən çağlara,
Dodağım həsrətdir buz bulaqlara,
Könlüm qanadlanır o torpaqlara,
Qolum o yerləri qucur, göynəyir.

Dünyanın özündən əzəl Qarabağ,
Düşmən tapdağında xəzəl Qarabağ,
Gözəl sözündən də gözəl Qarabağ
Yanır, tüstülənir, uçur, göynəyir.

Sarayı olanlar yuvasız qalıb,
Əri əsir düşən gəlin, qız qalıb...
Bizim binada da atasız qalıb,
Körpə balaların üçü göynəyir.

Bağrı şan-şan olub dilsiz daşın da
Vətən savaşında, yurd savaşında.
Kövrək anaların doqqaz başında
Təndiri göynəyir, sacı göynəyir.

Həsrətdən gözləri dolan kəndlərə,
Bənizi gül kimi solan kəndlərə,
Yanıb qar altında qalan kəndlərə
Günəş də nurunu saçır, göynəyir.

Hayandan başlayır, hardadır Vətən,
Gör neçə ildir ki, dardadır Vətən.
"Qarabağ" kəlməsi dilində bitən
Qardaş sızıldayır, bacı göynəyir.

Ay Əşrəf, taleyim hey döyür məni,
Dağılmış bir sahman gözləyir məni.
Atamın məzarı səsləyir məni,
Mənimçün burnunun ucu göynəyir.

ƏLA

O uşaq arzumun uzaq mənzili
Əla görünərdi yaxından, əla.
Çoxundan pis idim dağdan baxanda,
Dərədən baxanda çoxundan əla.

Yatmadım, gözümü yuxu yandırdı,
Dilimi könlümün ahı yandırdı.
Sinəmi fələyin oxu yandırdı,
Yayına bilmədim oxundan əla.

Dərdim oynayanda "Kərəmi" üstə,
Dağlar yıxılardı şələmin üstə.
Milçəklər qonardı şirəmin üstə,
Uçdu xəzan vaxtı bağımdan əla.

Göylər qəzəbini tökər baxtıma,
Zülmət gecələri bükər baxtıma.
De, necə edim ki, bu kor baxtıma
Bu kor gözlərimlə baxım mən əla.

Köhnə çəpərliyə bağlıq deyənlər,
Alçaq təpəliyə dağlıq deyənlər,
Solumda, sağımda sağlıq deyənlər
Çəkildi solumdan, sağımdan, əla.

De, harda yatmısan, boz qurd balası,
Çox yatma, olarsan manqurt balası.
Qar üstə iz salan ac qurd balası
Quduz köpəklərin toxundan əla.

Öyrət yeriməyi, öyrət yollara,
Bu bağlı yollara, bu sərt yollara,
Bir gün işıq düşər zülmət yollara,
Məşəllər alışar ahımdan əla.

AĞLAYA-AĞLAYA

Bu dünya nə olan şeydi,
Bildik ağlaya-ağlaya.
Açdıq ağlaya-ağlaya,
Solduq ağlaya-ağlaya.

Bir tamsa da, kəsirsə də.
Baş açmadıq nə sirsə də.
Beşiksə də, qəbirsə də,
Gəldik ağlaya-ağlaya.

Qana-qana, bilə-bilə,
Yana-yana döndük külə.
Yaşamadıq gülə-gülə,
Güldük ağlaya-ağlaya.

DƏNİZƏ GEDƏCƏYƏM...

Silkələyib içimdən
süstlüyü, durğunluğu,
Əynimdən paltarımtək
çıxarıb yorğunluğu,
Dəniz damlası kimi,
dəniz dalğası kimi
Çırpacağam özümü
ulduzların üstünə.

Bir gecəlik olsa da
qaçacağam
tramvayın, maşının,
relslərin səsindən.
Çıxacağam bir ömrün
“Səhər-işə,
Axşam-evə”
adlanan
boyat dairəsindən.
Ay-balıncı
çəkəcəyəm
başımın altına,
qalxacağam bu gecə
göyün yeddi qatına.
bir damla da qonacaq
O gümüş ləpələrin
səmavi dünyasına,
girəcəyəm
balıqların
o mavi dünyasına.

Bulud-bulud dalğalar
atıb-tutacaq məni.
Balıqların beşiyi
ovunduracaq məni.
Düşüncələrimin tozu
yuyunacaq sularda.
Bənzəyəcəyəm
bu gecə
dəniz kosmonavtına,
sürəcəyəm gəmimi
göyün yeddi qatına.
Könlüm istəyən qədər
ulduz dərəcəyəm.
Dənizə gedəcəyəm bu gecə,
dənizə...

YAŞADIM

Dünyaya gəlib yaşadım,
Ağlayıb-gülüb yaşadım.
Mən yaşayıb ölmədim ki,
Mən hər gün ölüb, yaşadım.

Qeydimə qalan gözəlin,
Dərdlərə salan gözəlin,
Canımı alan gözəlin
Qadasın alıb, yaşadım.

Boşlamalı dünya deyil,
Xoşlamalı dünya deyil.
Yaşamalı dünya deyil,
Üzümə salıb, yaşadım.

SƏNİ GÖRMƏYƏYDİM GÖZLƏRİ YAŞLI

Göylərin çırağı nə vaxt sönübdür,
Nə yer yerindədir, nə göy yerində.
Dünya iki damcı yaşa dönübdür,
Asılıb fikirli kirpiklərində.
Qışın əlindəmi yazın yaxası,
Xəzan tezmi əsib – tez xəzəl düşüb.
Elə bil duyğusuz bir natarazın
Bəxtinə qənirsiz bir gözəl düşüb.
Üz vermə, qayıdıb o gələr yenə,
Kədərə nə var ki, üzlü qonaqdır.
Sonra qapını da çırpsan üzünə,
Bacadan içəri soxulacaqdır.
Ona ürəyində yer vermə barı,
Yoxsa məhv olarsan qəm savaşında.
O gül sinəndəki gül arzuları
Yandırıb kül eylər qönçə yaşında.
Olma taleyindən könlü gileyli,
Yoxsa çətin düşər qəmin zirvədən,
Çıxar qəm dağına zavallı Leyli,
Füzuli yüksələr həmin zirvədən.
Öz Məcnun könlümlə qəm səhrasından
Mən də adlayardım dərdli, tələşlı,
Təki bu dünyada heç vaxt, heç zaman
Səni görməyəydim gözləri yaşlı.

Üz solğun, baş açıq, paltarsa nimdaş...
Qara şal sürüşüb qalıb çiynində.
Qonub gözlərinə iki damla yaş,
Qanmı laxtalanıb gül ləçəyində?
Yaxın sandıqlarım daha yan durur,
Bilmirəm heç necə qovum təkliyi.

İndi qəm yandırır, kədər yandırır
Könlümü yaşadan bir gözəlliyi.
Həzin bir sükutdan donur təbiət,
Soyuq ürəklərə sanki qar yağır.
Sən baxan yerlərə ayrılıq, həsrət,
Mən gedən yollara intizar yağır.
Bəxtim ayrı salıb özümdən məni...
Eh, yenə dərdlərim başımdan aşdı.
Tale eyləyəydi gözümdən məni,
Səni görməyəydim gözləri yaşlı.

VAXT QATİLLƏRİ

Hər gün neçə-neçə qayğı gətirər,
Fikirlər qurd kimi daraşar bizə.
Bizsə vaxt qatili, zaman qatili,
Cani də desələr, yaraşar bizə.

Yaşayıb, yaradıb ömür sürməyi,
Nəğmə zənn eyləyib, nağıl biliblər.
Müdrik ağsaqqallar vaxt öldürməyi
Adam öldürməkdən ağır biliblər.

Heyif! Ömrümüzü bir qədəh kimi
Qaldırıb başına, içən günlərə.
Şərab stolunda, nərd arxasında,
Məmur qəbulunda keçən günlərə.

Neyləyək? Biz haram qata bilmərik
Tənbəl ayaqların yerişinə də.
Çox vədə vaxt tapıb gedə bilmərik
Doğma insanların görüşünə də.

Növ-növ oyunlarla baş qatarıq biz,
Çox vaxt uduzarıq, bəxtimiz olmaz.
Vaxtı öldürməyə vaxt taparıq biz,
Vaxtı yaşatmağa vaxtımız olmaz.

ÇƏKİR

Çox da qəm eyləmə, ey dəli könlüm,
Qəmi qəm gətirir, dərdi dərd çəkir.
Şivlər pöhrələnib üzə gülüncə
Köklər qar altında nə zillət çəkir.

Nə ağac bar verər, nə də gül açar
Üstündən qara gün sovuşmayınca.
Bir nəsil ağ günə qovuşmayınca
İynəylə gor qazır, müsibət çəkir.

Gözəl Qarabağın acı həsrəti
Ömrümü talayır, könlümü didir.
Orda uşaqlığım əsirlikdədir,
Burda qocalığım xəcalət çəkir.

"Yazmaq hər şeydən əvvəl və hər şeydən çox özünü aramaqdı" – deyən türk yazıçısı Bəxtiyar Aslan "Qalayçının dediyi", "Cənnətin son saatları", "Kəndin xəbəri yox", "Günəbaxan" hekayə kitablarının müəllifidir.

"Su" şeirlər kitabı, "Muhan Baliyə məktublar", "Bitməyən reportajlar..." araşdırma müsahibə kitabları da Bəxtiyar Aslan yaradıcılığının başqa bir qanadıdır.

Yazıçıya daha çox uğur qazandıran isə özünəməxsus üslubda qələmə aldığı sürrealist hekayələridir.

Qorxunun aynasında

Bəxtiyar ASLAN

Bəzən kövrəkləşir Münir Nurəddinin səsi. Münir Nurəddinin səsi ha...

– Sən nə deyirsən, Şərif qardaş? Daha doğrusu, nə buyurursan?

Cavab verərkən atlarını dünyanın üstünə sürən Çingiz xanın təbəssüm edib-etmədiyini də nəzərə al, nə olar. Demək, birinci hekayə sənə, ikincisini oxu, dedi; ikincisindən də birincisinə qayıt həmən...

Yox, yox, bu təbəssümü hesaba almamışdın sən, bu qədər təbəssümlü ola bilməzdi Çingiz xan.

Masada üzüm olacağını hələ nərdivandaykən bilirdim. Olmasını istəyir, olacağını bilirdim. Lakin mor deyil, ağdı. Ağ dedimsə, payız ağı... Bilirsən sən, payızda ağ üzümün get-gedə işıqlaşan, şəffaflaşan bir rəngə büründüyünü. Həm də hər kəsdən yaxşı...

Sənə onu tərifləyəcək deyiləm, həddimizi bilirik.

Amma sənin bildiklərini açıb-ağartmasam, yazdığımız şey hekayə olmaz, Şərif qardaş!

Gözlərini bərəltmə belə, imkan ver yazım. Bəyənməsən, zorla oxutduracaq deyilik.

İt-filan bəsləməyim də var mənim. Hətta bir quzum da oldu. Çoxlu quzuların arasından bir quzum. Anlatsam hələ köpəyi – adını niyə yada salım ki, bir ölüb getmiş yazarın hekayəsinə bənzəyəcək, sonra sən onun kim olduğunu biləcəksən. Mətnlərarası...

Belə deyib sivişib çıxmağı da yaraşdıra bilməzsən mənə. Amma yenə də söyləyim: Tək bir uşaq örtüyü üçün – tam mənasıyla tək bir, körpəcə, tək adamlıq – onu bir çuvalın içinə qoyarkən ağladığını görərək – sırf anam, sırf bacım istədiyi üçün – onunla birlikdə ağlayaraq – üstəlik həmişə boynuma atılan; əlimi, üzümü yalayan zavallı ilk dəfə məndən qaçırdı, duymuşdu, deyəsən, neçə kərə aldadıb inandırdım, istədim bir şey etməyəcəyimi sansın, çuvalı görər-görməz qaçdı, yenə inandırmaq istədim, yenə gördü çuvalı, yenə qaçdı, amma axırda yaxaladım; ağladı, gözlərindən yaş axdı; ağladım, gözlərimdən yaş axdı, burnumun suyunu qolumun ağzıyla sildim, gözlərimi əlimin arxasıyla – qaraçılara təslim etdim; ürəyim parça-parça, tikə-tikə getdi o qırmızı mikroavtobusun arxasınca.

O örtüyü bir dəfə də belə örtmədim üstümə. Yəni o ölmüş yazar vardı ha, iti arxasıyca qaçırdı, bir maşının arxasıyca, bu səfər mən iti aparan maşının arxasıyca qaçırdım çarəsiz. Sevmək belə bir şeydi, Şərif qardaş. Yaxşısını sən bilirsən.

Bir də quzum vardı mənim, quzularımın arasında bir quzu. Onun da başqa bir köpəklə, daha doğrusu, itlə yaxınlığı vardı, bilmirəm anladınmı? "Küçükdü bu, qızım, küçük!" – deyir, qarnındakına işarə edərək. Qan-tər içində oyanıb gözləyir aylarca. "Birdən küçük doğsam!" – deyə. Ancaq qapqara bir şey doğdu, əlləri və ayaqlarıyla, üzüylə, gözləriylə insan olan bir şey... Yenə də onun insan olmadığını, olmayacağını bilirdi. "Əfəndim..." – deyir, "Küçükdü bu, qızım, küçük, dedi bir kərə" – deyir. "İt kimi yaşadı, it kimi böyüdü, it kimi yedi-içdi".

Çox qorxutdular bizi. Uşaqlar yatsınlar deyə onun adını çağırardılar bir vaxtlar. Taxta nərdivanları qaçaraq, tıqqıldadaraq çıxardı. Eyni səslərlə də yenərdi, şübhəsiz. Ancaq yenməsi, çıxıb gedəcəyini bildirdiyindən o səs mənə pis səs kimi gəlməzdi. Mənə və düşünürəm ki, hər kəsə. Getsin də, haraya gedirsə getsin. Cəhənnəm olsun! Belə arzulanan bir it idi o.

Kim, ya da kimlər – anam, nənəm, xalam və bacılarımdır zərər verdiyim, amma hekayənin bir gerçəyi olaraq soruşuram bu sualı və əlbəttə, sən də bunu bilirsən, amma dedim ha, sənin bildiklərini deməsək, hekayə olmaz yazdıqlarımız – unutdusa məni taxta nərdivanlı evin zalında, onun nərdivanlardakı ayaq səslərini qorxunun ta özü olaraq duyduğum və yenə qorxunun böyüklüyündən və ağırlığından səsimi çıxarmadığım o günorta naharından sonra pəncələriylə köhnə kilimləri, xalçaları tapdayaraq yanıma gəldi və çiyinlərimdən tutaraq qaldırdı, sonra kimsə görmədən bığlarını üzümə batıraraq öpdü. Gözlərində bir zərrəcik işıq görünmüşdü, bir zərrəcik təbəssüm etmişdi. Bu qədər qorxunu unutduran bir təbəssüm idi və əslində, dil açıb danışmağı belə bilmirdim. Balacadan da balaca idim. Bəlkə, onun itliyini duymaq üçün daha bir neçə il keçməliydi. Hər şey o qədər keçmişdə qaldı ki... Onun itliyini bilə bilməyəcək yaşda olmalıyam. O oldu, bir daha heç sevmədi məni. Məni və kimsəni... Sevgisini bir dəfə, o da oğrun-oğrun ifadə etdi belə. İçindəki it icazə vermədi bir daha.

* * *

Qorxunu orada, o qısa sürən ifadədə üstələdim mən. Amma bunun çox pis bir şey olduğunu çox keçmədən başa düşdüm. Qorxu olmadan yaşamağın çatışmayan bir tərəfi vardı. Hətta çox zaman büsbütün yaşamaq mənasızlaşırdı. İnanmayacaqsız, amma ilk intihar təşəbbüsünün səbəbi də qorxusuzluq idi.

Nə isə, indi onu anladacaq deyiləm. Ya da istəsən, anlada bilərəm, Şərif qardaş. Amma istədiyini söyləyə bilmərsən ki... səni hekayəmə müdaxilə etməyəcək, istəsən də etməyəcək bir qəhrəman olaraq düşündüm. Boş yerə bərəltmə gözlərini. Sonra gözlərindəki hərəkətlərlə dəli olduğuna dair Çingiz xanı atından endirən bir gözəlləmə yazaram, peşman olarsan. Adını dəliliyə çıxararam, and içirəm. Ancaq həddimi bilirəm mən.

Kimsənin küçəyə çıxmağa cəsarəti çatmadığı qaranlıq qış gecəsində qorxunu axtardım küçə-küçə. Bəzən kənddən çıxaraq, bəzən məzarlıqları dolaşaraq, cinlərin təpəsində düyün vurduğu söyüdlərin altında yataraq; izsiz göl başlarında, küllüklərdə dəstamazı pozaraq – inan, sırf qorxuyla görüşmək üçün elədim bunları, yoxsa belə əxlaqa yaraşmayan şeylərə adət etməmişəm – əmimin aciz bir qarı qılığıyla gələn cini qırtlaqladığı və çoxdan xarab olmuş su dəyirmanında gecələr boyu aşağıdakı vadinin səsini dinləyərək qorxunu axtardım mən. Güzgü fikriylə də ilk dəfə bu axtarış əsnasında rastlaşdım.

Qaranlıqda, zil qaranlıqda görüşdüm güzgü fikriylə. Bəlkə, qəribə gələcək sənə. Sənə deyilsə belə, hekayə oxumağı bilən insanlara...

Qaranlığın ən qatı olduğu zamanlar insanın özünün özünə ən yaxın olduğu zamanlardı mənə görə. Sən olmasan, "Mənə görə..." filan deməzdim, Şərif qardaş. Bunun cümləyə dəxli olmadığının fərqindəyəm. Tilsimi pozulur. Təbii, əgər varsa. Yoxdursa, "yox" de. Amma deyə bilmərsən ki...

Sən heç bir şeyə müdaxilə etməyən qəhrəmanımsan mənim. Bütün qəhrəmanlığı əlindən alınmış bir qəhrəman! Süngüsü düşmüş əsgər kimisən sən bu hekayədə. Bunu bilərək, istəyərək və hətta böyük bir ləzzət alaraq edirəm. Budur, etiraf edirəm. Amma burada psixoloqluğa yer yoxdu. Axtardığını tapmayacaqsan. Gözlərini bərəltmə.

Qışdı və gözlənilən, qaçılmaz olduğu üçün gözlənilən qar yağmamışdı hələ. Evlərdə, ocaq başlarında qadınlar uşaqlarına, qoca qarılar nəvələrinə ən qorxulu hekayələri, nağılları danışır, gecənin vahiməsini böyüdürdülər; gecənin və qara qışın. Soyuq, şaxta onların dilində dünyanın ən çirkin qoca qarısı olur, göyün bir yerində oturub saçlarını, ta yerə qədər uzanan kirli saşlarını darayır, saçlarından tökülən kəpək və bitlər də qar olub yağırdı. Sonra yerə enib çiynindəki – onlar qıldan toxunmuş olduğunu söyləmirdi amma mən onun qıldan olduğunu bilirdim – heybəyə uşaqları doldurub aparırdı. Apardığı uşaqlardan bir daha xəbər-ətər çıxmırdı. Uşaqları yediyini düşünürəm. Amma o çirkin, çox çirkin qadına axıra qədər baxmaq məcburiyyətində qalmaq olduqca qorxulu olmalıydı. Əmin deyiləm buna tam olaraq. Çünki qorxunu aşmışdım bir kərə. Bəlkə də, itirmişdim. Doğrusu, bu olmalıdı, çünki onu axtarırdım. İnsan bəzən belədi, itirdiyi şeyi hərdən illərcə axtarır, axtarmaq məcburiyyətində qalır. Eşq belə bir şey deyilmi, Şərif qardaş? Nə zaman anladacaqsan, anlat xilas ol.

Qorxu hekayələrinin bir yerində və hamısının qorxusunu yedəyimə alaraq küçəyə çıxdım, kəndin meydanına doğru qaçdım. Zil qaranlıq idi və burnumun ucunu belə görmürdüm. Sadəcə, addımlarımın yaddaşına sığınaraq qaçırdım. Barmağımı uzadanda qaranlığa toxunduğumu hiss edirdim. Elə kəsif bir qaranlığıydı ki. Dedim ha, güzgü fikriylə belə bir qaranlıqda rastlaşdım, onunla belə bir qaranlıqda da görüşdüm. Bəli, ta günəşin doğduğu yerlərdən bəri dünyanın hardasa yarısını tutan qaranlıq diyirlənə-diyirlənə qar kütləsinə çevrilib qranitləşmiş və gəlib lap burnumun ucunda durmuşdu. Başqa bir yolu yoxdu. İncə bir pərdə kimiydi və ona toxuna bilirdim. Mən qaçdıqca o da önümdən yüyürdüyü üçün o pərdənin qarşısına keçə bilmirdim.

Kənd meydanına belə-belə, o qabaqda, mən arxada gəlib çatdıq. Sonra dayandı, ona burnumun ucuyla toxundum. Toxundum və özüm özümü gördüm. Güzgünün işığa ehtiyacı olmadığını oradaca, o anda qavramış oldum. Sən istəyirsən buna, "hər şeyin əksinə gedən kamala çatar" – de . Deyərsənmi belə bir şeyi? İstəyirsən, sus, sus və hekayə qəhrəmanı olduğunu xatırla. Qəhrəmanlığın sırası da, yeri də deyil.

Gah barmağımın, gah burnumun ucuyla qaranlığa toxuna-toxuna kənddən çıxdıq, gedib qəbiristanlığın ortasında çömbəldik. Yol boyunca heç bir şey görmədiyim üçün təhlükənin ta yanıma qədər yaxınlaşacağını düşünərək qorxunu axtarmaq istədim. Amma ağlım bunu bir neçə saniyə içində oyuna çevirə bildi və "Mən görmədiyimə görə təhlükə də məni görməz" – şəklində bir qərarla sovuşdurdum.

* * *

Təxmin etdiyim kimi, gecəni qəbiristanlıqda keçirdim. Əvvəlcə əllərimlə bircə-bircə bütün qəbirləri yoxladım. Ən təzə və əslində, ən yumru olan qəbri axtarırdım.

Axıra yaxın, qabaqda qaranlıq bir göl və gölün ətrafında söyüd ağacları olduğunu bilirdim – iki təzə qəbir tapdım. Sanki torpaq hələ nəmiydi. Onları yoxlayarkən küləyin belimdə bir əl kimi dolaşdığını hiss etdim. Qorxunu tapmaq ümidiylə geri dönüb baxdım, əllərimlə onu axtardım. Amma, sadəcə, üşüdüyümü hiss etdim, bu qədər. Sonra iki məzarı sipər edərək arasına uzandım. Bunu son dəfə hansı it eləmişdi, bilmirəm. Bəlkə də, bunu, məni bircə dəfə öpən, gözləri bircə dəfə işıldayan itdən soruşmalıydım. Mütləq bir cavabı vardı. Amma soruşmadım. Bəlkə, yatdım, bəlkə, yatdığımı sandım, bəlkə də, yatmış olduğuma inandırdım

özümü, dəqiq bilmirəm. Bəlkə, bir dəqiqə, bəlkə, bir saat, hətta, bəlkə də, sadəcə, az bir vaxt keçmişdi.

Bəlkə, hər şeyi burada bitirməliyəm. Uzağı bir hekayə deyilmi? Sonrası sənə qalsın, Şərif qardaş, ne deyirsən? Dediyim kimi, uzağı bir hekayə deyilmi?

Deyil, Şərif qardaş, hekayə – filan deyil hələ.

Torpağın çartıltısını eşitsəydin, ən azı mənim qədər sən də inanardın.

İki yanımdakı məzar eyni vaxtda gurultuyla yarılmağa başladı. Qaranlığın pərdəsində bir qorxu filmi oynayırdı sanki. Olub-bitən hər şeyi açıq-aydın gördüm, Şərif qardaş, kim görsə qorxardı, bağrı yarılardı. Ancaq qorxmadım, qorxmağa məcbur etdim özümü, bəlkə də, qorxmadığımı sandım yaxud. İki adam yatdığı yerdən dikəldi. Qalxarkən ətrafa yayılan, sıçrayan torpaqlar üzümə-gözümə doldu. Əlimlə üzümü silmək istədim, o dəqiqə də vaz keçdim. Görünmək istəmirdim. Onlar məni görməməliydi. O anda səbəbini tapıb çıxarammadım, amma onların məni görməsini istəmirdim. Adi bir görünməmək istəyi deyildi bu. Bu istəyə yoldaşlıq edən daha bir şey vardı. Bunun qorxu olduğunu kim deyə bilər ki? Qorxmurdum, əlbəttə. Qorxsam, qorxunu tapdığıma sevinəydim gərək. Amma indi sevinmirdim. Eləcə uzandığım yerə sinərək, torpağın içinə çəkilərək, torpaqda itərək olanları seyr edirdim. İki ölü, iki ölü bir-birlərinə baxdılar. Gözlərinin yuvaları boşuydu, deyəsən. Yenə də baxırdılar.

Yaxud mənə elə gəldi. Bütün bunlar, bütün bu gecə ağlımın bir oyunu da ola bilərdi. Külək əsdi təkrar, uğuldadı, saçlarını sovurdu, saçlarının arasından qopan torpaqlar üstümə töküldü, qımıldanmadım, nəfəsimi tutdum, ağzıma, burnuma torpaq dolmağa başladı, tüpürəmmədim, öskürəmmədim, eləcə durdum. Birbirlərinə başa düşülməyən dillə zarıyaraq, qorxulu səslər çıxararaq nəsə deyirdilər.

Bir-birlərinin üzərinə əyildilər. Birinin kişi, digərinin qadın olduğunu yəqinləşdirdim nədənsə. Sonra, əslində, orada tək bir məzar və məzardan çıxan tək bir ölü olduğunu, digər məzarın və ölünün gecənin güzgüsündəki əksindən başqa bir şey olmadığını düşündüm. Amma, doğrusu, hansının əksi, hansının gerçək olduğunu bilmədim. Hətta, bəlkə də, ortada məzar da, ölü də yox idi, bütün bunlar zehnimin mənə oynadığı bir oyundan ibarətdi. Qorxunu beləcə tapacaqdım, bəlkə. Zehnim belə bir çıxış yolu uydurmuşdu.

Münir Nurəddinin səsi titrəyir, Şərif qardaş.

Səhər tezdən oyananda hardasa kəndin bütün başbilənlərinin başıma toplaşdığını gördüm. Qabaqda halqa şəklində kişilər dayanmışdılar, onlardan arxada qadınlar görünürdü. Uşaqlar heç bir yerdə gözə dəymirdilər. Tutub qaldırdılar məni, üstümə bir uşaq örtüyü örtərək – nağıl etdiyim, hansı ki, iti verib qaraçılardan aldığımız uşaq örtüyüydümü, əcaba? Bunun cavabını hələ bilmirəm – götürüb qarşıdakı bir məzar daşının daldasında oturtdular.

Gecə boyunca qurdların, itlərin ulamasından yata bilməmişdi bütün kənd. Səhər açılar-açılmaz toplaşıb səsin gəldiyi yerə – məzarlığa gəlmişdilər. Daha bir neçə gün əvvəl öldürülən iki sevgilinin məzarının başına gələndə hər şey aydın olmuşdu. Qurdlar iki cəsədi də çıxararaq parçalamışdılar.

* * *

Niyə mənə toxunmadıqlarını çox düşündüm, Şərif qardaş. Düşündüm və o gecəni təkrar-təkrar bir kino pərdəsində oynayıb seyr etdim. Kəndlilərin xəyal etdiyindən çox fərqliydi mənim gördüklərim. Qorxuya yaxınlaşdığımı, onu tapmağıma çox az qaldığını hiss etdim hər seyr edəndə. Amma yenə də tapammadım. Ancaq yenə zehnimin icad etdiyi bir sual məni qorxuyla görüşdürdü.

Cəsədləri parçalayan mən ola bilərdimmi?

Qorxa biləcəyim tək şey bu sualın cavabının “hə” olmasıydı.

O itə gəlincə... Yəni bığlarını yanaqlarıma batıraraq məni öpən it vardı ha, o mənim quzumu alıb apardı. Quzularımın arasından quzumu... Arxasınca baxıb, baxıb ağladım, Şərif qardaş.

Azərbaycan dilinə
uyğunlaşdırdı:
Təranə Vahid

Mən sənin gözündə tərəzi gördüm

Hörmətli yazıçımız Anarın 80 illiyinə ithaf

Alıb səksən ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər,
Budağın mübarək, kökün mübarək!

Nələri düşündün ömür yolunda,
Düşdün ədalətin, haqqın izinə.
Bir para adamlar güzgülənəndə
Zamanı güzgütək tutdun üzünə.

Bəxtin hər deyəndə gülmür ki üzü,
Sətirlər göyərdi ümidlərində.
İsti xəyallarla yazıb "Sizsiz"i
Üşüdün "Şəhərin yay günlərində".

"Gecə zəngləri"nə səksənən adam,
Neçə axşam qalıb, səhər keçməyib.
Daha köks ötürüb, "Gün keçdi" demə,
Keçdiyin ömür-gün hədər keçməyib.

Köksünə sığmayıb eşqinin odu,
Ürəyin bir dünya odmuş, ocaqmış.
Sinəsi xəzinə "Dədə Qorqud"u
Gör neçə Qorqudlar yaşadacaqmış.

Ağa ağ deyənim, qaraya qara,
Nadanın haqqına qərəzi gördüm.
Çoxunun əlində daş-tərəzi var,
Mən sənin gözündə tərəzi gördüm.

İllər gülə-gülə qaçsın üstünə,
Xoş ayın, xoş günün, xoş halın olsun.
Ömrün hələ neçə mərtəbəsində
Təki yaratmağa "Macal"ın olsun.

Alıb səksən ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər.
Budağın mübarək, kökün mübarək!

Fərqanə MEHDİYEVA

DƏRGİDƏ KİTAB

Qum saatı

Xəlil ADIGÖZƏL

DÜZƏLƏCƏK...

Sənin nə dünənin, nə sabahın var,
Mənimsə bu günüm! Yox, düzələcək!
Nə ki günahın var, nə ki ahın var,
Allahın üstünə yıx, düzələcək.

Zamanı sürətə vur, çəkiyə böl,
Topla, üst-üstə gəl, ən yekəyə böl,
Bütün rəqəmləri yığ, ikiyə böl,
Cütlərdən təkləri çıx, düzələcək.

Külək sovuracaq qum ürəyini,
Tamam bürüyəcək qəm ürəyini,
Hərdən daşa dönmüş mum ürəyini,
Hərdən də dişini sıx, düzələcək.

QUM SAATI

Çoxdan tərk edilmiş guşədir dünya,
Bu ömür bir insan ömrü də deyil.
Tərsinə çevrilmiş şüşədir dünya,
Fırlanıb eləmir, yumru da deyil.

Bəlkə də, haçansa yupyumru olub
Fırlanıb oxundan çıxana kimi.
Ağzına, gözünə toz-torpaq dolub
Tanrı ortasından sıxana kimi.

Axıram zamanın qum saatına,
Neçədən keçibdir, neçəyə qalıb?!
Baxıram ömrümün kəm saatına,
Gündüzdən keçibdir, gecəyə qalıb.

Başladı dünyanın kədəri, qəmi,
Keçmədi nə yağış, nə qar boğazdan.
O gündən hamımız bir nəfər kimi,
Keçməyə məhkumuq bu dar boğazdan.

Hələ də göylərdən çəkilmir gözü,
İnsanın xəmiri qəmdən yoğrulub.
Niyə anlamırsız, şüşənin özü
Qızmar bir atəşdən, qumdan yoğrulub.

Sürünmək dizləri incidir ancaq,
Başın ağrısından dizə nə axı?!
Bizimki şüşənin içidir ancaq,
Dünyanın çölündən bizə nə axı?!

Çıxıb ağzınızdan ərşə çəkilən
Nə fayda var axı bu səsdə-küydə?!
Niyə anlamırsız, göyə dikilən
Gözlərin əksidir ulduzlar göydə...

Bu şüşə dünyadan qaça bilmərik,
Dünyanı su basmaz çox ağlamaqdan.
Biz qanad açsaq da, uça bilmərik,
Əl çəkin şüşəni cırmaqlamaqdan.

...Bir də ki, nə gələr əlindən sonra?
Qurduğun xəyallar dəymir, kal çıxır.
Niyə anlamırsız, ölümdən sonra
Torpağın altından göyə yol çıxır...

Ölüm kəsələyir çətin yolları,
Böyük balacadan, çox azdan keçir.
Bu şüşə dünyanın bütün yolları
Tanrının sıxdığı boğazdan keçir.

MƏN ÖZÜMDƏ DEYİLDİM...

Bir təsəlliyə sarıl,
Sarıl ki, çox üşümə,
Bağışla ki, gecikdim
Sənlə son görüşümə.

Yollar yubatdı məni,
Şahidimdi günəş, ay.
Məndən olsa... bağışla!
Sən Allah, üzrlü say.

Necə izah edim ki,
Hər tərəf sazaq idi.
Neyləyim ki, vaxtım az...
Yolum çox uzaq idi.

Elə bil aramıza
Kimsə hasar hörürdü.
Nə söz-sözü tuturdu,
Nə göz-gözü görürdü.

Sən bildiyin taqətdə,
O dözümdə deyildim.
Sən mənə gələn günü
Mən özümdə deyildim.

“SÖNMÜŞ OCAQ İZLƏRİ”

Od püskürür insanların gözləri,
Ömrümüzün qış çağıdır, bəlkə də.
Yer üzünün sönmüş ocaq izləri
Bu dünyaya göz dağıdır, bəlkə də...

Başımızda cücərdikcə təzə dən
Kül oluruq, yenə başa dönürük.
Bu dünyada köz-köz olub, təzədən
Alov-alov alışmaqçün sönürük.

Həyat bizi közümüzdə yandırıb,
Biz hamımız üzüqara kömürük.
Arzuları gözümüzdə yandırıb,
Söndüyümüz buz yerlərə gömürük.

Bir qığılcım umuruq hər çatandan,
Özümüzü aldadırıq, danırıq,
Kimsə bizi bu dünyada çatandan
Tüstüləyib sönənəcən yanırıq.

Heç ölüm də çarə deyil bu dərdə,
Sən yanarsan, həyat sönər gözündə.
Dərd-sərindən alışarsan, bu dəmdə
Kimsə gəlib kabab çəkər közündə.

Ümidlərin canı çıxar ürəkdə,
Üz-gözünü odun yaxar, qovurar.
Hələ hirsin soyumamış, külək də
Küllərini yerə-göyə sovurar.

Şairlərin kül olmaqmış günahı,
Yandırdılar, qızındılar istimə.
Bircəciyi su səpmədi, İlahi,
Bu közlənən ürəyimin üstünə.

ŞÜBHƏLƏR...

İlahi, qəlbimdən yu şübhələri,
Kimləri gözümdə fərd eləmişəm...
Haçandır saxlayıb bu şübhələri,
Böyüdüb içimdə qurd eləmişəm.

Anladım, kim yazıb tale yazımı,
Tanıdım ayaqlar altda izimi,
Gör neçə illərdir iki gözümü
Göyün yollarında dörd eləmişəm?!

Çoxdandır sevməyi Sənə itaət,
Namusu, qeyrəti təqva, ibadət,
Göz yaşı tökməyi sevinc, səadət,
Gülməyi özümə dərd eləmişəm.

Aqil olan gərək seçə namərdi,
Çözə, tapmacatək aça namərdi,
Mən ağlım kəsəndən neçə namərdi
Qovub bu dünyada mərd eləmişəm.

Nə çoxdur dünyada satan, satılan,
Nə çoxdur gözləri haqqa tutulan,
Min tasdır üstündə "sə bir" atılan,
Sinəmi həyata nərd eləmişəm.

SUS!

Sən də qələmimtək susursan birdən,
Susursan, susursan, kəlmə demirsən.
Getmişəm gəldiyim yerə kimi mən,
Gedirəm-gəlirəm, "gəlmə" demirsən.

Bir dəfə sözünü salmadım yerə,
Nə dedin, dedim ki, düzdür, doğrudur!
Bəs niyə hələ də xatirələrə
Dəyməsəm, sızlayır, dəysəm, ağrıdır?!

Yalanmı? Deməzsən, alışdırardın...
Desən, eləməzdi naz bəbəklərin.
Desən, əllərini ovuşdurardın,
Desən, böyüyərdi göz bəbəklərin.

Bəs niyə qaralıb ağappaq üzün,
De, kimlər saçını ucundan hörür?
Sənə nə olub ki, ala gözlərin
Rəngarəng dünyanı ağ-qara görür?!

İsti göz yaşların gözündə donub,
Soyuqdur əlinin silahı belə...
Görəsən, dünyamı tərsinə dönüb?
Bu necə baxışdır, İlahi, belə?!

Sükutdan o yana inilti başlar,
Divarlar tərpənir yerindən, susmur!
Elə susursan ki, qayalar, daşlar,
Ölülər bu qədər dərindən susmur.

Ümidlər ovcumda saralıb-solur,
Gözümün yaşını tökürəm, olmur.
Bu necə dərddir ki, çəkirəm olur,
Önündə diz üstə çökürəm, olmur.

Əgər danışmağa üzün yoxdursa,
Yüngüldən-ağıra susursansa, sus!
Susmağın üstünə sözün yoxdursa,
Əvvəldən-axıra susursansa, sus!

ATEİSTİN YALNIZLIĞI

Sinəni yararsan, qəlbin daş çıxar,
Qurduğun xəyallar dağılar yenə.
Girib ürəyinə əliboş çıxar,
Lənətlər yağdırar oğrular sənə.

Qovub, arxasınca daş atdıqların,
Ömründən illərlə yaş atdıqların,
Bilməzsən, gün gələr, yaşatdıqların
Səmtini dəyişər, doğrular sənə.

Bilirəm, savabın dönüb günaha,
Kövrələ bilmirsən indi hər aha,
Qalmayıb heç nəyə inamın daha,
Ağ yalan görünür doğrular sənə.

Yanıb kül olursan, hiss eləmirsən,
Susub pis olursan, səs eləmirsən,
Sən ki öz ruhunu hiss eləmirsən,
Neyləyə bilər ki, ağrılar sənə?!

YAYIN QIŞ SEVDASI...

Çıxart bu sevdanı, çıxart başından,
Sənin də ağrından, acından keçməz.
Kimsə bu sevdanın keçib qışından,
Neyləsən qapqara saçından keçməz.

Dərd-səri başından aşan adamlar,
İçindən qaynayıb-daşan adamlar,
Özündən didərgin düşən adamlar
Adi adamların köçündən keçməz.

Həsrəti gözündə qor olanlara,
Vücudu ruhuna dar olanlara,
Yoxluğa qarışıb var olanlara
Dünyalar versən də, heçindən keçməz.

Minlərlə müşküldən, çətindən keçən,
Göylərin yeddinci qatından keçən,
Mənim qış sinəmin altından keçən
Sənin yay ağlının ucundan keçməz.

Tapdana-tapdana gərilən yollar,
Gündə yüz yol ölüb-dirilən yollar,
Sənin ayağına sərilən yollar
Mənim əllərimin içindən keçməz.

Neyləsən qapqara saçından keçməz,
Kimsə bu sevdanın keçib qışından.
Sənin də ağrından, acından keçməz,
Çıxart bu sevdanı, çıxart başından...

BƏLKƏ DƏ...

Niyə bağlanırlar ona bu qədər?
Bəlkə, bir özgənin, yadındır dünya?!
Bəlkə, yaşamaqdan bezmiş, usanmış,
İsməti tapdanmış qadındır dünya?!

Masmavi dənizlər gözünün rəngi,
Ulduzlar üzünün həyası, arı.
Küləklər saçına çəkilən sığal,
Hündür şəlalələr ipək saçları...

...Meşələr ayıbın örtən yaylığı,
Bəlkə, sinəsidir dağlar dünyanın?!
Şimşəklər ürəkdən ahını çəkər,
Buludlar dərdinə ağlar dünyanın?!

Əsrlər, bəlkə də, yorğun addımı,
İllər barmağının qarışlarıdır,
Yollar – ovcundakı tale yolları,
Dərələr – alnının qırışlarıdır?!

Tanrı körpə kimi, bir uşaq kimi,
Hər gün yırğalayar, beşiyin çəkər.
Gündüzlər al günəş, gecələrsə ay
Növbəylə dünyanın keşiyin çəkər.

Adını zalım da qoyanlar oldu,
Neçə “yola salıb”, dığırlayıblar.
Bəlkə də, dünyanın sevən qəlbini
Başqa bir dünyadan oğurlayıblar?!

ÖYRƏNİRƏM...

Bir şairin əsərində
Kiriməyi öyrənirəm.
Misraların üzərində
Yeriməyi öyrənirəm.

Qıvrılıram söz üstündə,
Qovruluram köz üstündə,
Sovruluram buz üstündə,
Əriməyi öyrənirəm.

Danışmaqçün daş dilini,
Burun, dodaq, qaş dilini,
Çiçək, böcək, quş dilini
və hürməyi öyrənirəm.

Bu qüssə, qəm kəsir ömrü,
Puç edir, həm kəsir ömrü,
Arxamca kəm-kəsir ömrü
Sürüməyi öyrənirəm.

Sir-sifətim qırışmamış,
Kimsə gəlib soruşmamış,
Toz-torpağa qarışmamış
Çürüməyi öyrənirəm.

SƏRGİ

Təranə Nurinin rəsmləri

"Ulduz"lu hədiyyə



ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN